# APREL ZƏFƏRİMİZDƏN 10 İL ÖTDÜ!

Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 12 (6154) 3 aprel 2026-cı il | Qiyməti 40 qəpik

## Azərbaycan TDT-nin inkişafına böyük töhfə verir və verəcək



**Bütövlükdə Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək. Bu, bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir.**

**Adalet.az xəbər verir ki, bu sözləri Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbul edərkən söyləyib.**

**Dövlətimizin başçısı deyib: "Dəfələrlə müxtəlif kürsülərdən bəyan etmişdik ki, Türk dünyası bizim ailəmizdir, bizim başqa ailəmiz yoxdur. Bu ailəni gələcəyə aparmaq üçün birgə səylərin göstərilməsi təbii ki, çox önəmlidir".**

**Bizi 200 illik işğaldan və əsarətdən xilas edən 44 günlük Zəfərimizin özülü 10 il bundun əvvəl 4 günlük Aprel döyüşlərində qoyulmuşdu.**



## TAHİR GÖZƏLİN DİQQƏTİNƏ

**Azərbaycan futbolunu Avropa səviyyəsinə çatdıran "Qarabağ" klubunun başı üzərində bir kabus dolaşmaqdadır.**



***AQİL ABBAS***

## XOŞBƏXTCİYƏZ

Bax:səh-2



**RAUF QƏRİB ALAGÖZ: Qar yağır polis, yağış yağır polis, yanğın olur polis - hər işə polis müdaxilə edir. Bəs, aidiyyatı qurumlar nə işə yarıyır?**



**Azərbaycanın Xalq artisti, görkəmli sənətkarımız Rasim Balayev bu dünyadan yoruldu və çıxdı getdi Allahın dərgahına. Və getdi cənnətdəki görkəmli sənətkarlarımızın yanına.**

## 1 APREL ZARAFATI

**Gözəl bir insan ölür. Düşür cənnətə, hər şey gözəl, amma dərdləşməyə adam az, çox darıxır. Eşidir ki, hasarın o biri tayında səs-küy, oxuyan kim, çalan kim.**

Cənnətin mələyinə deyir ki, qardaş, mən burda təsbeh çevirməkdən yoruldum, mən cəhənnəmə getmək istəyirəm. Deyirlər ki, olmaz. Qayıdır ki, Allahın sevimli bəndəsi deyiləm, niyə mənim sonuncu arzumu yerinə yetirmirsiniz?

Çox çək-çevirdən sonra Cənnətin mələyi onun arzusunu Xaliqə çatdırır. Cavab gəlir ki, ona həyat verin, qaytarın gəldiyi dünyaya, getsin orda günah işlətsin, ondan sonra öldürün, atın cəhənnəmə.

Bu gözəl və ləyaqətli insan sevinə-sevinə qayıdır bu dünyaya. Günah qazanmaq üçün başlayır hamıya pislik etməyə.

Axırda Ölüm mələyi gəlir ki, artıq cəhənnəmliksən, çıx özünü doqquzuncu mərtəbədən at, düşərsən cəhənnəmə.

Günaha batmış gözəl insan sevinə-sevinə qalxır, səkkizinci mərtəbədə qarşısına 70 yaşlı bir qarı çıxır. Fikirləşir ki, bu qarını da zorlasa nə böyük günaha batar və düşər lap cəhənnəmin ortasına. Qarını zorlayır və qalxır özünü doqquzuncu mərtəbədən atır.

Yenə düşür cənnətin ən səfalı yerinə. Cənnət mələyindən qəzəblə soruşur:

**- Bəs, bu niyə belə oldu?**

Cənnət mələyi:

**- Xaliq bu dəfə o qarının duasını qəbul etdi.**

***İradə TUNCAY***
***iradetuncay@rambler.ru***

## Günəşə at çapan oğlan



***

**Balacalar mətbəxdə qurdalanırlar yanımda. Qurdalanmaq həm də onları maraqlandıran suallar yaranıb deməkdir... Hər şey haqqında - atasının, əmisinin uşaqlığından, özlərinin evə gətirilməyindən, bizim onları nə qədər sevməyimizdən və... Birdən soruşurlar ki, babaları mənə evlənməyi necə təklif edib... Və harda?**

**Niyə belə təfərrüatlar maraqlandırır onları? Mən də xatırlaya-xatırlaya danışıram...**

***

Universitetin uzun dəhlizi gəlir gözlərim önünə - pəncərəyə söykənib söhbətləşirik tələbə yoldaşlarımla... Boylanıb bizə baxan oğlan çəkir diqqətimi. İri gözlü, uzun qara kirpikli və bir az da yekəxana görkəmli...

İlıq oktyabr ayıdır... 1979-cu ilin oktyabrı...

Bax:səh-3

## Hüquq-mühafizə orqanları əməkdaşlarının NƏZƏRİNƏ!

**"Ədalət" qəzetinin regionlar üzrə redaktor müavini, Azərbaycanın tanınmış jurnalisti, yazıçı-publisist Məzahir Əhmədoğlunun imzası hər kəsə məlumdur. Təəssüf ki, dələduzluq edən bir şəxs Məzahir Əhmədoğlunun adından və nüfuzundan istifadə edərək ayrı-ayrı idarə və müəssisə rəhbərlərinə, iş adamlarına, millət vəkillərinə, hətta hüquq-mühafizə işçilərinə telefonla müraciət edərək pul dilənir!!!**

**Həmin dələduz öz müraciətində "60 illik yubileyini" qeyd etmək, "qəzaya düşdüyü üçün" yardıma ehtiyacı olduğunu və digər bəhanələri dilə gətirərək həyasızcasına pul istəyir. Sonuncu dəfə həmin şəxs 070-200-58-16 nömrəsindən istifadə edib. "Ədalət" qəzeti olaraq bildiririk ki, Məzahir Əhmədoğlunun adından istifadə edən həmin şəxs mətbuata yad bir şərəfsizdir və hüquq-mühafizə orqanlarına üz tuturuq:**

**BU ŞƏRƏFSİZİ TAPIN VƏ QANUNLA CƏZALANDIRIN!**

## İlham Əliyev Türkiyənin Vitse-prezidentininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Cevdet Yılmaz Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Cevdet Yılmaz Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu deyərək, məhz bunun Şuşa Bəyannaməsinin əsas prinsiplərindən biri olduğunu vurğuladı.

Prezident İlham Əliyev də öz növbəsində ölkəmizin hər zaman Türkiyənin yanında olduğunu dedi.

Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi məmnunluqla vurğulandı, müxtəlif səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərlərin münasibətlərimizin daha da genişlənməsi işinə töhfə verdiyi bildirildi.

Söhbət zamanı Bakıda Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün keçirilməsinin əhəmiyyətinə toxunuldu, bu tədbirin təşkilat çərçivəsində əməkdaşlığın gücləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığı vurğulandı.

Cevdet Yılmaz bu toplantıda Şimali Kipr Türk Cümhuriyyətinin Baş nazirinin iştirakını da məmnunluqla qeyd edərək, buna görə Azərbaycan tərəfinə təşəkkürünü bildirdi.

Ötən il Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün yüksək səviyyədə keçirildiyini və həmin tədbirdə yaxşı nəticələrin əldə edildiyini deyən qonaq, Azərbaycanın Türk Dövlətləri Təşkilatına sədrliyinin uğurlu olduğunu vurğuladı.

Görüş zamanı, həmçinin Azərbaycanla Türkiyə arasında ikitərəfli əməkdaşlığın perspektivləri, regional vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

## Patent almaq artıq daha sürətli olacaq

**Prezident İlham Əliyev ”Patent haqqında” qanuna edilən dəyişiklikləri təsdiqləyib.**

Sənədə əsasən, ixtiraya, faydalı modelə və sənaye nümunəsinə patent alınması üçün iddia ərizəsinin verilməsi, qeydiyyatı, o cümlədən iddia sənədinin ekspertizası üzrə prosedurların asanlaşdırılması nəzərdə tutulur. Qanuna görə ekspertiza müddəti (hazırda ekspertiza müddəti 12 ay təşkil edir) əhəmiyyətli dərəcədə azalacaq.

Bundan başqa ixtiraların patentləşdirilməsi üçün xarici iddiaçılar özləri bir sıra prosedurları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi quruma müraciət etməklə həyata keçirə biləcəklər.

Sənədə əsasən, işəgötürənin xidməti tapşırığı əsasında ixtira, faydalı model və sənaye nümunəsi yaradan müəllifə ədalətli qonorarın ödənilməsi üçün hüquqi bazanın formalaşdırılması nəzərdə tutulur. Belə ki, ixtiranın müəllifi patentin alınmasına və onun qüvvədə saxlanılmasına görə patentdən gəlirin əldə edildiyi tarixədək işəgötürənin çəkdiyi xərclər çıxıldıqdan sonra qalan vəsaitin azı 50 faizini qonorar kimi ala biləcəklər.

Dəyişiklik ixtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və coğrafi göstəriciləri əhatə edən sənaye mülkiyyəti sahəsində qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılmasını özündə ehtiva edir.

Qanun:

- ölkədə ixtira və patent fəallığını yüksəldəcək;
- patent alınması ilə bağlı prosedurlar sadələşdiriləcək, ekspertiza müddəti nəzərəçarpacaq dərəcədə azalacaq;
- ixtiranın yaradıcısı olan müəllifə ödənilməli olan qonorarın məbləği əhəmiyyətli dərəcədə artacaq. Bu da müəllifin sosial-maddi vəziyyətinin yaxşılaşması ilə yanaşı sənayedə tətbiq oluna bilən ixtiraların sayının artmasına da müsbət təsir edəcək;
- Qlobal İnnovasiya İndeksi üzrə ölkəmizin beynəlxalq reytinqlərdə göstəriciləri yaxşılaşacaq;
- əqli mülkiyyət qanunvericiliyi daha da təkmilləşəcək.

*AQİL ABBAS*

# XOŞBƏXTCİYƏZ

*Heç vaxt təmtəraqlı, nəinki təmtəraqlı, heç təmtəraqsız da ad günü keçirməmişəm. Aprelin 1-i mənim üçün başqa günlərdən o qədər də fərqlənmir. Sadəcə olaraq, dostlar həmin gün mənə təbrik zəngi edirlər, bu da mənə xoş gəlir. Əvvəllər bir-iki dost mənə saat bağışlayardı, bilirdilər ki, mənim saatdan xoşum gəlir. Sonra onlar da yoruldular ki, bir adama nə qədər saat bağışlayarlar. Kitab bağışlayan da olurdu.*

*Ən böyük hədiyyəni 50 yaşım olanda Ulu Öndər Heydər Əliyevdən almışdım. İtaliyada məxsusi olaraq Ulu Öndər üçün hazırlanmış iki qızıl qələm və üstündə imzası ilə Ulu Öndərin barelyefi olan qeyri-adi bir cib saatı.*

*Sonra isə bu ənənəni onun varisi Möhtərəm Prezident İlham Əliyev davam etdirdi. Cənab Prezidentimiz 60 yaşımda "Şöhrət" ordeni, 70 yaşımda isə "Vətənə xidmətə görə" birinci dərəcəli ordenlə təltif olunmuşam. Bu hədiyyələr dədəmə də bəsdi, bütün nəslimə də.*

*Ad günümlə bağlı nəsə yazmaq istədim, sonra fikrimdən vaz keçdim. 25 yaşım olanda "Ən xoşbəxt adam" adlı povest yazmışam, dedim povestdən bir parçanı oxuculara paylaşım. Həmin gün aprelin 1-i idi, ad günümüydü, kirayədə yaşayırdım, cibimdə də bircə manatım vardı.*

*Ağdam işğaldan azad olunandan sonra neçə ildi ki, "Real" televiziyasının əməkdaşları və bir-iki dostumla Ağdama gedir, həyətimizdə tonqal yandırır, üstündən hoppanır, Allahın verdiyi nemətlərlə ad günümü qeyd edirəm.*

*Və əslində mənə ən böyük hədiyyə Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin sərkərdəliyi ilə, şəhidlərimizin və qazilərimizin qəhrəmanlığı ilə azad olunmuş Qarabağdı və hər il Ağdamda yandırdığım tonqaldı.*

*Allah heç vaxt ocaqlarımızı söndürməsin!*

*Povestdən bu bir parçanı oxuyun, xoşunuza gəlsə bütövlükdə hissə-hissə yenidən saytımıza yerləşdirərəm.*

## ƏN XOŞBƏXT ADAM

**Bu gün ayın neçəsidir? Dünən ayın otuz biriydisə, demək bu gün ayınbiri olmalıdır. Bir il də getdi ömürdən. İyirmi dörd yox, iyirmi beş! Düz iyirmi beş il bundan əvvəl bugünkü gün kim isə qaçıb atasını muştuluqlayıb ki, gözün aydın, oğlun olub. Sonra da yığışmışdılar ad qoymağa, hərə bir ad demişdi. Ata nənəsi (babaları artıq...) ikiayağını bir başmağa dirəmişdi ki, uşağın adını Məşədi Cəfərquluqoyun. Rəhmətlik Məşədi Cəfərqulu yaxşı kişi olmuşdu, yaxşı da mərsiyə deyərdi. Ana nənəsi də daş atıb başını tutmuşdu ki, uşağın adını Muzdur Əliş qoymasanız, mən bir də bu evə ayağımı basmaram. O**

**Muzdur Əliş ki, qarının dayısıydı, kənddə də ilk bolşevik olmuşdu, başına and içirdilər. Və o ətrafda heç bir özündən deyən kişi - Məşədi Cəfərqulu da onların içində olmağınan - sözünün qabağına söz çıxara bilməmişdi. Amma atası uşağın adını nə Muzdur Əliş qoymuşdu, nə də Məşədi Cəfərqulu - uşaq da uzun müddət adsız qalmışdı.**

**Deməli, bu gün iyirmi beş yaşı tamam olur - çox gözəl!**

**Mehdi Hüseynzadə iyirmi dörd...**

**Dobrolyubov iyirmi beş...**

**Şirəli Müslümov yüz altmış yeddi...**

**Heç vaxt ad günü keçirməmişdi və elə yaxşı da eləmişdi! Ad günündə yığışırlar bir yerə, gözəl-gözəl sağlıqlar deyirlər. Sonra düz bir il - növbəti ad günü gələnədək - həmin gözəl sağlıqları unudurlar, ya da eynən həmin sağlıqları başqa ad günlərində deyirlər. İndiyədək heç kəs onu ad günü münasibətilə təbrik etməmişdi. Əslində, heç o da hardansa və ya kimdənsə təbrik gözləməmişdi, gözləmirdi də. Yox, yox, ata-anası onu yaddan çıxarmamışdı. Əsla! Amma məsələ onda idi ki, kənddə ad günü dəb deyildi. Həm də bir yox, iki yox, evdə düz səkkiz uşaq vardı. Ata-ana necə yadında saxlayaydı ki, kim hansı ayın**

**hansı günündə anadan olub. Axı bir də bunun nə dəxli ki, insan hansı ayın hansı günündə və harda anadan olub? Ən vacibi odur ki, anadan olub, vəssalam.**

**Evdən yapışmışdılar ki, bir qəşəng qız tap - guya itirmişdi - evlən. Amma hələ evlənmək haqqında fikirləşmirdi. Onun zənnincə, evlənmək həyatda bəlkə də (və bəlkə də elə bəlkəsiz) ən çətin bir problem idi. Bu çətin problemi həll etmək isə hələlik onun imkan hüdudlarından kənardaydı. Ona görə də nəinki evlənməyə, heç evlənmək haqqında bir əsaslı fikirləşməyə də meyl göstərmirdi. Çünki hələ tez idi və qarşısında öncə daha vacib məsələlər dururdu. Bir də ki, bu barədə özünün çox qəribə baxışları vardı. Bu çox qəribə baxışlardan biri o idi ki, özü heç bir tanınmış nəsildən olmadığı üçün - heç bir tarixçi, heç bir tarixi kitabda onların nəsilləri haqqında bircə kəlmə də danışmamışdı - onun nəslindən də nə Məhəmməd peyğəmbər çıxacaq, nə Eynşteyn.**

**Bu gün ayın biridir, sabah ikisi, o biri gün üçü, sonra dördü, sonra... Sonra yenə biri!!!**

**Nədənsə hər dəfə ayın biri gələndə özünü çox pis hiss edirdi. Bu gün otaqdan çıxanda ev sahibi ona baxacaqdı; o da bu baxışlardan oxuyacaqdı ki, ev kirayəsinin vaxtıdır. Maaş isə hələ sabah olacaq. Maaşın haçan verilməsinin onun üçün əhəmiyyəti olsa da, ev sahibinə heç bir dəxli yox idi.**

**Gərək həyətdən elə ustalıqla çıxa ki, ev sahibiylə rastlaşmaya.Düzdür, kirayəni iki gün, lap üç gün gecikdirsə də ev sahibi danışan adam deyil. Amma özü utanırdı. Bu səmimi, mehriban adam hər dəfə ev kirayəsini alanda qızarırdı, pulu ondan utana-utana götürürdü, hətta deyirdi də:**

**- Qonşu, yoxundu, qalsın.**

**Onun ürəyindən keçirdi ki, verməsin, amma:**

**- Yox, almasaz, inciyərəm.**

**Əslində isə inciyib eləməzdi, əksinə, çox şad olardı. Ev sahibi də onun xətrini çox istədiyindən razı olmazdı ki, incisin və pulu alardı.**

**Bəzən fikirləşirdi ki, tutalım bu gün-sabah ev aldı, bəs sonra necə edəcək, kirə pullarını kimə verəcək. Demək, özünün evi olsa, kirəpulu da özünə qalır və maaşı həmin pulun miqdarı qədər artır. Onsuz da maaşla yaşamağa öyrənmişdi, axırıncı manatını maaşdan bir gün əvvəl xərcləyərdi. Neçə dəfə istəmişdi bu vərdişi dəyişsin, maaş gününə pul saxlasın, bacarmamışdı. Və bu gün də o, sonuncu manatını redaksiyanın bufetində qoyacaqdı. Axı, bu gün başqa günlərdən fərqlənməliydi, iyirmi beş yaşı tamam olurdu.**

**Səhər həmişəkitək açılmışdı. Radio da öz tanış proqramı əsasında verilişlərə başlamışdı. Yenə soyuducudakı pendir onu gözləyirdi.**

**Pəncərənin pərdəsini qaldırıb ehtiyatla həyətə boylandı: Vəlinin arvadı deyinə-deyinə paltar yuyurdu. Arvadının hər səhər bir bəhanə tapıb deyinməsinə öyrənmiş Vəlinin isə elə bil dünya vecinə deyildi. Oturmuşdu qapının kandarında "Avrora"sını tüstülədirdi, ev sahibi isə xoşbəxtlikdən həyətdə görünmürdü.**

**Otaqdan çıxdı.**

**Vəli onu görən kimi göz vurdu və gülümsədi. O da borclu qalmadı- Vəliyə göz vurdu ki, işində ol.**

**Ev sahibi indicə həyətdə görünə bilərdi. Tələsdi. Fikri qalmışdı arxada, ev sahibi hər dəqiqə onu səsləyə bilərdi. Bu da həyətin**

**qapısı.**

**Birdən o bədbəxt hadisə baş verdi.**

**- Qonşu, sabahın xeyir.**

**Dayandı və fikirləşdi ki, heç belə xeyirdən olmaz. Geri çevrildi, gördü ev sahibinin kefi kökdür.**

**- Sabahınız xeyir.**

**- Qonşu, pulunuz düşüb, götürün.**

**Bu gün aprelin biri olduğunu çox yaxşı bilirdi. Onu da bilirdi ki,pulu heç cürə düşə bilməz - bir şey ki, adamın cibində olmaya, onu necə yerə salıb itirmək olar?! Bircə manatı vardı və o bircə manatı elə yerə qoymamışdı ki, itirə biləydi.**

**İndi qayıdıb desəydi ki, bu gün aprelin biridir - bu söz ev sahibinin pərt olması üçün kifayət idi. Bu dəqiqə ev sahibini pərt etmək onunəlində su içmək kimi asandı, amma bu pərtliyin altından çıxmaq...**

**Ürəyindən keçənləri demədi, ev sahibinin könlünü xoş eləmək üçün əyildi, ora-bura baxdı və soruşdu:**

**- Hanı?**

**- Qonşu, bu gün pervi apreldi! - dedi və qəhqəhə çəkdi.**

**Aprelin biri olduğunu indicə bilirmiş kimi, əlini vurdu alnına və oda başladı gülməyə - ev sahibinin növbəti sözünü gözləmədən gülə-gülədə həyətdən çıxdı.**

**Bu gülüş məcbur elədi ki, adətinə xilaf olaraq bir siqaret yandırsın.Siqareti yandırdı və qeyri-ixtiyari olaraq tinə baxdı - indicə bu tindən qoltuğunda xalat qəşəng bir qız çıxmalıydı.**

**Bu da həmin qız.**

**Düz iki il idi ki, hər səhər evdən çıxanda bax elə buradaca bu qızla rastlaşardı, ani baxışardılar və ötüb keçərdilər. Hər dəfə də istəyərdi qıza salam versin. Qız yaxınlaşdıqca özünü cəmləyərdi də, amma son anda gücü çatmaz və salam verə bilməzdi. Hər səhər rastlaşdığı bu qız üçün ad da fikirləşmişdi - Leyla. Və inanırdı ki, qəşəng qızın adı Leyladır. Niyə inanırdı, bilmirdi. İnanırdı, vəssalam. Nədənsə ona elə gəlirdi ki, bu qız da özlüyündə ona bir ad tapıb.**

**Hər səhər beləcə rastlaşardılar, beləcə də salamlaşmamış ötüb keçərdilər. Sonra çevrilib qızın dalınca baxardı. Elə bilərdi indicə qız da çevrilib onun ardınca baxacaq, amma qız çevrilməzdi...**

İRADƏ TUNCAY

# Günəşə at çapan oğlan

***

**Balacalar mətbəxdə qurdalanırlar yanımda. Qurdalanmaq həm də onları maraqlandıran suallar yaranıb deməkdir... Hər şey haqqında - atasının, əmisinin uşaqlığından, özlərinin evə gətirilməyindən, bizim onları nə qədər sevməyimizdən və... Birdən soruşurlar ki, babaları mənə evlənməyi necə təklif edib... Və harda?**

**Niyə belə təfərrüatlar maraqlandırır onları? Mən də xatırlaya-xatırlaya danışıram...**

***

Universitetin uzun dəhlizi gəlir gözlərim önünə - pəncərəyə söykənib söhbətləşirik tələbə yoldaşlarımla... Boylanıb bizə baxan oğlan çəkir diqqətimi. İri gözlü, uzun qara kirpikli və bir az da yekəxana görkəmli...

İlıq oktyabr ayıdır... 1979-cu ilin oktyabrı...

Evimiz o zaman Lenin prospekti adlanan yerdə idi - indi o bina yoxdu. Söküblər... Axşam çağı ev telefonuna zəng gəlir (Zatən, o vaxtlar mobil rabitə mövcud deyildi). Tələbə yoldaşımdı - Mənsur Vəliyev - deyir ki, mümkündüsə yarım saatlıq aşağı, həyətə düşüm. Deyir ki, işi var mənimlə, söhbəti var... Atam rayona gedib, problem olmaz aşağı düşmək. İzah edim ki, mənim gənclik və yeniyetməlik dövrüm ağır məhbusluq zamanı idi. Əlbəttə, zarafatdı - amma hər zarafatın həm də bir həqiqət payı da var... Yəni, atam evdə olsaydı, mənim axşam vaxtı evdən aralanıb kiminləsə söhbət eləmək imkanım olmazdı, yəni, icazə verməzdilər. Anama deyirəm ki, tələbə yoldaşım gəlib, həyətdə gözləyir, işi var mənimlə. Enirəm həyətə və görürəm ki, həmin o iri gözlü, yekəxana görkəmli oğlan da Mənsurun yanında durub. Çox mütaliə etdiyimiz vaxtlar idi - Mənsur "Ədəbiyyat və incəsənət" qəzetində bir hekayə də göstərmişdi mənə "Şirinlik" adında. Müəllifi də Aqil Abbas idi. Belə tanımışdım iri gözlü oğlanı... İndi də bir anlıq tutuldum və baxışdıq. Yenə yekəxana ədayla Mənsura "Sən get" - dedi. "Bizim söhbətimiz var..."

Həəə, o söhbətə başlayan davam edirik indiyə qədər...

Noyabr ayında, ad günümdə (20 yaşım olurdu) qapının zəngini çalıb bir dəstə gül yapışdırıb qaçmışdı qapının dəstəyinə... Gülü götürdüm, anam tərs-tərs baxdı üzümə, qorxudan atdım balkona... Neçə gün qaldı orda... Aqilin də 26 yaşı vardı...

Və gizli-aşkar görüşlərimiz də başladı o gündən sonra. Aqil də Kommunist küçəsinin o biri tərəfində "Elm və həyat" jurnalında işləyirdi. Mən dərsdən çıxanda baxırdım ki, hardadı? Bir də görürdüm özünü çatdırdı. Kommunist (indiki İstiqlaliyyət) küçəsində dərsdən çıxıb Lenin prospektinə evə gedirdik, pay-piyada... Yəni, birlikdə olmağa çox vaxtımız olsun deyə. Vaxt ən qiymətli anlam imiş. O vaxt anlamırdıq...

***

İndi balacalar bəzi xatirələri canlandırdılar. Yadıma düşdükcə çoxunun da canlı olmadığını düşünürəm... Daha doğrusu, xatirələr canlıdı. İnsanlar sağ deyil, diri deyil. Elçilik, nişanımız, toyumuz... Evimiz olmasa da, evləndik. Ritualları yada saldıqca cəmiyyətin qiymətli, dəyərli insanları gəlir gözümün qabağına... Şair Şahmar Əkbərzadə, professor Firidun Hüseynov, yazıçı Faiq Dərgahov, Vaqif Bayatlı, Akif İslamzadə...

İnqilab havası gəldi məmləkətə... Elçibəyi tanıdıq, İskəndər Həmidovla rastlaşdığım günü xatırlayıram... Aqillə İskəndər lap gənc yaşlarından dost idilər... İllər uçdu və vaxtı yeyilən ailələrdən biri də Rəna-İskəndər cütlüyü idi...

Kitablar gəlməyə başladı evə - əvvəlcə jurnallarda çap olundu... "Ulduz", "Azərbaycan"... Hə, bir də heç unutmuram, yeni romanını, "Ən xoşbəxt adamı" lap mətbəədən çıxardı çapdan baş redaktor... Xoşbəxtliyi çöndü elə bil. Sındı... Belə pərt görməmişdim. Zamanla çox oldu əlbəttə. Bilirsiz kim idi baş redaktor??? Əkrəm Əylisli! Həmin əsər bir neçə ildən sonra Respublika Komsomol mükafatına təqdim olundu və aldı da. Amma qəribədir, hamı hücum çəkəndə başını sığalladıqları susub dayandılar... Sınmağını da biz unutmuruq!!!

Bir ömrü bir yazıya sığdırmaq nə çətin imiş... Fraqmentlər gəlir göz önünə...

***

Sonra, sonra, sonra müharibə başladı və vaxt ora xərcləndi... 79-dan 89-a qədər nisbətən rahat yaşaya bildik. Nisbətən... Ev yox, pul-para yox, amma müharibə də yox idi... Qucağımda körpələrlə Ağdama gedişimizi xatırladım və Rəşad Məcidlə ilk tanışlığımı. Və o vaxtdan indiyə kimi bütün ağrılı və xoş günlərimizdə birlikdə oldular... Müharibənin acılarını da yanaşı yaşadılar... Müharibə isə vaxtımızı yedi, həm də Qarabağı - yerini-yurdunu bu qədər sevən biri üçün böyük yara idi. Az qala hər həftə Ağdama gedən bir insan, hər addımın, daşın-qayasın tanıyan bir insan 93-cü ildən ta İkinci Qarabağ savaşına qədər oraları görmədi...

***

...Deyir, xəbər gəldi Ağdam işğal olunub, çıxıram rayona, zəng vurdular. Dedilər ki, camaat yollarda acından, susuzluqdan mələyir... Getdim çörək işinə baxan böyüklərin yanına, dedilər ki, ora yaxın zavodlara göstəriş verək, ordan götür... Getdim deyir həmin rayona, indi heç kim Ağdama getmək istəmir. Qorxurlar. Böyük pul təklif elədim, razılaşdı şofer. Evinə getdi, gəldi... Mənim də deyir dişim bağırsağımı kəsir... Nəysə getdik, bu şofer də nə tanıyır Qarabağı, aldatdım apardım ki, hələ Ağdam deyil... Çoxlu peçenye, su və çörək... Çatdıq Qərvəndə, gördük ki, Qərvənd-Bərdə yolu adamlar çılpaq, ayaqyalın, ac-susuz... Dünyanın ən Varlı Şəhərinin adamları mələşir... Gördük bir-bir paylaya bilməyəcəyik, başladıq maşından atmağa... Adamlar da havada tutur nə atırıqsa... Bunları hər xatırlayanda ağlayır...

Uzaqlaşaq ağlamaqdan - məzəli söhbətlərimiz də çox olur... Deməli, bir hadisəni nəql eləyəndə o qədər təfərrüat qatır ki, söhbətə... Mənim iki dəqiqəyə anladacağım nəyisə o iyirmi dəqiqəyə danışır. Bayaqdan yol gedirik - qatarda unutduğu pencəyin xatirəsin danışır. Deməli, provodnik kupenin qapısını neçə dəfə döyüb, çayı nəynən gətirib, hansı stansiyada neçə dəfə dayanıb... Mən onun kimi danışa bilmərəm eeee... Hövsələm daraldı dedim - sonun danış görüm axırda nooldu??? Küsdü, susdu bir xeyli... Sonra yadından çıxdı ki, küsüb, yenə xatirə danışmağa başladı...

Yol gedirdik... "Yoldu dana, uzanıf gedir..." Ələt postuna yaxınlaşanda uzaqdan gördüm ki, yəni, hiss elədim ki, bu serjant bizi saxlayacaq... Yoxsul göründük gözünə. Saxladı... Başladı elində



ki o nə deyirlər ona - orda qurdalanmağa. Biz də sakit baxırıq. Məşədi danışdı axır ki:

**- Ay oğul, nə axtarırsan?**

**- Adın niyə burda yoxdu?**

**- Maşın İradə İbrahimovanındı.**

**- Həə? Sənin familiyan İbrahimovdu?**

Paaa, Məşədiyə belə söz haa? Sürdü getdi. Serjant da, qışqırır arxadan - əmi, dayan!!! Nəysə getdik, getdik, çatdıq Yevlax postuna. Təbii ki, saxladılar. Bir göyçək, tombuş, qırmızıyanaq serjant idi bu da. Məşədi soruşdu ki:

**- Nə qüsurum var, niyə saxladın?**

**- Dayı, sənədləri yoxlayıram. Bu moment arxadan biri özünü hövlnak çatdırdı.**

**- Aqil müəllim, fəxrimizsiz, bir qulluq, sağ-salamat, yaxşı yol... Bir xeyli iltifatlar... (Qanun pozmamışdıq haa, elə kefi istəyib saxlamışdı...) Yəqin, yuxarı həyətdən idi, ola bilər leytenant-filan... Yuxarı həyət adamları tanıyır adətən... Bəzən serjantlar da tanıyır, amma paxıllıqdan tanımayanlara yardım etmirlər... Deyirlər, qoy problem yaşasın... Hə, bir də əyalət serjantları "əmi, dayı, ağsaqqal" müraciətlərindən qurtula bilmirlər... Və əhalinin hamısı deputat deyil...**

Məşədi müraciəti təəccüb yaratmasın - sosial şəbəkələrdə Aqil Abbasa Məşədi deyirəm. Yəni, obrazın ismi Məşədidir...

Məşədi danışıb mənə - deyir, Ağdamda "Qaz-51" şoferi vardı, axşam işdən sonra arvadını oturdurdu yanında, rayonda gəzdirirdi (Yəqin, qaranlıqda gəzdirirmiş). Bir gün də pambıq vaxtıymış, iclas gedirmiş, görüblər bir maşın siqnal verə-verə mədəniyyət evinin qabağından o baş-bu başa gedir. Soruşublar kimdi? Deyiblər filankəsin qardaşı (böyük vəzifədə işləyirmiş qardaş). İndi Məşədiynən Badamdardan Vergilər Nazirliyinə qədər gedib-gəlmişik. Sadəcə, siqnal vermədən.

Ağdama kənddən ilk gəlişin danışıb - atam xalamgilə apardı, o da uşaqlarıyla birgə göndərdi uşaq bağçasına... Sən demə, orda da uşaqları zorla yatırtmaq kimi bir qayda varmış. Atam dalımca gələnə kimi ağladım deyir... Məzəli xatirələrə də ağlamaq qarışır, deyəsən...

***

Yaralı xatirələr. Sevmirəm... Kütləvi olanda heç yox, ayrı-ayrılıqda... Ağaclar, kollar, duman basmış dağlar... Arada gözə dəyən əsgər, polis nəfəri... Tam şəkil yaranmır... Hava da sərindi - gəndalaş, itburnu, böyürtkən... Təbiət də vəhşiləşib... Və bizim doğma hesab etməyimiz üçün, xatirələrə qucaq açmağımız üçün orda, o xatirələrin içində doğma adamlar boy göstərməlidir... Gülablıya yol aldım - xaraba qalmış təbiət. Axmayan su... Dərilməyən meyvələr... Etiraz edir hər şey... Və bu etiraz diskomfort yaradır... Doğmalıq yaranmır... Ekskursiya yaxşıdı, amma yaralıdır... Kütləvi yaralı... Sınıqdı... Və həddindən artıq çoxdu... Hər gedib əl uzadanda yad görünür... Fikirlərim də dolaşıqdı...Uzun illər gərəkəcək bu dolaşığı çözmək... Evlərin tikilməyindən çox, minaların təmizlənməyindən çox... Məzarlıqda nə anasının, nə də qardaşının qəbrin tapa bilmədi...

Müharibə onun xarakterində də başqa keyfiyyətlər yaratdı - elə bil, unutmaq istəyindən doğan və məni çox tədirgin edən. Fərqinə varmadan qadınlara və içkiyə meyil. Hərə bir yolla unutmağa çalışır...

Qəribədi, heç getmək istəmədiyim bir yer idi ora... Amma ağrısını çox çəkdiyim. Yəqin ağrıdan bezmişəm. Ağrıdan qorxuram - başlayan kimi ağrıkəsici dərmanla qorunuram. Səhər ayıldım, hazırlaşmağa başladım. Evliliyimizin 40 ilin qeyd etmək, 40 ilin sərgərdanlığın silmək, 40 ilin olan-keçənlərin, ya da keçməyənlərin xatırlamaq... Ordan keçib harasa getdiyimi yadıma salıram. Sonra beynim imtina edir xatirələrdən. Körpənin birini qucağıma götürüb, o birini arabaya otuzdurub dalan uzunu getdiyim də gəlir gözümün qabağına, qonşunun qapını açıb mənə baxdığı da. Bayaq bu dağılmış küçənin, dağılmış dalanın, dağılmış barının, divarların yaxınlığında yol boyu gördüyüm şəhid şəkillərin də göz önünə gətirirəm. Üşəndirir bu mənzərə... Olmayan küçələr, olmayan evlər, olmayan şəhər. Adı qalıb ancaq... Bir də 40 illik ömür, toy günümüzdən bu günə qədər yaşatdığım, ya da içimdə dəfn etdiyim. Əslində, bu təsvirləri çox gördük, çox oxuduq. Olmayan olanlar... Olanı sevməyə nə var ki? Olmayanı nə edək? Yenidən yaranacaq, amma bu yeni şəhər olacaq. Yeni insan nəslinin yeni şəhəri. Hələlik isə dünyanın hər yerindən gələn qonaqlara köhnədən qalan türbələri, məbədləri göstərə bilirik. Deməli, tarix vacibdi. Tarixdə boşluq yarananda elə viranə evlərin boşluğundan bir fərqi yoxdu. Ağrı verir bu boşluq. Tarixin ağrısın kəsmək üçün qanın torpağa qarışmağı gərəkir... Ağ damır gözlərə ağrı çoxalanda...

***

Səyahətlərimiz çox olub... Bircə gəmiylə gəzməmişik... Avropanın, Asiyanın görməli yerlərində... İsveçrədə dağlarda şəlalələrə baxanda dedi ki:

**- Kəlbəcərə oxşayır...**

Mızıldandım, dilimi sürüyüb - həəə, - dedim... Yəni, Aqil üçün hər yer öz yurduna-yuvasına bənzəyişlə gözəldir... Mənimçün isə yaxın adamlarımla həmin yerlərdə keçirdiyim günlərlə...

Sinqapurda onların yeməklərin yeyə bilmirdi - arıqladı bir xeyli qayıdanacan... Dedim bəlkə tısbağa yeyəsən??? İndi bu tısbağa sözü zarafat olub aramızda... Monteneqroda, əksinə, xoşuna gəlmişdi yeməklər - yeqin, türk nişanəsi çox idi, ondan...

...İndi qeyd etməyə hazırlaşdığım 70 illikdə düşünürəm ki, vaxtımızı yeyən bu ağır dövrlərdə qarşımıza çıxan yaxşı insanlar da çox olub... Yollarımız çox olub... Gözəl yollarımız... Arzum budur - yollarımız bitməsin, yaxşı insanlar tükənməsin... Hər zamanın yeni insanları çıxır qarşımıza. Zarafatla deyirlər ki, Məşədi patronu (yəni, məni) yanıbalalı alıb, bizi də yük edib özünə... Yazının adın qoymağa da onlar kömək etdilər. Dedilər, onun obrazıdır...

Ad gününü qeyd etdiyimiz günlərdən biri idi - bacım zəng elədi, dedi ver telefonu Aqili təbrik edim... Telefonu götürən kimi - Şəlalə, bax, yaxşı ki, doğulmuşam. Yoxsa bacın qalardı evdə - dedi)))

**Əlbəttə, yaxşı ki, doğulmusan... Böyük bir ailənin, tayfanın, yurdun ağsaqqalı... İri gözlü, uzun kirpikli oğlan... Allah möhlət versin - Ağdamda qəhrələ yox, ürəyi şad rəqs edəsən... Balacalar böyüsün!!! Günəşə at çapan oğlan!!!**

**Yazarın arxivindən...**



Səxavət Məmməd

# Regionda çox şey kökündən dəyişəcək...

ABŞ-İsrail-İran müharibəsinin 3 həftəsi geridə qaldı. Bu müddət ərzində diqqət çəkən, xüsusilə üzərində durulacaq bir neçə məsələ var. Bunlardan birincisi - müharibənin ilk günlərindən də yazdığım kimi - müttəfiqlərin alternativ planlarının olmamasıdır. ABŞ və İsrail faktiki olaraq istədikləri nəticəni ala bilmədikləri üçün daha da aqressivləşirlər. İsrailin kəşfiyyat üstünlüyü (Mossad) və ”cərrahi zərbələri” İranın siyasi-hərbi elitasına ağır zərbə vura bilsə də, bu, döyüş meydanındakı ümumi mənzərəni iflic etmir. Çünki İranın hərbi sistemi fərdlər üzərində deyil, avtonom mərkəzlər üzərində qurulub. Bir generalın və ya liderin itirilməsi bütöv bir cəbhənin çökməsi demək deyil. Müttəfiqlər dərmandan, sudan tutmuş, elektrik və atom obyektlərinə qədər hər istiqamətdəki müəssisələrə zərbələr endirirlər. Ancaq bu aqressivlik heç bir nəticə vermir. İran faktiki olaraq ABŞ/İsrail cütlüyünə qarşı necə döyüşəcəyini çox gözəl mənimsəyib. Ona görə də təcavüzə məruz qalsa belə, İran bu cütlükdən daha sakit, daha səbrli və stabil görünür. Haşiyədən kənara çıxım: ABŞ və İsrailin bütün rəsmi şəxslərinin mətbuat konfransları və verdiyi müsahibələr bir Abbas Əraqçi etmir. Burada qətiyyən rəğbətdən söhbət gedə bilməz; sadəcə olaraq, Abbas Əraqçi peşəkar diplomatın necə olduğunu bütün dünyaya nümayiş etdirir.

Bu müharibə göstərdi ki, böyük aviadaşıyıcılar yalnız qondarma dövlətlərə və ya hansısa terror təşkilatlarına qarşı yararlı ola bilər. ABŞ-nin Yaxın Şərqdəki hər iki aviadaşıyıcısı işə yaramadı. Böyük ehtimalla üçüncünü də göndərəcəklər və o da digərlərinin taleyini yaşayacaq.

Bundan əlavə, ABŞ və İsrail nə qədər müasir texnologiyaları ilə öyünsələr də, praktikada İran dron sahəsində və radioelektron mübarizədə daha effektivdir. Şübhəsiz ki, bunda İrana Rusiya-Ukrayna müharibəsi də ciddi yardımçı oldu. Faktiki olaraq İran Rusiya-Ukrayna müharibəsini dərindən inceləyib; xüsusilə radarlardan yayınmaq, dron hücumları və buna paralel ballistik raketlərlə endirilən zərbələr, eyni zamanda müasir hava hücumundan müdafiə sistemlərindən yayınma yolları sahəsində özünü çox inkişaf etdirib. Rusiya-Ukrayna müharibəsinin birinci ilindən sonra ukraynalı mütəxəssislər də qeyd edirdilər ki, ruslar raketlərdə yeniliklər ediblər və onlar artıq əvvəlki trayektoriya ilə uçmurlar. Hər halda, ”Patriot”u aldatmaq ruslar və iranlılar üçün o qədər də çətin deyil. Əlavə olaraq qeyd etmək lazımdır ki, bu prosesdə Rusiyanın ”gözəgörünməz” dəstəyi də ciddi rol oynayır. Rusiyanın kəşfiyyat peyklərindən gələn koordinatların İranın raket dəqiqliyini artırması və bölgədəki rus REM sistemlərinin ABŞ-nin ”ağıllı” sursatlarını kor etməsi müharibənin taleyini dəyişən gizli faktordur. ABŞ müdafiə sənayesi bundan sonrakı mərhələdə ya yeni HHM sistemləri üzərində işləməli, ya da mövcud sistemlərini təkmilləşdirmək xəttini seçməli olacaq.

Real döyüş vəziyyətinə baxdıqda, ABŞ/İsrail əvvəlki sürət və tempdə zərbələr endirə bilmir. Burada söhbət təkcə resursun tükənməsindən yox, həm də məsafənin uzaqlığından gedir. Müharibələrdə logistika son dərəcə önəmli faktordur. İranın da tempi aşağı saldığı görünür, ancaq burada bir neçə mühüm amil var. Birincisi, İran rahatlıqla İsraili vura bilir. Yəni müharibənin ilk günlərində İraq, Suriya və İordaniya üzərində İran raketləri və dronları vurulurdusa, artıq bu hala rast gəlinmir. İran faktiki olaraq birinci eşalonu darmadağın edib. Hətta İordaniya ilə İsrail arasında siyasi gərginliyin yaşandığı da Qərb mediasında yazılır. Əlavə olaraq qeyd edim ki, İran faktiki olaraq İraqı müstəqilləşdirir. İraq ərazisində, demək olar ki, yalnız ABŞ-yə məxsus hərbi bazalar qalıb ki, onlar da daim zərbələr altındadır. Onların orada uzun müddət qala biləcəyi inandırıcı deyil.

Gələk Körfəz ölkələrinə. İran Körfəz ölkələrinə zərbələr endirməsəydi, düşünürəm ki, müharibənin ikinci həftəsində ya təslim olar, ya da ağır şərtlərlə sülhə razılaşardı. İran Körfəz ölkələrini vurmaqla təkcə coğrafiyanı genişləndirmədi, həm də düşmən qüvvələrini parçaladı. Misal üçün, İrana qarşı quru əməliyyatları keçirilərsə, Küveytə qarşı İraqdakı İrana bağlı qüvvələr hücuma keçə bilər. Bundan əlavə, Bəhreyn də eyni təhlükə ilə üz-üzə qala bilər. Husilər məsələsi isə başlı-başına bir bəladır. Niyə? Çünki Hörmüz boğazını açmaq üçün heç bir addım ata bilməyən ABŞ, Bab əl-Məndəb boğazının bağlanması problemi ilə üzləşə bilər. Husilərin əlində gəmi əleyhinə raketlərin və dronların olması barədə məlumatlar var. Faktiki olaraq İran müharibəni elə bir həddə çatdırıb və şaxələndirib ki, artıq bu müharibədə vacib olmayan istiqamət qalmayıb. Görünən odur ki, planlama zamanı diqqətə alınmayan çoxlu sayda faktor olub.

Bəzən mətbuatda bizə təqdim olunur ki, İran ordusunda mərkəzi idarəetmə itib. Əslində bu, ABŞ və NATO-nun illərdir nəzəriyyədə qalan bir yanaşması idi. Ancaq İran ordusu bunu praktikaya keçirərək, faktiki olaraq 7 istiqamətdə müstəqil komandanlıq kimi döyüş aparır. Bu modeldə hər bir ordu və ya korpus öz daxili resursları, avtonom logistikası və yeraltı anbarlarının ilə aylarla müstəqil döyüşmək qabiliyyətinə malikdir. Mərkəzi komandanlıq sıradan çıxsa belə, bu ”Mozaik Müdafiə” sistemi sayəsində hər bir bölmə sərbəst qərarlar qəbul edərək müqaviməti davam etdirir. Bu, düşmən üçün ”min kəsiklə ölüm” strategiyasıdır; mərkəzi vurub müharibəni bitirmək mümkün olmur. Hesab edirəm ki, Azərbaycanın da dərs çıxarmalı olduğu ən önəmli hərbi amillərdən biri məhz budur.

İrana qarşı quru əməliyyatlarının keçirilməsinə gəldikdə isə, bu, o qədər də asan və bəsit deyil. Söhbət təkcə İran ordusunun buna hazır olmasından getmir. ABŞ-nin Yaxın Şərqdə 50-55 min civarında qoşunu var, lakin bu qüvvələr fərqli bazalardadır və hamısı döyüşə hazır vəziyyətdə deyil. Yəni quru əməliyyatı üçün ABŞ regiona on minlərlə əlavə qoşun cəmləşdirməlidir. Bu isə qısa zamanda baş tuta bilməz. Adi bir nümunə götürək: Azərbaycanın Qarabağda keçirdiyi antiterror əməliyyatında qoşunların cəmləşməsi və ordunun tam hazır vəziyyətə gətirilməsi təxminən bir ay vaxt apardı. Ola bilsin deyənlər olacaq ki, ”o Azərbaycan ordusudur, bu isə ABŞ”. Fərqi yoxdur; quru qoşunlarının cəmləşməsi üçün ciddi vaxt lazımdır. Hazırda regiona gələ biləcək ən çevik qüvvə kimi ABŞ ordusunun 82-ci hava-desant diviziyası göstərilir. Bu diviziyanın şəxsi heyəti təxminən 18 min nəfərdir və yalnız bir briqadasının (2000-3000 nəfər) daim döyüşə hazır olduğu deyilir. ABŞ-yə ciddi vaxt lazımdır.

İran atəşkəsə getməyəcək, çünki fərqindədir ki, atəşkəs prosesin bitməsi yox, növbəti mərhələnin başlanğıcı olacaq. Ona görə də İran atəşkəs yox, konkret şərtlərlə çıxış edir. Quru qoşunları hazır olana qədər müharibənin davam etdirilməsi üçün ABŞ və İsrailin resursunun çatıb-çatmayacağını proqnozlaşdırmaq isə asan deyil.

Rusiya-Ukrayna müharibəsi ilə avropalılar hər şeyi tam anlamamışdı, ancaq hazırkı müharibə onlara göstərdi ki, bu qarşıdurmalar onlara zərərdən başqa heç nə vermir.

Ona görə də bir çox ölkə ABŞ ilə münasibətləri kəskinləşdirməkdən çəkinmir. Böyük ehtimalla bu müharibədən sonra Avropa öz təhlükəsizliyini təmin etmək üçün daha sürətli addımlar atacaq.

Bu şərtlərlə bitəcək müharibə nəinki Körfəzdə və Yaxın Şərqdə, elə bizim regionda da çox şeyi kökündən dəyişəcək...

# "Bu gün ABŞ-İsrail tandeminin Qəzzadan, İrandan istəyi nədir?"

**”Dünən Qəzza - Fələstin torpaqları, bu gün Tehran, Təbriz, Məşhəd, Şiraz, İsfahan... - külli-İran! Dünən Qəzzada sünni, bu gün İranda şiə müsəlmanlar eyni bir gücün - səlibçi-si*o*nist ittifaqının bombardmanıyla qətl edilir! Bilirsiniz, niyə?! Çünki hər iki ünvan bu lənətlənmiş gücün iradəsinə boyun əyməyən, parça-parça edilmiş İslam aləminin əsas direniş cəbhələri, müqavimət qalaları, ölümün özünə qalib gəlməyin örnəyini göstərən savaş meydanları, hər an külündən közərib alovlanan ocaqlar, məğlubedilməz bir düşüncənin dərin kök atdığı və yayıldığı ideya məkanlarıdır!”.**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şükürlü deyib.

O, deyib ki, bu gün Qəzzanı və İranı vurmaq üçün ərazilərini ABŞ-İsrail qoşunlarının ixtiyarına verənlər, üstəlik, böyük şövqlə onlara informasiya-təbliğat xidməti göstərənlər də özlərini müsəlman sayan, ”Quran”a əl basıb and içənlərdir:

”Hərəsinin də əlində-dilində bir bəhanəsi! Bu savaşda düşmənin yanında yer aldığını, onu güclü göstərmək üçün gizlicə anlaşdığını pərdələmək üçün hərəsi bir yalana, bir bəhanəyə sığınıb-bürünüb!Necə də 14 əsr əvvəlki Kufə əhlini, Kufə əyanlarını xatırladırlar, deyilmi?!Bəli, Yezidin şirin vədlərinə aldanan, onunla gizlicə anlaşan pul-vəzifə-içki düşkünü olan Kufə əyanları da eynən belə davranmışdılar - Hüseynin imdadına yetməmək üçün hərəsi bir bəhanə gətirərək, aradan çıxmışdılar!İndiki ”Kufə əyanları”nın - o ərəb şeyxlərinin kimliyini də biz yaxşı bilirik və onların əlamətlərini, gerçək simalarını və aqibətlərini isə yolgöstəricimiz ”Qurani-Kərim” bizə ələ tanıdır: ”...Onlar bir-birlərinin dostlarıdır. Sizdən hər kim onlarla dostluq edərsə, o da onlardandır. Şübhəsiz ki, Allah zalım tayfanı doğru yola yönəltməz”. (Maidə, 51)... Düz 14 əsr sonrakı bu təlatümdə isə mənim gözlərim və rahat qəlbim yalnız və yalnız Hürrü - o məşhur sərkərdəni axtarır!O Hürrü ki, Yezidin qoşununun başında Hüseynə beyət şərtlərini gətirmiş, onun yolunu kəsmişdi. Ancaq Peyğəmbərimizin (s) əziz nəvəsiylə söhbətdən sonra səhv etdiyini, belə bir ləyaqətli kişiyə qarşı çıxmağın doğru olmadığını, Yezidin cinahında yer almağınsa axirətini satmaq olduğunu anlayaraq, dərhal tövbə etmiş, qılıncını da götürərək ”Dininiz yoxdursa, heç olmasa qeyrətiniz olsun!” deyən Hüseynin çağırışına qoşulmuş, İmamın tərəfinə keçmişdi! Hüseynin yanında ilk şəhid də məhz Hürr olmuşdu!... Gözləyək, görək, bəs dövrümüzün Hürrü kim olacaq?!”.



Onun sözlərinə görə, oradakıların da iradəsini qırdılarsa, təslim etdilərsə, o ocaqları söndürdülərsə, əmin olun ki, bütün müsəlman dünyasını diz gətirəcək, bütün İslam coğrafiyasına daha bir neçə əsr hökm edəcəklər:

”Bacaracaqlarmı?! Mən inanmıram! Və bu inancımın əsasında da 14 əsrlik zəngin bir tarixin öyrətdiyi dərslər yatır!Şərin oxlarının - bu səlibçi-si*o*nist zehniyyətin, ”Epşteyn koalisiyası”nın müasir raket zərbələrinin yönəldiyi Qəzza da, günümüzün İranı da hər halıyla mənə yenidən 14 əsr əvvəli - 680-ci ilin Kərbəlasını xatırladır, gözlərim önündə o səhnələri canlandırır!Baxın: Yezidin Hüseyndən istəyi nə idi?! Beyət! Təslimiyyət! Onun şərtlərinin qəbulu! Bu gün ABŞ-İsrail tandeminin Qəzzadan, İrandan istəyi nədir?! Eynisi - beyət, təslimiyyət!...14 əsr əvvəl susqu Mərəya düzündə Yezidin sağ qalmaq təkliflərinə ”Mənim kimi birisi sənin kimi birisinə heç vaxt beyət etməz”, - demişdi Hüseyn və tək-tənha qalsa da, öldürüləcəklərini bilsə də öz övladları, qardaşı, bacısı, qardaşının və bacısının balalarıyla birgə son damla qanınadək vuruşmuşdu! Onun ölümü isə Əməvilərə və ondan sonrakı bütün zalım hakimiyyətlərə qarşı etirazların, qiyam və üsyanların nüvəsinə, ideya qaynağına, əsas hərəkətverici qüvvəsinə çevrilmişdi! Heç uzağa getməyin, bircə fakta diqqət yetirin: 14 əsr əvvəl Hüseynin qətlə yetirildiyinin 40-cı günü onun məzarının tək bir kor səhabə ziyarətçisi varıydısa, 14 əsr sonra eyni gündə o məzarı azı 30 milyon insan ziyarət edir və ilbəil də bu rəqəm artır artır! İndi İmam Hüseynin bu direnişini özünün rəsmi ideologiyasına çevirmiş bir dövlət - İran özünün dövlət ağlı və qürurlu xalqıyla düz 14 əsr sonra, 1 aylıq savaşda rəhbərlərinin və bütün komandan heyətinin öldürülməsinə baxmayaraq, eyni qətiyyət və iradəni iki hərbi-texnoloji qüdrət maşınına qarşı və bütün dünyaya nümayiş etdirir! Bəli, həddən artıq riskli, ancaq eyni zamanda, olduqca cəsarətli, ləyaqətli və təqdirəşayan addımdır - ideyasına sadiq insanların nəyə qadir olduqlarını Allah 14 əsr sonra da hər kəsə göstərir! Bax, indi bu göstərilənləri - o İlahi direnişi birdəfəlik qırmaq, sünnili-şiəli bütün müsəlman ümmətinə gözdağı vermək, daha bir də bu coğrafiyada bir kimsənin onlara yenidən baş qaldırmağa cürət etməməsi xofunu yaratmaq üçün ABŞ-İsrail cütlüyü hər hiylə̇yə və zorakılığa əl atır, o boyda qoşunu okeanın o tayından bu tayına daşıyıb gətirir!... 14 əsr əvvəl Peyğəmbərimizin (s) sevimli nəvəsi Hüseyni və azsaylı tərəfdarlarını qətlə yetirənlər də əbalı-əmmaməli, özünə müsəlman deyən, ”Quran”ı əzbər bilən şəxslər idi.

**Vasif ƏLİHÜSEYN**

# *İqtisadçı:* "Onların hər cümləsi təkcə şəxsi fikir deyil..."

**”Həm Bibliyada, həm də Mark Tven yaradıcılığında belə bir fikir yazılır ki, hətta axmaqlar belə susanda müdrik kimi görünür.Bəzən buna görə susmaq daha doğru seçimdir.Amma məsələ bununla bitmir. İnsan danışanda onun kimliyi ortaya çıxır, düşüncəsi də, səviyyəsi də, mədəniyyəti də cəmiyyət üçün bəlli olur.Cəmiyyət bu gün çox həssasdır. Hər sözün çəkisi var, hər ifadənin təsiri var”.**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib.

O, bildirib ki, ona görə də danışmaq artıq sadəcə fikir bildirmək deyil, danışmaq ciddi məsuliyyətdir:

”Məhz buna görə də mən mediada çıxış edərkən daha çox müstəqil iqtisadçı mövqeyindən danışsam da, verdiyim çoxsaylı müsahibələrdə, çıxışlarda və verilişlərdə hər ifadəni məsuliyyətlə seçməyə çalışıram. Çünki hər sözün ictimai təsiri var və bu təsiri nəzərə almadan danışmaq doğru deyil. Amma məsul vəzifə daşıyanlar üçün bu məsuliyyət daha yüksək olmalıdır. Onların hər cümləsi təkcə şəxsi fikir deyil, həm də ictimai siqnal kimi qəbul olunur. Ona görə də danışmadan əvvəl düşünmək lazımdır.

Hansı sözün kimə necə təsir edəcəyini, hansı reaksiyanı doğuracağını hesablamaq artıq seçim məsələsi deyil, bu bir zərurətdir.

Çünki, kimin üçünsə adi görünən bir fikir minlərlə çılğın insanların qəzəbinə və təhqirinə tuş gələr, yüz minlərlə günahsız sakit insanların isə onsuz da həyatından məmnun olmayan kövrək ürəklərini qıra bilər. Buna görə də mikrofon qarşısına çıxan hər kəs ya dediyi sözün məsuliyyətini dərindən dərk etməli, ya da ümumiyyətlə danışmamağın daha doğru seçim olduğunu qəbul etməlidir”.

**Sübhan**

# Əhməd İsmayılov: "Azərbaycan-Türkiyə Birgə Media Platforması inkişaf etdiriləcək"

**Azərbaycan-Türkiyə Birgə Media Platforması iki ölkə mediasının əlaqəli və səmərəli fəaliyyət göstərməsini nəzərdə tutan platforma çərçivəsində müvafiq işlər görür.**



Medianın İnkişafı Agentliyindən Adalet.az-a verilən məlumata görə, bunu qurumun icraçı direktoru Əhməd İsmayılov İstanbulda keçirilən Strateji Kommunikasiya Sammitindəki çıxışı zamanı deyib. Beynəlxalq əməkdaşlığa toxunan Əhməd İsmayılov qeyd edib ki, Medianın İnkişafı Agentliyi və bir sıra xarici ölkələrin aidiyyəti qurumları arasında əməkdaşlığa dair ikitərəfli sənədlər mövcuddur:

"Bu sənədlər çərçivəsində milli maraqların birgə təşviqi və qorunmasına yönəlmiş ikitərəfli əməkdaşlıq mexanizmlərinin formalaşdırılması, media sahəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, birgə layihələrin həyata keçirilməsi və təcrübə mübadiləsinin genişləndirilməsi nəzərdə tutulur. Bu əməkdaşlıqlar çərçivəsində Azərbaycan-Türkiyə Birgə Media Platformasını xüsusi vurğulamaq istərdik. İki ölkənin mediasının əlaqəli şəkildə, səmərəli fəaliyyət göstərməsini nəzərdə tutan Platforma çərçivəsində müvafiq işlər görülmüş, bu prosesin qarşıdakı dövrdə daha geniş şəkildə inkişaf etdirilməsi planlaşdırılır".

Ə.İsmayılov hər il keçirilən Şuşa Qlobal Media Forumuna toxunaraq qeyd edib ki, bu forum Prezident İlham Əliyevin iştirakı ilə keçirilir və qlobal media trendlərinin təhlili, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, innovativ imkanların araşdırılması və qlobal təhlükəsizlik üçün xüsusi əhəmiyyət daşıyan bir çox məsələlər ətrafında müzakirələrin aparılması, konstruktiv dialoqların və təcrübə mübadiləsinin təşviqi məqsədilə dünyanın müxtəlif ölkələrindən olan rəsmilər, media və vətəndaş cəmiyyəti, dövlət və biznes nümayəndələri, beynəlxalq təşkilatların medianın inkişafı üzrə təmsilçiləri, o cümlədən dünyaca məşhur media simaları üçün mühüm platforma rolunu oynayır: "Onu da qeyd etmək istərdik ki, türk dünyasında çoxtərəfli əməkdaşlıq çərçivəsində prioritet istiqamətlərdən biri kimi informasiya təhlükəsizliyi məsələsi xüsusi əhəmiyyət kəsb edir, bu sahədə əlaqələndirilmiş fəaliyyətin gücləndirilməsi isə ümumi informasiya məkanının dayanıqlılığının və etibarlılığının təmin olunmasına mühüm töhfə verir".

# "Şərqdə müharibələrin bitməsi regional layihələrin icrası anlamına gəlməyəcək..."

**"ABŞ-İsrail cütlüyünün İrana qarşı müharibəsi Rusiyanın işinə yarayıb. Birincisi, beynəlxalq aləmin diqqəti Rusiya-Ukrayna müharibəsindən Yaxın Şərqdəki gərgin vəziyyətə yönəlib. İkincisi, ABŞ Rusiyanın enerji daşıyıcılarına tətbiq etdiyi sanksiyaları müvəqqəti olaraq yumşaldıb. Yaxın Şərqdə müharibə uzanacaqsa "müvəqqəti yumşalmanın" müddəti də uzadılacaq. Üçüncüsü, Rusiya artan neft qiymətlərindən gəlirlərini artırıb. Çin və Rusiya fürsətdən yararlanaraq Rusiyadann neft alışını artırıblar".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Onun sözlərinə görə, bu arada, Rusiya və Hindistan əməkdaşlığı genişləndirməyə qərar veriblər: "Martin 23-də "Rusiya və Hindistan: İkitərəfli münasibətlər üçün yeni gündəliyə doğru" adlı konfransda iki ölkənin akademik, ekspert və diplomatik dairələrinin nümayəndələri iştirak ediblər. Konfrans iştirakçıları ikitərəfli münasibətlərin mövcud vəziyyətini müzakirə ediblər. Çıxışlarda iki ölkə arasında siyasi tədbirlərin davam etdirilməsinin zəruriliyi vurğulanıb. Yeni Dehlinin Moskva ilə strateji tərəfdaşlığını gücləndirməsi Hindistanın xarici siyasət prioritetləri arasında qalır. Rusiya Prezidenti Vladimir Putinin 2025-ci ilin dekabr ayında Yeni Dehliyə səfəri zamanı strateji tərəfdaşlığı gücləndirən sazişlər imzalanıb. Öz növbəsində Kreml Hindistanın baş naziri Narendra Modinin bu il ərzində Moskvaya səfər edəcəyini gözləyir. 2025-ci ildə ikitərəfli ticarətin həcmi təxminən 60 milyard dollar olub. Liderlər 2030-cu ilə qədər bu rəqəmin 100 milyard dollara çatdırılması məqsədini təsdiqləyiblər. Maraqlıdır ki, hər iki tərəf ticarətdə dollardan imtina etməyə çalışırlar. İki ölkə arasında ticarətin 96 faizi milli valyutalarda aparılır. "Bloomberg" agentliyinin məlumatına görə, Hindistanın neft emalı zavodları Rusiya nefti üçün dollarla yox, başqa valyutalarla ödəniş etməyə başlayıb. Şirkətlər rupini "rus alıcılarına" məxsus xarici hesablara göndərirlər. Rupi daha sonra Çin yuanına, BƏƏ dirhəmlərinə və Honkonq və ya Sinqapur dollarlarına çevrilir. Moskva ilə Yeni Dehli BRİCS təşkilatının gücləndirilməsi qənaətindədirlər. Narendra Modi hesab edir ki, BRİCS Yaxın Şərqdə müharibələrinin dayandırılması üçün diplomatik fəallığını artırmalıdır. Çünki, Yaxın Şərqdə gərginlik və müharibələr BRİCS üçün ciddi problemlərə səbəb olub. Bölgədəki müharibələr nəqliyyat yollarından istifadəyə və gəmiçiliyə ciddi əngəllər yaradıb. Yaxın Şərqdə müharibələrin bitməsi regional layihələrin icrası anlamına gəlməyəcək. Çünki, bölgədə ölkələrarası münasibətlər normallaşmadığı mühitdə yeni müharibələrin baş verməsi ehtimalı yüksəkdir. Belə vəziyyətdə bölgə ölkələrindən keçməsi planlaşdırılan nəqliyyat yollarının tikintisi real deyil.Yeni Dehlinin Moskva ilə strateji tərəfdaşlığı gücləndirməsinə baxmayaraq, Hindistan hökuməti xarici siyasətdə strateji muxtariyyət kursundan da imtina etmir. Bu o deməkdir ki, Yeni Dehli ABŞ və Avropa İttifaqı ilə müxtəlif sahələrdə əlaqələrin inkişafında maraqlıdır. ABŞ və Avropa İttifaqı ölkələri Hindistanın əsas ticarət tərəfdaşlarıdır. Ona görə də Hindistanın Rusiya ilə yaxınlığı Qərbə qarşı yönəlməyib. Ancaq Yeni Dehli üçün iki qütb arasında balansı qorumaq asan deyil. Misal üçün İrana qarşı müharibə bitdikdən sonra Vaşinqton Yeni Dehlidən Rusiya neftini alışını dayandırmasını yenidən tələb edə bilər".



**Sübhan**

# "Kreml təxribatçıları cəzalandırmır..."

**"Rusiya rəsmilərinin, diplomatlarının, jurnalistlərinin və siyasi ekspertlərinin danışıq tərzi xeyli tərbiyəsizləşib. Kreml Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova vasitəsilə müxtəlif ölkələrin liderlərini təhqir edir, aşağılayıcı fikirlər söyləyir".**

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib. O, bildirib ki, Rusiya Prezidenti Vladimir Putin Vladimir Solovyov, Marqarita Simonyan, Mariya Zaxarova, Aleksandr Duqin və bunlara bənzər digərlərini irəli çəkərək, onlar vasitəsilə müxtəlif dövlətləri şantaj etməyə çalışır:

"Bu şəxslərin dilləriylə onlarla dövlət hədələnib. Bu isə münasibətlərin gərginləşməsinə səbəb olub. Kremldən təlimat alan bu şəxslər bır sıra hallarda özlərini "ideya daşıyıcısı" kimi qələmə verərək fərqli təxribatçı təkliflərlə çıxış edirlər. Kreml təxribatçıları cəzalandırmır, əksinə "bu onların şəxsi fikirləridir" deyib yaxasını kənara çəkmək istəyir. Halbuki, adları çəkilən şəxslər dövlət idarəetməsində təmsil olunurlar, dövlət kanallarındakı proqramların aparıcılarındırlar".

**Vasif**

Məzahir ƏHMƏDOĞLU

# MİRAJ



***Zaman keçdi, dünyamız dəyişdi, ancaq düz 12 ildir ki bu, yazıda qələmə aldığım mənəvi-əxlaqi prinsiplərin acıları heç də yaxşı məna verməyən aktuallıqındadır hələ də...***

***Müəllifdən.***

**Hər ikisi eyni mənanı daşısa da, ilğım bir az işıqlı və daha ümidli səslənir. Aldanış miraj sözündə - səslənməsində sanki daha qorxuludur. Həm də bu aldanış, yuxudankənar vaqeə təkcə səhrada susuzluqdan ağlını itirməkdə olanın gözləri önündə "canlanan" yaşıl vadinin şırıltılı çayları, şirin bulaqları deyil. Bunlar bir qədər keçmişlərə aiddir. İndi heç Saxaranın özündə belə susuzluqdan dəli olmaq ehtimalı yoxdur. Əvəzində başqa məsələlərdən, aldanışlardan dəli olarsan...**

**...Özünə dost bildiyinin ciddi, həyatı əhəmiyyətli bir məqamda laqeydliyi, "yoxa çıxması", səndən uzaqlarda olması, əxlaqına və şəxsiyyətinə şübhə etmədiyin o gözəl insanın, sirdaşın bu mənada metamorfozu, anidən çöküşü, qapıbir qonşunun, yüz dəfə hörmət etdiyin insanın hətta sənin təmkinli uğursuzluğuna, dərdinə belə paxıllıq etməsi, yerindəcə unudulan təmtəraqlı sağlıqlar, sənin əbədi etibarının, candan sevginin və rəğbətinin xoş bir çağında süni şəkildə, bəlkə də gerçəkdən sıradan biri rəftarıyla qarşılaşmağın və eyni zamanda ötənlərin həmin o doğma göz yaşları... səni elə susadar ki! Dil-dodağın nədir, ürəyin də cadar-cadar olar...**

**İnsan, şəxsiyyət bütövlüyü real göründüyü qədər də şərtidir. Bəzən bütün bunlar surroqat kimi də görünə və dərk edilə bilər. İnsan xarakterinin idarə etdiyi psixoloji məqamlar hər kəsin ağlıkəsən səviyyədə arzusudur. Biri məşhur sənətçi, biri nazir, biri prezident, biri varlı sahibkar, biri... general olmaq istəyir. İnsanın digər analoji arzuları da olur. Ancaq hər bir insan özünəməxsus həyat tərzini - sevincli, kədərli, uğurlu və uğursuz günlərini yaşayır. Bütün bunların axınında nələr baş versə də, mükəmməllik birinci şərt olaraq qalır. Hər bir insan rastlaşdığı hadisələrə də öz həyat tərzi və dünyagörüşünə uyğun münasibət bildirir. Hər kəs bu dünyanın sevincini dadmaqla, qayğısız yaşamaqla yanaşı, ağrı-acısına, doğmasının itkisinə, dostunun yoxluğuna - böyük kədərlərə də məhkumdur. Həyatın yazılmış və yazılmamış qanunları insanı daim izləməkdədir. Çünki bütün sirlər yalnız Tanrıya məxsusdur. Biz isə bu sirlərin tərs-avandlığında sevinirik də, kədərlənirik də.**

**Aldanış... Eyni zamanda gümanın bütünlüklə itməsi...**

**Bu əhvalatı bir tanışım sıxıla-sıxıla, utana-utana danışıb mənə. Onun vəzifəli bir məmur dostu olub. İllər ötdükcə bu dostluq daha da möhkəmlənib. O vaxtlar elə xarakterlərinə görə onların yaşam tərzində də sən deyən böyük fərq yox imiş. Təbii ki, vəzifəli məmur maddi baxımdan bir qədər imkanlı olarmış. Təxminən 6-7 il bundan əvvəl vəzifəli məmur həmin dostu ilə belə bir məhrəmanə söhbət edir. Sual verir ki, sən əminsənmi bizim dostluğumuz əbədidir? Sual gözlənilən müsbət cavabla təsdiqlənir. Və and içirlər ki, harda olurlarsa olsunlar, bu dostluğa əbədi olaraq sadiq qalacaq, bir-birlərini bütün məqamlarda qoruyacaqlar. Beləcə davam edir. Dostluq görüşləri, xeyir-şər sevinci və həmdərdliyi, heç kəsə deyə bilmədikləri söz-sirr onları bir-birinə daha sıx bağlayır.**

**İllər ötüb keçir. Məmur dostun vəzifəsi bir az da yüksəlir. Həyat da davam edir. Ancaq tanışımın həyatındakı bəzi sıxıntılar üzündən onların əlaqələri müəyyən qədər zəifləyir. Tərs kimi ailədə bəzi problemlər yaranır. Paralel olaraq bahalı müalicə və dərmanlara da ehtiyac artır. Heç kəsə ağız açmır, öz problemlərini özü həll etməyə çalışır. Belə məqamların birində onlar rastlaşıb çay içirlər. Yüksək vəzifəli dost söhbətarası bildirir ki, yeni bir obyekt başladıb, 200 minə yaxın xərcləyib, hələ nə ucu var, nə bucağı. Gözlənilməz səbəblər üzündən ciddi ehtiyac içində olan dostu ona Allahdan köməklik arzulayır. Əslində isə bu görüşdən və söhbətdən nəyəsə ümidli imiş.**

**Böyük məmur əbədi dostluğa bütün şərtlərlə birlikdə and içib, and içdirdiyi dostunun sınıxmış üzgözündəki kədəri də hiss etməyib.**

**Dostununmu???**

***P.S.** Əziz dost, bütün bunlar heç də o demək deyil ki, kimlərsə göydən yerə elə büsbütün mələk kimi enir, kimlərsə büsbütün fürsətcil oyunçu. Yaxşılar da səhv edir, pislərin də işıqlı tərəfi olur. Hər kəs öz kimliyini yaxşı bilir, ağlı-başı yerindədirsə hara qədər haqlı və ya haqsız olduğunu da dərk edir. Faciə onda baş verir ki, səni çəkib aparan o yol - o gözəllik, o saf sirdaşlıq, o cəsarət, o fədakarlıq bir ilğım kimi görünür, görünür, ancaq əlin yetmir... Və sən də dinib danışmadan gerçəyi anlatmadan öyrəşdiyin həyatı yaşayırsan. Sən zirvələrdə qərarlaşan əsil dostluq arzulayırsan. Nə olsun? Hələ indən belə də çox ağrıyacaqsan. Çünki sənin cəzan elə belə də olmalıydı.*

**Kimin kefi kökdürsə, haqlı odurmu? Nə deyim vallah, bəlkə də... Ancaq... Yəqin ki, bir məqama qədər!**

***P.P.S.** Vaqif Bayatlı Odərdən ilğım kimi misralar:*

***Əlim əllərindən çəkilməmiş,***
***qonur gözlərimə,***
***qara torpaqlar tökülməmiş***
***unutdular məni, unutdular...***

**Ramiz Rövşəndən:**

*Ölüncə neçə-neçə qapıdan keçir adam,*
*Dünya - üz tutduğumuz qapılarla doludu.*
*Bəlkə də üzümüzə çırpılan qapılardan,*
*Üzümüzə açılan qapılar qorxuludu...*

**...Və Mahir N.Qarayevdən:**

*...Və qaldı dünyada bircə pəncərə -*
*Onu da duymamaq, sevməmək olmur;*
*Ölü duasıtək uzanır gecə -*
*Dərdi qaş-gözlə də söyləmək olmur.*

**Bu da Əbülfət Mədətoğlundan:**

***Mən küləyin yanı üstə yıxdığı***
***palıd ağacı.***
***Süzürəm üstümə yüyürən***
***əli baltalıları...***



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# Belə yağışlar yağanda...

**Deyirlər ki, yağış ruzi, bərəkət deməkdir. Və yağış yağırsa, bütün ağaclara, güllərə, çiçəklərə, yaşıllıqlara yeni bir nəfəs, yeni bir həyat verir. Ən azından yağış yağmayanda suvarılmayan ağaclar isti yay günlərində bir neçə ayın içində quruya bilər... Ona görə də yağış təbiətə hava və su kimi lazımdı...**

**Bir dəfə quraqlıq olur. Ərəbistan çöllərində bütün zəmilər və yaşıllıqlar susuzluqdan yanır. İnsanlar Allaha nə qədər dua eləsə də, yağış yağmır ki, yağmır. Ona görə də, yığışıb gedirlər Məhəmməd Peyğəmbərin yanına. Deyirlər ki, ya peyğəmbər, nə əkmişik hamısı məhv olub, bitmir, Allaha da dua eləyirik, bunun da bir nəticəsi yoxdu, bəlkə Siz dua edəsiniz! Peyğəmbər də Allaha dua edir və Tanrı onun duasını qəbul eləyir.**

**Bir yağış yağır ki, gəl, görəsən! Və həmin il bolluq olur, insanlar aclıqdan çıxır... Elə bil ki, mətləbdən bir qədər uzaq düşdüm! Martın 27-28-i Bakıya, eləcə də bölgələrə intensiv yağışlar yağdı. Çaylar, göllər, su anbarları daşdı... Çox yerlərdə subasmalar oldu... Hətta Bakının Maştağa, Zabrat, Binə qəsəbələrində həyətlər, evlər, maşınlar suyun altında qaldı... Hələ biz bölgələrdə olan hadisələri demirik...**

**Bütün bunlar təbiət hadisələridir. Yəni insanların iradəsindən asılı deyil. Amma bu o demək deyil ki, bir çox xidmət sahələri öz vəzifə borclarını məsuliyyətlə yerinə yetirməməlidir! Belə ki, əgər əksər yerlərdə İcra Hakimiyyətləri, bələdiyyələr və digər qurumlar öz vəzifə borclarını vaxtında icra etsəydilər, yağış suyundan ziyan çəkənlərin əhatə dairəsi belə geniş olmazdı. Üstəlik də Bakıda kanalizasiya sistemləri və drenajlar leysan yağışlar vaxtı suyu yaxşı çəkmir və nəticədə paytaxtın mərkəzi küçələrində belə ticarət mərkəzlərini, marketləri su basır.**

**Və həmişə də Bakı Şəhər İcra Hakimiyyəti bu məsuliyyətdən yaxasını kənara çəkir... Yağış suları Bakıda küçələri, evləri, həyətləri basarkən insanların köməyinə çatan, yenə həmişə olduğu kimi, Fövqəladə Hallar Nazirliyi və Daxili İşlər Nazirliyidir. Həmin çətin anlarda hər iki nazirliyin əməkdaşları çətin vəziyyətdə olan insanları təxliyə ediblər. Hətta məlum nazirliklərin əməkdaşları, eləcə də polis xəstə insanları bellərinə, qucaqlarına alıb suyun içindən çıxarırlar.**

**Bu hadisələr göstərdi ki, Bakıda icra hakimiyyətləri hələ də yağışlı hava şəraitinə tam hazır deyillər. Sabah Allah eləməmiş, bundan da ağır təbiət hadisələri baş verə bilər! Bəs onda icra hakimiyyətləri nə edəcək??? Bax bu barədə ciddi düşünmək lazımdır. Ki, su basmış yerdə camaat köməksiz vəziyyətdə qalıb, imdad diləməsin. Hələ yağışlı aylar qabaqdadır.**

**Ola bilər apreldə (Nisan-yəni yağışlı ayda) bundan da çox yağış yağsın! İndi durub Allaha yalvaraq ki, yağış yağmasın. Yağış yağsın və təbiətə can versin!!! Və biz bəndələr Allahın işinə qarışa bilmərik!!!**

## Göydə Allah, yerdə həkimlər...

**Mən uzun müddətdir ki, onkoloji xəstəlikdən əziyyət çəkirəm və müalicə olunuram. Artıq bir ildir ki, Milli Onkologiya Mərkəzində davamlı olaraq müalicələr qəbul edirəm.İnsaf naminə deyim ki, mərkəzin həkimləri həmişə mənə və digər pasiyentlərə bacardıqları köməyi göstəriblər. Amma son vaxtlar ağrılarım daha da şiddətləndi və bu ağrılara dözə bilmədim. Ona görə də müalicə həkimimlə əlaqə yaratdıq o bildirdi ki, təcili mərkəzimizə gəlməlisən.**

Məni kəskin ağrılarala Milli Onkologiya Mərkəzinin Onko - Koloproktologiya şöbəsində yerləşdirdilər. Burada hər tərəfli müayinə olundum. Həkim-cərrah, gözəl insan Gülnarə Talıbova dedi ki, sabah əməliyyat olunacaqsan. Amma əməliyyat çox risklidir.. Buna baxmayaraq, həkimlə razılaşdım.Ona görə ki, Gülnarə xanıma inandım.

Daha doğrusu , o, mənə çox böyük inam verdi və öz doğması kimi münasibət bəslədi! Xöşbəxtlikdən əməliyyat uğurlu alındı.Bir gündən sonra məni reanimasiyadan palataya köçürdülər. İndi demək olar ki, ağrılarım azalıb və özümü yaxşı hiss edirəm. Bizim kimi xəstələr ölümlə əlbəyaxa olur.

Ancaq Allahın və cərrah Gülnarə xanımın köməkliyi ilə həyata qayıtdım. Yəni məni göydə Allah, yerdə həkimlər xilas etdilər. Buna görə Milli Onkologiya Mərkəzinin rəhbərliyinə, şöbə müdiri Yusif Əliyarova, cərrah Gülnarə Talıbovaya, xəstəxananın bütün həkim personalına, tibb bacılarına və xidmətçilərinə təşəkkür edirəm. Çünki onlar məni yenidən həyata qaytardılar və yaşamaq ümidimi daha da gücləndirdilər.Və hər gün mənə baş çəkən, ürək- dirək verən Gülnarə həkim sanki mənə ikinci bir nəfəs verdi!

**Allah belə həkimlərimizi qorusun!!!**

**Muxtar HƏSƏNOV,**
**Xırdalan şəhəri, birinci qrup əlil**

## Mənzillərin qiyməti niyə bahalaşır?



**Mənzil bazarında bahalaşma davam edir. Xüsusilə də, Bakıda bu artım daha dərindən hiss olunur. Təbii ki, qiymət artımının obyektiv və subyektiv səbəbləri var. Çünki ən azından son illər, son aylar tikinti materiallarının qiyməti də bahalaşıb. Bu, qiymət artımına baxmayaraq, sakinlər yeni mənzillər almaqda israrlıdır.**

Əmlak üzrə ekspert İlham Kərimli bildirir ki, bir çox adamlar əldə etdikləri vəsaiti mənzil almağa yönəldirlər. Onlar düşünürlər ki, əldə pul, qızıl saxlamaqdan isə mənzilə yatırım etsələr daha sərfəli və etibarlıdır.Məsələyə belə kontekstindən yanaşanlar haqlıdırlar. Ən azından ona görə ki. Bakıda mənzillərin qiyməti ucuzlaşmaq əvəzinə, hər ay yüksəlir.İkinci bir məsələ isə süni qiymət artımı ilə bağlıdır.

Bax , bu, süni qiymət artımı yaradan amilləri aradan qaldırmaq lazımdır. Buna da şərait yaradan mənzil bazarına hegemonluq edən qüvvələrdir.O qüvvələr isə hər şeyə nəzarət edir, özlərinə sərf edəndə qiyməti aşağı salır, sərf etməyəndə qaldırırlar. Belə addımlar isə əhali arasında narazılıqlar yaradır, başqa sözlə demiş olsaq, mənzil bazarında xaosun baş alıb getməsinə rəvac verir. Görünən odur ki, mənzil bazarına diqtə edənlər bahalaşmadan milyonlar qazanır, ev alanlar isə böyük maddi ziyana düşürlər!!!

## Günəşlidə niyə metro yoxdur?!



**Yeni Günəşli Bakının böyük yaşayış sahələrindəndir.Yəni bu qəsəbədə 200 mindən çox insan yaşayır! Çox təəssüf ki, bu yaşayış sahəsinə uzun müddət soyuq münasibət göstərilib və bu gün də həmin münasibət davam edir! Məsələn, burada normal bir park yoxdur.**

Hər yerdə " Asan xidmət" olduğu yerdə burada adını çəkdiyimiz xidmət sahəsi yoxdur! Ən təəccüblüsü isə odur ki, bu böyük qəsəbəyə metro çəkilməyib. Hələ ötən əsrin 90- çı illərində deyilirdi ki, Yeni Günəşliyə.metro çəkiləcək.Bu məqsədlə metro stansiyasının tikintisi üçün Kərpic zavodunun yaxınlığında yer də ayırmışdılar. İllər keçdi, hər şey yaddan çıxdı. Çox yerə metro çəkilsə də , Yeni Günəşliyə.metro çəkilmədi. İndi də deyirlər ki, bəs , 2030-cu ildə Yeni Günəşliyə metro çəkiləcək. Neynək, bunu da gözələyərik! Biz metronun açılışını görməsək də, heç olmasa, balalarımız, nəvələrimiz görsün!!!

## Onkoloji xəstələr də sığortaya daxil edilməlidir...



**Bir çox xəstəliklər var ki, bu gün dünyada çox geniş yayılıb. Onkoloji, ürək- damar, diabet, böyrək , qaraciyər catışmazlıqları bu xəstəliklərdən sayılır.**

Ölkəmizdə də adını çəkdiyimiz xəstəliklər geniş yayılıb və bu gün də yayılmaqdadır. Ona görə də həmin xəstəliklərin müayinəsi və müalicəsi üçün Dövlət Proqramı da hazırlanıb! Çox sevindirici haldır ki, dövlət bu məsələləri daima diqqət mərkəzində saxlayır. Ən azından ona görə ki, adını çəkdiyimiz xəstəliklərin çoxunun müalicəsi və müayinəsi icbari tibbi sığortaya daxil edilib . İnsanlar da davamlı olaraq bu imtiyazlardan istifadə edir.

Bunun da bir neçə müsbət tərəfləri var. Ona görə ki, müayinələr zamanı gizli gedən bəzi xəstəliklər aşkarlanır və belə xəstəlikləri də vaxtında aşkar etdiklərinə görə, tez də müalicə etmək mümkündür. Onkoloji xəstələrin sayı isə ildən- ilə daha da artır.Bu xəstəliyin müalicəsi və müayinəsi isə küllü miqdarda vəsait tələb edir.

Amma gəlin ,onunla razılaşaq ki, bu vəsait də hər adam yoxdur.Təkcə müayinədən keçmək üçün 1500-2000 manat pul lazımdır. Bu isə hər adamın imkanı daxilində deyildir. Ona görə də , bir çox mütəxəssislər və ekspertlər bildirirlər ki, onkoloji xəstələrində müayinəsi və müalicəsi icbari tibbi sığorta paketinə daxil edilməlidir. Əgər belə olarsa , bütün xəstələr bu hüquqdan istifadə edə bilər.Bir sözlə, həmin təkliflərin həyata keçirilməsi əhalinin böyük sevincinə səbəb ola bilər! Allah bütün xəstələrə şəfa versin!!!

## Bayram günləri...



**Novruz bayramında on bir gün iş olmayacaq.Əlbəttə, bu bir çox insanları çox sevindirir. Çünki bu on bir gündə kim ürəyi necə istəyirsə, eləcə də istirahat edəcək, dincələcək. Artıq bayram günlərinin çoxu geridə qalıb. Əksər insanlar Bakıdan rayonlara, istirahat mərkəzlərinə üz tutub.Axı, kənd yerlərində yaz daha tez gəlir, ağaclar çiçəkləyir, hər hər tərəfdə yaşıllıqlar, otlar baş qaldırır.**

Kol dibindən isə bənövşə boylanır və insanları salamlayır. Bunların ətrini duymaq və görmək adama xoş ovqat bəxş edir. Ona görə də Novruzun dadın çıxarmaq istəyənlər gərək bu gözəl anları heç vaxt unutmasınlar!Amma rayondan qayıdanda fərdi avtomobil sahibləri çox diqqətli olmalıdır. Ki, yol hərəkəti qaydalarına əməl etməli, sürət həddini aşmamalı, ara məsafəsi saxlamalı, dumanlı havada qəza işıqlarını yandırmalıdır.

Bir sözlə, bütün hərəkət iştirakçıları yol hərəkəti qaydalarına əməl etməlidirlər. Bax ötən bayramlarda respublika ərazisində ağır yol-nəqliyyat hadisələri baş verib, ölən və ağır xəsarət alanlar olub! Ancaq elə hərəkət etmək lazımdır ki, bu bayram günlərində belə ağır qəzalar və faciələr baş verməsin!!!

## Belə leysan yağışların xeyiri varmı?



**Dədə - babadan həmişə yağış yağanda insanlar sevniblər. Sevinblər ki, yağış ruzi, bərəkət deməkdir. Yağış insanların arzuladığı vaxtda yağanda deməyi torpaqlara can verir, bol taxıl olur və digər kənd təsərrüfatı məhsulları da daha çox yetişir.**

Heç kimə sirr deyil ki, normadan artıq yağan yağışların, daha doğrusu, leysan yağışların kənd təsərrüfatına ziyanı var. Məsələn, indi ağacların çiçək açan vaxtdır və orada tam mayalanma getməyib. Yağan fasiləsiz leysan yağışlar bu mayalanmaya tam imkan vermir və nəticədə isə meyvə ağaclarına böyük ziyan dəyər. Heç şübhəsiz ki, bu da həmin ağacların məhsuldarlığına mənfi təsir edəcək. Amma o ki, qaldı otlaq sahələrinə, örüşlərə bu yağan yağışlar onlara can verir. Yeni ot bol olanda heyvandarlıq məhsulları da bol olur. Ətin, südün, şorun, yağın qiyməti ucuzlaşır. Bir sözlə, fasiləsiz leysan yağışların xeyirindən çox ziyanı var!

## Dövlət nömrə nişanı ala bilmirlər



**"Yol hərəkəti haqqında" qanuna əlavədən sonra moped sürücülər də bir mənalı olaraq sürücülük hüququnu təsdiq edən sənədə yiyələnmidir.**

Yeni onun sürücülük vəsiqəsi olmalıdır. Artıq bir müddətdir ki, onlar sürücülük vəsiqəsi alandan sonra mopedləri idarə edirlər. Bunlar hamısı aydındır .Amma aydın olmayan odur ki, indi də başqa bir problem ortaya çıxıb. Belə ki, bəzi moped sürücüləri idarə etdikləri nəqliyyat vasitəsinə dövlət nömrə nişanı ala bilmir.

Bunu da onunla izah edirlər ki, həmin nəqliyyat vasitələri respublikamıza gətirilərkən bir çox prosedur qaydalarına əməl edilməyib.

Başqa sözlə demiş olsaq, mopedlər qeydiyyata alınmayıb və dövlət rüsumu ödənilməyib. Məhz bu problemlərə görə də, onları idarə etmək istəyən sürücülər çətinliklə üzləşir və dövlət nömrə nişanı ala bilmirlər.

Nömrəsiz də mopedlər idarə olunanda yol polisi həmin sürücüləri saxlayır və cərimə edirlər. Ona görə də bu problemlər aidiyyəti qurum tərəfindən həll edilməli, mövcud çətinlik tez bir zamanda aradan qaldırılmalıdır!!!

**Emil FAİQOĞLU**



# YAŞANAN HƏR GÜNÜMÜZ SANKİ BİR NOSTALJİDİR

## (Zaqatala şəhərindən özəl reportaj)

**Obyektiv səbəblər üzərindən xeyli vaxtdır ilk məhəbbət qədər unuda bilmədiyim bu gözəl şəhərə yolum düşmürdü.Bu günlərdə , baharın ılıq və xoş qoxulu bir səhərində nəhayət ki gəldim. Əslində dünəndən gəlmişdim bu doğma yerlərə . Əvvəlcə Qaxa gedib İlisu qəbirstanlığında xalamın və dünyadan vaxtsız köçmüş üç xalaoğlumun məzarlarını ziyarət etmişdim.Qohumum və dostum Vüqarı tapa bilmədiyimdən axşam Zaqatalaya- şəhərin girəcəyindəki Vüsalın otelinə yollanmışdım.Bu otelin özü də onillərin isti və doğma məkanıdır.Onun əsas sahibi Nəzir müəllim Bakıda yaşayan zaqatalalıdır, soy-kökü Qərbi Azərbaycandan olsa da . İcraçı direktordan həmkarım, Xalq qəzetinin bölgə müxbiri İlqar Həsənlini soruşuram. Deyir səhər tezdən Lənkərana yas yerinə gedib, gecə də olsa qayıdacağını bildirib.Axşam yeməyindən sonra zəng edirəm İlqar Musayeviçə. (Biz hələ sovet dövründən dostumuza İlqar Həsənov yox, İlqar Musayeviç deyə müraciət edirdik. Bu mehriban və dostcanlı dostumuz 23-24 yaşlarından keçmiş Azərittifaq sistemində rəhbər vəzifələrdə çalışmışdı. Həmin müraciət forması da o illərin zarafatlarından biridir) İlqar müəllim Zaqatalada olduğumu bilincə çox sevinir və mənə and edir ki, sabah günortaya qədər onu gözləyim , Lənkərandan qayıdarkən Ağsuda gecələməli olub.**




Səhər tezdən , saat səkkizə 20 dəqiqə qalmış mən artıq yuyulub təmizlənmiş maşınla Bayraq meydanına tərəf gedirəm. Sürücü, Zaqatalanı məndən də yaxşı tanıyan Səbuhi səhər dərmanlarımdan Meprili unutduğumu bildirir. Əhəmiyyət vermirəm. Küçəboyu sağ tərəfdən modern tikintiləri , Tala çayı körpüsünün akasiyalıq adlanan mənzərəsini, sol tərəfdə çay boyunca uzanan düzənlik və seyrək meşəlikləri,eyni zamanda şəhəri sanki qollarını açıb da hər tərəfdən qucaqlayan Böyük Qafqazın cənub ətəklərini ilk dəfə görürmüş kimi doya bilmədən seyr etməkdəyəm. Hansı ki, mən qızılgül ətirli bu gözəl şəhərə ilk dəfə çox-çox illər bundan qabaq gəlmişəm, anamın qucağında.Bu şəhərdə də uzaq bir qohumumuz olub. Yüngül yağışlı bir yay havasında gözlərimi açarkən ilk gördüyüm qaranlıqda sayrışan işıqlar və bir də elə o vaxtlardan unuda bilmədiyim həmin gül qoxusu ... Doğulub boyabaşa çatdığım o məşhur çinarlar şəhəri qədər doğma və əziz Zaqatala! Uzun onilliklərdir mən bu şəhərlə görüşəndə sanki qucaqlaşıb onu hərarətlə və heyrətlə öyürəm də, dərdləşib sevincimi-kədərimi bölüşürəm də!

Gözəl şəhər! Sən hiss olunmadan gündən-günə daha da böyüyür, daha da gözəlləşir, qarşı dağlara sarı ucalırsan sanki.

Səhər yenicə açılıb, hər tərəf tərtəmiz gül kimidir. Küçələr, səkilər işıq saçır elə bil. Bahar çiçəkləri, nəğməli quşlar bu gözəlliyi daha da doğmalaşdırır; elə bilirsən ki, bütün bunları Allah ona görə yaradıb ki sən hər zaman özünü xoşbəxt hiss edəsən.

Bayraq meydanından bir yol Balakənə doğrudur, hər iki tərəfi dostu sevindirən , qürurlandıran urbanik bir görkəmdədir. Meydandan sağ tərəfə dönən küçə şəhərin içərilərinə aparır. Burada rayon prokurorluğunun və yaxınlıqdakı müasir məscidin qarşısından keçib Sevil Qazıyevanın büstünə yaxınlaşarkən Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadənin xidməti maşını ilə rastlaşırıq. Mübariz müəllim maşındadır, deyəsən bizi görmür. İllərlə formalaşan adətidir, şəxsiyyət və məmur keyfiyyətidir. Hər gün saat 07:30 -dan 09:00-dək mütləq və istisnasız olaraq şəhəri , şəhər ətrafını , şəhərə bitişik kəndlərin vacib ərazilərini, burada görülən və görüləcək işləri gezib yerindəcə nəzərdən keçirməsə rahat ola bilməz. İş yerinə qayıdarkən həmişəki sakit yerişlə otağına qalxıb köməkçisindən də əlavə məlumatlar aldıqdan sonra cari işlərinə başlayır. Onu da deyim ki, Mübariz müəllimin almaq istədiyi ilk məlumat bəlkə də çoxlarının o qədər əhəmiyyət vermədiyi məsələdir. Ötən gün ərzində rayonda neçə nəfər və kimlər vəfat edib, neçə uşaq dünyaya gəlib...



Bundan sonra ayrı-ayrı sahələr üzrə müavinlərə və şöbə müdirlərinə tapşırıqlar , sənədlərlə iş, görüşlər, qəbullar, gözlənilən və gözlənilməyən qonaq gəlişi , rayonun hansısa bir ərazisində olmaq zərurəti və vacibliyi ...

Bəli, hörmətli Mübariz müəllim öz işindədir, onunla əlbəttə ki, görüşəsiyəm.İndi isə şəhəri gəzməkdə davam edirəm.Burada köhnə , qədim tikililər o qədər səliqəli, o qədər zövqlə tikilib qorunur ki, yeni , modern şəhər biçimində daha əzəmətli görünür. Rayon rəhbərliyi küçələrin, hətta ucqar yerlərin də ilkin quruluşuna xələl gətirə biləsi heç nəyə icazə verməz; küçələrin, səkilərin ilkinliyi üzərindən çiçəkliklərdən başqa hər hansı əlavə nəinsə mövcudluğu qeyri-mümkündür. Bu səbəbdən də Zaqatala bir rayon mərkəzindən daha çox , ayrıca böyük bir şəhəri xatırladır. Həm də bu şəhər iki qonşu respublikanın sərhədlərində yerləşir. Üstəlik ilboyu turizm mərkəzlərindən birinə çevrilməkdədir.



Xatırlayıram ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Zaqatala rayonunda, xüsusilə Zaqatala şəhərində aparılan quruculuq-abadlıq işlərindən, bu şəhərin təbii gözəlliklərindən və turizm potensialından hələ illər öncəsi necə uzaqgörənliklə danışmışdı. Rayon rəhbərliyi də camaatla , el-obasını ürəkdən sevən zəhmətkeş sakinlərlə əl-ələ verib ali rəhbərliyin istək və tapşırıqlarını həyata keçirir, ölkənin ən böyük rayonlarından biri olan Zaqatalanın şöhrətini daha da ucaldırlar.

... Şəhərin Qala düzü pilləkənlərinin yuxarı hissəsindəyəm. Buradan Zaqatalanın müəyyən küçə və məhəlləri ovuc içi kimi görünür.Bir-birindən fərqli və yaraşıqlı fərdi evlər, çoxmərtəbəli yaşayış binaları, müasir biçimli yeni inzibati tikililər, otellər, restoran və kafelər, park və bağlar, əlvan çiçəklər, nəbatətə bənzər yaşıllıqlar...Lap əvvəllər Zaqatala qızılgüllər diyarı, qoz-fındığı, keyfiyyətli tütünü, həm də ”Bala Tiflis” , ”Kiçik Paris” kimi özəl ad və xüsusiyyətləri ilə tanıdılırdısa, artıq bunların bir çoxuna ehtiyac qalmayıb deyəsən. Doğrudur, bu bölgədə ən yaxşı qoz, fındıq və şabalıdı, ən yaxşı süd məhsullarını, xüsusilə naringi rəngli dağçiçəyi ilə tutulmuş çox dadlı və həm də bahalı qoyun pendirini , cökə balını, qırqovul kimi alabəzək kənd toyuqlarını, ekoloji cəhətdən ən etibarlı tərəvəz məhsullarını məhz Zaqatala bazarında tapa bilərsən.Təmiz,səliqəli, gur şəhər bazarında . Ancaq bütün bunlarla bərabər son illərin möhtəşəm inkişafı Zaqatalanı eləcə Zaqatala adlı gözəl bir şəhər kimi tanıtmaqdadır, ”Bala Tiflis” , ”Kiçik Paris” ayaması olmadan. Bu, daha füsunkar, daha təmtəraqlıdır.Əlbəttə, yaddaşlarda Zalxay Həsənova, Sevil Qazıyeva kimi məşhur əmək qəhrəmanları, Murad Avcı, Əhməd İsayev kimi ziyalıları , eləcə ”Yenilməz batalyon” filminin Zaqatala şəhəri ilə bağlı tarixi fraqmentləri ...Və başqa unudulmaz hadisə və əhvalatlar da xatırlanır hərdən-hərdən.




...Lap yadımdan çıxmışdı, bir vaxtlar Zaqatalanın ”Daşqın” futbol komandası SSRİ birinciliyinin B qrupunda yarışardı. O vaxtki komandadan Dinayev soyadlı bir oyunçunu da xatırlayıram. Burada məşhur Qurban Qurbanovun da Zaqatalanın Tala kəndindən olduğu təkrarən vurğulanmalıdır.

... Heydər Əliyev muzeyinin memarlıq üslubu göz oxşayır. Yaxınlıqdakı parkda əyləşib kəklikotu çayı içirəm.Ulu Öndərin burada ucaldılmış əzəmətli abidəsi zaqatalalıların böyük ehtiramla ziyarət etdikləri məkandır, ucalıqdır.

Şəhərin mərkəzi sayılan ərazidəki yığcam park və bağların sağında, solunda, qarşı tərəflərində mədəniyyət evi, Yeni Azərbaycan Partiyası yerli təşkilatının binası, şəhər icra nümayəndəliyi, orijinal görkəmli regional vergilər idarəsi, telekommunikasiya və poçt filialı, müasir iaşə qurğuları, bəzi məşhurların və tanınmışların büstləri, avtomobil hərəkəti üçün bağlı olan müəyyən istirahət əraziləri və necə deyərlər ...Adamlar və Ağaclar! Buradaca Naxçıvanın Ordubad rayonundakı o məşhur Əylis kəndini , Əylis bağlarını xatırlasam da, sanki qoynunda könüllü əsirinə çevrildiyim Zaqatalanın cazibəsi məni əfsanəvi Odissey kimi ovsunlayır; bütün varlığımı , xəyal və düşüncələrimi yalnız özünə bağlayır.

...Mübariz müəllimlə görüşüb bir qədər söhbət etdikdən sonra üzrxahlıq edir ki, vacib bir məsələ üçün Muxax kəndinə getməlidir. Sağollaşıb ayrılırıq.

İndi də Balakən yolu boyunca sıralanmış yenilikləri seyr etməkdəyəm.Zaqatala Regional Diaqnostika Mərkəzi əvvəllər burada ən böyük tikili idi. Az vaxt ərzində şəhərin bu hissəsində də yeni , modern binalar ucaldılıb.Hərdən köhnə tanışlarla da rastlaşıram, dayanıb hal-əhval tuturuq.Tanıya bilmədiyim bir xanım da salam verərək ötüb keçir.

Telefonuma zəng gəlir, İlqar Musayeviçdir. Deyir , mən artıq SMU -dayam, səni gözləyirəm. Görüşürük .Həmişəki kimi şux və enerjilidir. Elə bil respublikanın bu başından o başına gedib gəlməyib. Ancaq o həqiqətən belədir; xeyir-şərdən qalmaz, dost çağırışına biganəlik etməz, peşəsi ilə bağlı işlərdən yorulmaz, səmimiliyi və dostcanlığı da öz yerində. Onun həyat tərzi belədir, heyrətamizdir.

Otelin həyətində əyləşib çay içirik. Mənim bu şəhərdən ayrılmağıma çox az vaxt qalıb. Çalışır , nəsə vədlər verir, həvəsləndirir ki, bugün qalıb sabah yola düşüm. Oturub səhərə kimi söhbətlər etməyə daha mənim gücüm çatmır. Onun özü də diabetdən əziyyət çəkir. Ancaq mən heç də onun kimi azad adam deyiləm daha. Əslində mən indiki halımla azadlığın dustağıyam!



Qucaqlaşıb ayrılırıq.

”Şimşək” də maşını saxlayıb bir neçə dəqiqəlik yerə düşürəm. Dönüb geriyə, doğma şəhərə tərəf baxıram. Səbuhi də fürsətdən istifadə edərək tanışları olan avtomobil müfəttişləri ilə nə haqdasa söhbətləşir.

Yenidən maşına əyləşib yolumuza davam edirik.

**... Salamat qal, gözəl şəhər, həmişə belə vüqarlı görün, doğma Zaqatalam! Vətənimin dağlar qoynunda heç özünə də sığmayan Böyük Şəhərim!**

***Məzahir ƏHMƏDOĞLU***

# AQİL ABBASIN RƏMİŞİ və RƏMİŞİN AQİL ABBASI

**Kişiliyin əsas atributlarından biri dostluq etməyi, etibarlı, sadiq, təmənnasız, səmimi və fədakar dost olmağı və bu dostluğu uzun illər qoruyub saxlamağı bacarmaqdır. Amma bunun başqa bir tərəfi də var: gərək dost olduğun kəsdən**



**qarşılıq görəsən. Hansısa müstəvidə gözlənilən qarşılıq olmayanda, dostluğa namizədlərdən biri səmimi, obiri təkəbbürlü olanda, ya da, lap pis, özünə dost sandığın kəs, Allah göstərməsin, naxələf çıxanda, o yaxınlığın nə faydalı nəsə bir mənası, nə səmərəsi, nə də zamanca uzunluğu olar. Aqil Abbasın, başqa humanist xüsusiyyətləri ilə yanaşı, dostluğu bacarması da var. Əfsanəvi gitarçı Rəmiş kimi mürəkkəb, romantik, çılğın, dəlisov bir kəslə uzun illər dostluğu qoruya bilməsi - zəka böyüklüyü şübhə doğurmayan Aqil Abbasın həm də ürək, qəlb böyüklüyünə malik olmasının nümayişidir. Aqil Abbas Rəmişin ərköyünlüyünü, şıltaqlığını, qeyri-adiliyini onun "dahiliyinin ƏDV-si" kimi qəbul edir.**

**Bir vacib məqam da odur ki, dostluğa əsl sadiqlik dostun dünyasını dəyişəndən sonra da davam etməlidir - onun irsinə, ailəsinə, xatirəsinə sadiqliklə. Aqil Abbasın "Rəmiş" povesti belə bir sadiqliyə ucaldılmış abidədir.**

**Aqil Abbasın Rəmişi dünyəvi olmaqla yanaşı, həm də mistikdir. O, əsərdə ruha çevrilib, gah Paqanini`nin, gah Cimi Hendriks`in ruhları ilə qovuşur. Aqil Abbasın Rəmişi azad ruhun təcəssümüdür: onu nə ideoloji qəliblər, nə də ictimai kanonlar çökdürə bilərdi - onu yalnız özü çökdürə bilərdi, başqa heç kim.**

**Əsərdə ardıcıl tərzdə Rəmişin Aqil Abbasını da görürük. Müəllif daim qəhrəmanının yanındadır, həm onu qoruyur, sanki ölümə gedən yolu uzatmağa çalışır, həm də onun istedadına uca səslə oda oxuyur...**

**Bu gün dostum, "Qağa" deyə müraciət etdiyim, yazıçı, qəzetçi və ictimai xadim Aqil Abbasın doğum günüdür. Diləyirəm, dünyaca var olsun, çox olsun, xoş olsun, gec getsin, kef etsin.**

**Dostluqdan əskik olma, Qağa.**

**Rasim MÜZƏFFƏRLİ**
**2026, 1 aprel**

# İkinin arasında qalan Biri qorumalısan!



**Hər kəsin həyatında önəmli insanlar olur. Həmin insan başqa adamlar ilə sənin aranda məsafə yaradan İnsandır. Ondan çəkinirsən, utanırsan, abır edirsən və bu, daxildən gəlir, hazır resept deyil!**

**Hər kəsin tərcümeyi-halında kimlərinsə adı keçir. Onun da ismi mənim tərcümeyi-halımda var. Artıq onu şəxsən 15 ilə yaxındır tanıyıram. İlk tanışlığımızdan ona hörmətlə yanaşdım, aramızda subordinasiya və sərhəd saxladım. O, bu subordinasiyanı, məsafəni nə qədər ortadan qaldırmaq istəsə də, mən, əksinə, ona qarşı artan hörmətim sayəsində məsafəni daha da qorudum.**

**Getdikcə hörmət etdiyim şəxsdən doğma insana çevrildi. Doğmalıq məni daha məsafəli etdi.**

**Mən çətin vəziyyətlərdə təkliyi seçirəm. Özümün adi saydığım, amma çoxları üçün ağır görünən 'çətin' anımda o, həmişə ürəyindən keçəni etdi.**

**Dörd tərəfim məftillər ilə sarıqlı olanda onun hər kəlməsi, cümləsi, yazısı mənə ruh, əzm, iradə və dözüm verdi! Bütün doğmalarım, dostlarım onun haqqımda yazdığı hər sözünü, (telefonda danışanda) cümləsini mənə sevə-sevə, əzbərdən söyləyirdilər,ürəklənirdilər!**

**Bir dostun, doğmanın fikrini, düşüncəsini bölüşməyə bilərsən, bu normaldır. Amma onun şəxsiyyətinə, fiziki varlığına təhdid olanda yanında olmalısan; onun fikrini, düşüncəsini yox, şəxsiyyətini müdafiə etməlisən!**

**İkinin arasında qalan Biri qorumalısan!**

**Doğum günün mübarək olsun, SAYIN!**

**Rza RZAYEV**

# Ağdam sevgisindən dünyaya boylanan yazar

## Aqil Abbasın doğum gününə



***Esmira İSMAYILOVA***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent.***

**Bu gün yazıçı, jurnalist, Milli Məclisin 5 dəfə dalbadal deputatı seçilən, yurdumun da sayseçmə ziyalılarından olan Aqil Abbasın doğum günüdür, 73 yaşına tamam deyir. 1 apreldə doğulmağı xarakterinə də təsirsiz ötüşməyib Aqil müəllimin. Ən çətin məqamlarında, gərgin, əsəbi anlarında belə çöhrəsindən təbəssümü əskik olmayıb. Bu xüsusiyyəti qəhrəmanlarına da ötürə bilib. Sözsüz ki, hər obrazı yazıçının xarakterindən nəsə qoparır, özünə qatır. Aqil Abbasın da obrazlarına ötürdüyü içdən gələn təbii, səmimi yumor hissidir, yerinə düşən zarafatlarıdır. Roman və povestləri, bədii-publisistik məqalələri, sosial şəbəkələrdəki paylaşımlarını, Milli Məclisdəki, efirdəki çıxışlarını gözdən keçirmək kifayət edir Aqil müəllimi yaradıcı insan kimi tanımağımıza. Fikrimcə, elə insanlar var ki, onları tanımaq üçün aylar, illər lazım olmur, elə bir sözü, bir jesti, bir təbəssümü iç dünyasının aynasına çevrilir, tanıtımı olur, müsahibinə doğmalaşdırır.**

...Əslində 1 apreldə doğulsa, şux, zarafatcıl insan kimi tanınsa da, Aqil Abbasın təbəssümündə xəfif bir kədər gizlənib, mübhəm bir ağrı boylanır. Gözlərinin içindəki bu gizli kədəri Aqil müəllim gülüşlərinin içində həlləki əridə bilməyib. Ya istəməyib, ya da ümumiyyətlə bacarmayıb...

Aqil Abbasın bir yazar, bir millət vəkili, ziyalı-ən əsası-İNSAN kimi ən üstün cəhəti səmimiliyindədir. Ömrün 70-ni keçəndən sonra bu səmimiliyinə bir kövrəklik notları da qarışıb. Aqilliklə kövrəkliyin yaradığı qoşalıq əsərlərinə də hopub, xatirələrinə də çöküb, təzad yox, ılıq bir doğmalıq yaradıb. Aqil müəllimin 70 yaşından sonra qələmə aldığı "Çayın qırağında bitib susuz qalan ağacların sağlığına", "Bazar, Ağdam bazarı", "Rəmiş" povestlərini oxumusunuzmu? Bu əsərlərdəki səmimiyyət bədiiyyəti çox-çox üstələyir. Bədii parametrləri, janr, məzmun xüsusiyyətləri düppədüz olan nə qədər əsər tanıyıram ki, oxuyanda qəlbində bir tel belə tərpənmir. Amma Aqil müəllim bir başqa cür yazır. Dil, üslub normalarını tabu saymadan, qəlbi necə hökm edirsə, tənqidçilərin danlağını eyninə almadan, düşünmədən, ürəyinin hökm etdiyi kimi yazır, milli yaddaşa söykənərək, Seyid Məhəmmədhüseyn Şəhriyar kimi qəlbini göynədən xatirələri içindən tökərək, içini yüngülləşdirərək yazır. Həm də tələsik yazır, uca tanrının ona verdiyi ömür payının ölçüsünü bilmədiyinə görə zamandan bac alaraq hər yeni günündə, yeni yazısında içini göynədən xatirələrini yazılarında söz kəməndi edərək gələcək nəsillərə ötürür. Ona görə tələsir ki: "Və gün gələcək Ağdam bazarı əvvəlkindən də böyük olacaq. Bu dəfə hardansa atom bombası tapıb gətirsələr də, amma Xanəhmədisi, Möhü kişisi, Qarağacıtorq Əhmədisi, Temir əmisi, Seyid Lazım ağası olmayacaq".

Nədənsə yazıçı Aqil Abbasın son illərdəki bədii, publisistik yaradıcılığı daha doğma gəlir mənə. Bu əsərlərdə zamanımızın bədii təsvirini real əks etdirə bildiyinə, Ağdamı bədii obraz səviyyəsinə qaldıra bildiyinə görə həvəslə oxuyuram son əsərlərini. Aqil Abbasın Qarabağ, Ağdam mövzusunda qələmə aldığı "Çay qırağında bitib, susuz qalan ağacların sağlığına..." povesti yazıçının son illərdə yazdığı ən maraqlı, ədəbiyyatımızda mübahisə-müzakirə doğuran əsərlərdən biri adlandırmaq olar. Yazıçının Abdal-Gülablı Şakiri əsərinin baş qəhrəmanına çevirməsi, adi bir qarmonçunu bədii obraz səviyyəsinə qaldırması heç də təsadüfi deyil. Ona görə ki, Şakir kişi adamdır, ən ağrılı anında belə şərəf və ləyaqətini itirmir, kəsdiyi duz-çörəyə qiymət qoyur, erməni olsa belə, vaxtı ilə dost dediyi insana xəyanəti binamusluq sayır. Amma bu dost xəyanət yolunu seçibsə, Şakirin intiqamı da ağır olur-bu dostluğun çəkisi qədərində: "Təpənin yaxınlığındakı Hüseyn bulağında düşüb əl-üzlərini yudular, sonra da Şakir bakdan bir vedrə benzin çəkdi, tökdü maşının üstünə, içinə. Arvad-uşağa dedi bir kənarda dursun, cibindən kibrit çıxarıb yandırdı və atdı maşının üstünə".

Erməni Surenin maşınını yandırmaq Şakir üçün onu illərdir narahat edən iydən qurtulmaq, ruhən rahatlamamaqdır. Amma onu ruhu o vaxt tam rahatlıq tapa bilər ki, bu iy təkcə maşından yox, külli-Qarabağdan çəkilsin: "Qarabağdan hələ erməni iyi gəlirdi. Bu iyi Qarabağdan yuyacaq oğlanlar hələ orta məktəbdə qız üstə dalaşırdılar, çoxu hələ doğulmamışdı, analarının qarnındakı müqəddəs zülmətdə mışıl-mışıl uyuyurdular. Bəziləri isə hələ təzəcə doğulmuşdular, analarının döşlərindən Vətən əmirdilər.

Gün gələcəkdi məktəbdə qız üstə dalaşan oğlanlar heç üstündə dalaşdıqları qızları öpməmiş əsgər paltarı geyəcəkdilər, analarının müqəddəs bətnində mışılmışıl yatan balalar doğulacaqdı, özlərindən əvvəl doğulanlar kimi, analarının döşündən Vətən əməcəkdilər, sonra da böyüyüb kişi olacaqdılar və gedəcəkdilər Qarabağdan erməni iyini təmizləməyə".

Millətini güclü, milli yaddaşa söykənəli, kökünə bağlı görmək bir millət vəkili kimi Aqil Abbasın ən böyük arzusu olub. Yazıçı bu arzusunu povestində qəhrəmanının dili ilə "sağlıqlaşdırır": "Su qırağında bitib susuz qalan ağaclar! Dəniz qırağında bitib o dənizin balıqlarına həsrət qalan ağaclar. Nöyütün ortasında bitib nöyütsüz qalan ağaclar. Bir milyon ton pambıq verib kəfənsiz qalan ağaclar. Dünyaya elm bəxş edib özü bu elmdən kənar qalan ağaclar... Sayım, bəsinizdir? Çay kənarında bitib susuz qalan bu millətdir də".

Yazıçı Aqil Abbas Ağdam mövzusunda yazdığı son povestini illərin dostuna-gitaraçı Rəmişə həsr edib. Bu əsərdə müəllif hamının kefcil kimi tandığı Rəmişi tam ayrı rakursdan təqdim edir: "Mən o daşların üstündə qan görürəm. Gözümü yumuram, divarların arxasında saçlarını yolan anaları görürəm, gəlinləri görürəm. O daşlar hamısı ağlayır, özü də qan ağlayır. Bir dəfə televizorda Mikayıl Mirzə sənin qayınatanın şeirini oxuyurdu. Bax, şair odu ey, mənim gördüyümü görüb, ona görə o şeiri yazıb. Bir-iki söz yadımdadı. Gərək ki, deyir, igidlərin yaşaması daş olmaqla mümkün idi. Daşları danışdırır, özü də qəşəng danışdırır. Mən də danışdıra bilirəm".

**Bir gözəl yaz günündə dünyaya göz açan və bu gün 73-cü baharını yola salıb 74-ü salamlayan yazıçı Aqil Abbasın Ağdam sevgisi böyükdür, həyat eşqi qədərdir, Vətən anlamındadır: "Dünyada Ağdamnan böyük şəhər yoxdu. Heç dünyada Ağdamnan gözəl şəhər də yoxdu". Gözəl şəhərinin-Ağdamın tam azad olmağı, orda azad gəzib dolanmağın tanrının sizə ən böyük lütfüdür, Aqil Abbas. Bundan ki, böyük hədiyyə olmaz!**



Vaqif BƏHMƏNLİ

## APRELİN 1-i

*Yazıçı dostum Aqil Abbas başda olmaqla aprel ayının 1-də doğulan bütün insanlara.*

Hər kəsə bəllidi təqvimdə yeri -
İlin ildə bir yol gələn günüdü.
Haqqına sayılır aprelin 1-i
zarafat dünyanın yalan günüdü.
Şaman körükləyir yalan ocağı,
Çocuq polad bilir taxta bıçağı...
Hiylənin, kələyin gül açan çağı,
gülüstan gerçəyin solan günüdü.
Bismarki*, Pozneri*, Ayxan Ayvazı*
Milan Kunderanı o günə yazın!
Yeddi yan yeriyən Aqil Abbasın
yalana ilişib qalan günüdü.
Bəlkə də hakimlər aldanıb nəsə -
Hökm çıxarmayıb günahsız kəsə!
Hər gün boyun vurub,
hər gün baş kəsən
cəlladın üzünün gülən günüdü.
Azmış sürülərin dumana düşən,
Çobanın üzünə qurdlar gülüşən...
Xosrovun Şirinlə yataq bölüşən,
Fərhadın qayanı dələn günüdü!
Sarayı evcikdi uşaq Leylinin,
Açılmaz qapısı dustaq Leylinin,
Yalana vurulan aşiq Leylinin
Məcnunu çöllərə salan günüdü!
Yalan quş kimidi, gerçək ağır yük,
Heçdən qidalanır balaca, böyük!
Yalana möhtacsan, gopçu, ömürlük -
kisənə yalan təp... talan günüdü!
Yaradan yalanı bəndədən görüb,
Çırpınır tələdə;
sərçə dən görüb...
Dedin, axirət var -
di tərpən görüm,
İsrafil surunu çalan günüdü!
Sözdü əbədiyyət,
ömür anidi,
Tanrı cana qıymaz...
zaman canidi!
Cəmi yaratdığı, görür fanidi -
Allahın gözünün dolan günüdü!

*Qeyd:*
**İşarəsi qoyulan görkəmli şəxslər aprel ayının 1-də doğulublar.*

2025, Mərdəkan



Sevil AZADQIZI

# ÜÇ ŞEİRƏ BİR BAXIŞ

### *Bu talehlə oynamağa dəyməz heç*

*Gecəsi də, gündüzü də əzabdı*
*Yaşatdığı baş ağrısı, əsəbdi...*
*İçindəki kükrəməyən qəzəbdi -*
*Bu talehlə oynamağa dəyməz heç!...*

*Əl ürəyi sıxıb tutan bir maşa*
*Həmləsləri hiss edirsən birbaşa!*
*Yük olanda bir ürəyə, bir başa-*
*Bu talehlə oynamağa dəyməz heç!...*

*Ləpələrin qırışını saymıram,*
*Çəkdiyimin tüstüsün də yaymıram...*
*Bilirəm ki, mən nə qədər hay vuram-*
*Bu talehlə oynamağa , dəyməz heç!...*

*Uzaqlara göz zilləyib ha baxım*
*Gülümsəmir əvvəlki tək sabahım...*
*Razılaşar , mənimlə ta Allahım -*
*Bu talehlə oynamağa dəyməz heç!...*

Əbülfət Mədətoğlunun bu şeiri insanın öz qədəri ilə üz-üzə qalmasından doğan metafizik yorğunluğun bədii ifadəsidir. Şeirdə bədbinlikdən daha çox, bir təslimiyyət və agahlıq havası hakimdir.

Müəllif həyatın gətirdiyi çətinlikləri (baş ağrısı, əsəb, daxili qəzəb) sadəcə təsvir etmir, həm də bu sınaqlarla mübarizənin mənasızlığını vurğulayır. "Əl ürəyi sıxıb tutan bir maşa" təşbehi taleyin insan üzərindəki amansız təzyiqini çox təsirli şəkildə canlandırır.

"Ləpələrin qırışını saymaq" ifadəsi isə həm zamanın keçiciliyinə, həm də dərdi detallaşdırmağın faydasızlığına işarə edir.

"Razılaşar mənimlə ta Allahım" misrası şeirin kulminasiya nöqtəsidir. Burada müəllif öz taleyi ilə barışdığını, hətta bu barışığın ilahi bir razılıq səviyyəsinə çatdığını bildirir. Şeir olduqca axıcı, xalq dilinə yaxın və səmimidir.

"Bu talehlə oynamağa dəyməz heç" rədifi hər bəndin sonunda bir hökm kimi səslənərək, insanın qədər qarşısındakı acizliyini fəlsəfi bir həqiqətə çevirir. Qısacası, bu nümunə insanın öz iç dünyasındakı fırtınaları sakit bir boyunəymə ilə ifadə edən kədərli, lakin məğrur bir etirafıdır.

### *Təbiətə nə deyim?!.*

*Yağış döyür çiçəkləri budaqda,*
*Sızıldayır çiçəklərlə budaq da.*
*Yerin göylə qovuşduğu bu vaxtda,*
*Təbiətə nə deyim?!.*

*Gözlərimin qarşısında anbaan,*
*Solur bütün gözəlliklər, bax, inan!*
*Bu qəsd ilə ürəyimi ağrıdan,*
*Təbiətə nə deyim?!*

*Buludlardan ələk-ələk süzülən,*
*Süzüldükcə muncuq kimi düzülən...*
*Gördüyünüz anlar üçün siz bilən,*
*Təbiətə nə deyim?!.*

*İndi yer yox nə bəh-bəhə, nə aha,*
*Hər şey bəlli, sığındığım sirgaha!*
*Yerin üzün yuyur bəlkə, bir daha,*
*Təbiətə nə deyim?!.*

Mədətoğlunun bu şeiri insan ruhu ilə təbiət arasındakı həzin və kədərli ünsiyyəti əks etdirən lirik bir nümunədir.

Şeirdə yağışın çiçəkləri "döyməsi" və gözəlliklərin solması fonunda çarəsizlik və heyrət hissi ön plandadır. Müəllif təbiətin həm dağıdıcı, həm də təmizləyici gücü qarşısında insanın sözsüz qalmasını "Nə deyim?"-lə vurğulayır. Yağışın çiçəkləri "döyməsi", budaqların "sızıldaması" təbiət hadisələrinə insani duyğular qatır.

Yağış damlalarının "muncuq kimi düzülməsi" təsviri vizual gözəllik yaradır. Gözəlliyin solması ilə yağışın yeri yuması, yenilənmə arasında bir ziddiyyət və daxili mübarizə var. Şeirdə pessimist bir kədərlə yanaşı, ilahi bir təslimiyyət var.

"Sığındığım sirgah" ifadəsi baş verənlərin bir hikmətinin olduğuna işarə edir. Sadə, axıcı və xalq dilinə yaxın bir üslubda yazılıb.

Ritorik suallar "Təbiətə nə deyim?!" oxucunu düşünməyə sövq edir və lirik qəhrəmanın tərəddüdlərini çatdırır. Qısacası, bu şeir təbiətin amansız gözəlliyi qarşısında insanın heyranlıq dolu sükutunun poetik təcəssümüdür!

### *Sən bu qədər dəyərlisən mənimçün!*

*Qollarımı dünya boyda açmışam,*
*Sən bu qədər dəyərlisən mənimçün!*
*Torpaq, hava, günəş deyim bil, hətta,*
*Sən su qədər dəyərlisən mənimçün,*
*Sən bu qədər dəyərlisən mənimçün!*

*Xəyalımda, düşüncəmdə, sözümdə*
*Ucaltmısan kainatı, gözümdə!*
*Sən olmusan alışdığım közüm də,*
*Bil, bu qədər dəyərlisən mənimçün...*
*Sən su qədər dəyərlisən mənimçün!*

*Gülümsəyir, bax, üzümə Ay göydən,*
*Mənim üçün Sən olmusan pay, göydən!*
*Yoxdu özgə umacağım tay, göydən,*
*Sən, bu qədər dəyərlimsən, mənimçün,*
*Sən su qədər dəyərlisən mənimçün!*

*Ruhum üçün Tur dağısan, Zəm-zəmsən,*
*Dəcəlliyim, şıltaqlığım, qəmzəmsən!*
*Yerim, göyüm, vallah özüm həm sənsən,*
*Sən bu qədər dəyərlimsən mənimçün,*
*Sən su qədər dəyərlisən mənimçün!*

Əbülfət Mədətoğlunun bu şeiri səmimi duyğuların və dərin ehtiramın tərənnümüdür. Şeirin ana xəttini insana verilən sonsuz dəyər və mənəvi bağlılıq təşkil edir. Müəllif sevdiyi şəxsi sadəcə bir insan deyil, həyatın varlığı üçün vacib olan elementlərlə eyniləşdirir.

Şair "Sən, su qədər dəyərlisən" bənzətməsi ilə qarşı tərəfin həyati əhəmiyyətini vurğulayır. "Tur dağı", "Zəm-zəm" kimi obrazlar isə bu sevginin həm də müqəddəs və pak bir duyğu olduğunu göstərir. Şeirdə nikbin və coşğulu bir ruh halı hakimdir. "Qollarımı dünya boyda açmışam" ifadəsi sevginin hüdudsuzluğunu, "Ayın gülümsəməsi" isə lirik qəhrəmanın daxili işığını əks etdirir. Şeir sadə, axıcı və xalq şeiri ənənələrinə yaxın bir dildə yazılıb.

Təkrarlanan misralar (rədifvari sonluqlar) şeirin musiqililiyini və hissin təsir gücünü artırır. Qısacası, bu nümunə insanın kainat qədər uca tutulmasının və mənəvi vəhdətin poetik ifadəsidir.

Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru



# Səni unutmadıq, Vahid Əlifoğlu!

***Haşiyə:** O, Füzuli rayonunun Aşağı Seyidəhmədli kəndində doğulmuşdu - 1953-cü ilin aprel ayının 3-də. cəmi 57 il yaşadı. Ali təhsilli fəhlə idi. Amma...*

*Böyük söz adamı idi. Böyük söz adamları ilə də məktublaşırdı, fikir bölüşürdü. Heç bir iddiası da yox idi. Yalnız ürəyini, ruhunu sözə büküb şeirə çevirirdi. 2010-cu ilin yazına qədər belə də etdi. Onun sözünü, imzasını Azərbaycan oxucusuna "Ədalət" tanıtdı, təqdim etdi. O da "Ədalət"in ən sədaqətli yazarlarından biri oldu. Birbirindən maraqlı publisistik yazılarını, şeirlərini, esselərini oxutdu bizə. Özündən sonra 4 əl boyda kitabı qaldı. "Çadır şairi" kimi bir qəribə epiteti də var idi. Amma o, çadır altında doğulmamışdı. O, söz üçün doğulmuşdu, yazıb-yaratmaq üçün doğulmuşdu. Ona görə də sözü sevənlərin, sözə xidmət edənlərin yaddaşına köçdü! O, bu gün də bizim, "Ədalət"in yanındadı, yadındadı. Biz onu unutmamışıq. "Ədalət" nə qədər ki, var, o, bizimlə olacaq!*

***

Son vaxtlar təklik daha çox güc gəlir mənə. Bir küncə çəkilmək...gözdən-könüldən uzaqda olmaq... heç kimi, heç nəyi görməmək, eşitməmək istəyi o qədər güclü olur ki, tabe olmaqdan başqa yolum qalmır. Amma çox ani bir zaman kəsiyindən sonra hiss edirəm ki, gücsüzlük, iradəsizlik etmişəm. Əyilmək lazım deyilmiş, daha güclü müqavimətə, daha sərt təpkiyə imkan ola-ola, özümü könüllü surətdə təklik qucağına atmışam. Təbii ki, hər iki məqamda özümü haqlı bilirəm. Çünki dünyamız, ətrafımız, hətta içimiz elə bir durumdadı ki, hamıya üz tutmaq, hamıya sirr vermək, hamıyla həmsöhbət olmaq və hamının sirrini saxlamaq da mümkün olmur. Daha doğrusu, bunu obyektiv və subyektiv səbəblərdən bacarmıram...

Dərinə gedib nəyinsə təzədən altını üstünə çevirməyə ehtiyac görmürəm. Sadəcə içimdə bir hıçqırtı dolaşır: Qayıt yerinə qoy ayı, günəşi...

İndi o qədər ehtiyacım var, indi elə darıxıram sənin üçün. Lap kənddə dediyim kimi, az qala burnumun ucu da göynəyir sənin üçün. Amma sən darıxmaq fikrində deyilsən... sən çıxıb getmisən. Özü də hər şeyə, lap elə bu dünyanın özünə də tüpürüb getmisən. Mən bunu bilirəm, mən bunun səbəblərini çox gözəl anlayıram. Amma neyləyim ki, bildiklərimlə, anladıqlarımla razılaşmıram, barışmıram və öz-özümə min dəfə sual verirəm:

- Niyə bu qədər etibarsız çıxdınız? Niyə tək qoyub getdiniz? Bilmirsiniz təklik dözülməzdi? Bilmirsiniz təklərin üstünə yeriyən, qabaran, hətta hürən çox olur? Axı siz hər şeyi bilən idiniz! Siz hər şeyin fövqündə dayanırdınız! Bəs niyə belə etdiniz? Eh, nə deyim axı sizə! Bəlkə heç nə, bəlkə...

Heç kimi qınamıram, heç kimdən incimirəm. Bütün məqamlarda, bütün yerlərdə günahkar özüməm. Üsyankarlıq, etiraz etmək haqqımı həmişə gözlətmişəm, həmişə dondurmuşam... . Amma...

Yazının əvvəlində bir məqama diqqət yetirdim- təklənməyə, tək qalmağa işarə vurdum. Yenə həmin nöqtəyə qayıdıram. Son günlər o təklik, o təklənmə mənim üçün yeni zamanın başlanğıc nöqtəsidi. Mən o nöqtədən indi hər kəsə əvvəlkindən fərqli baxmağa çalışıram. Hətta ailəmdə də, işimdə də, nə qədər haqlıyam və yaxud əksinə, deyə bilmərəm. Ancaq bildiyim bir gerçəklik var - o da təklənməkdi, o da hücumlara məruz qalmaqdı, o da haqqı tapdalanmaqdı. Bütün bunlar istənilən duyğulu insanı səfərbər olmağa, ən azı özünə baxmağa səsləyən, məcbur edən bir çağırış, bir güc, bir təpkidi. Çünki yarılanmaq, yarı olmaq, o qədər də asan deyil, o qədər də dözülən deyil. Hətta qədim bir mahnımızın sözlərində deyildiyi kimi: Vətən bağı al-əlvan olsa da...

Hə, yaman təkləndim, yaman tək qaldım, səsimə səs vermədin, telefonun əhatə dairəsindən kənarda oldu. Özün ürəyimdə, ürəyim ürəyində olsa da, səsin, nəfəsin yanımda olmadı. Bax, onda əlim qələmə, gücüm vərəqlərə çatdı...

*Vətən bağı cənnət oldu*
*Unutdurdu yarı sənə!*
*Yol gözləmək sənət oldu-*
*Yarı mənə, yarı sənə!*

*İstəkləri tam görmədik,*
*Bir ev-eşik, dam görmədik.*
*İşıq saçan şam görmədik -*
*Yarı mənə, yarı sənə!*

*Ürəyimiz köz-köz oldu,*
*Təsəllimiz döz, döz! - oldu.*
*Nə oldusa, lap düz oldu,*
*Yarı mənə, yarı sənə!*

Hə, Vahid Əlifoğlu, niyə susursan? Niyə haqqımın müdafiəsində sözünü demirsən? Hə, ürək dostum, bəs sən hardasan? Nə yaman uzun çəkdi səfərin? Dağlar, dərələr, bulaqlar, çeşmələr, təbiətin göz-könül oxşayan növrağı, nə yaman unutdurdu məni sənə? Aç də, telefonu? Qayıt da əhatə dairəsinə? Axı meydanda tək qalmışam? Axı sənə ehtiyacım var!..

***P.S.** Vahid Əlifoğlunun şeirlərini qəzetin 14-cü səhifəsində oxuya bilərsiniz.*



***Həzi HƏSƏNLİ,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist***

# Ömür kitabının naxışları

**Deyirlər, qarşılaşdıqların heç də təsadüf deyil. Mənim həyatımda yerinə düşən, yaddaşımda dərin iz buraxan xoş təsadüflər az olmayıb. Zaman- zaman ürəyimdə şirin bir xatirə kimi yaşayır.**

Orta məktəbi bitirib, ülvi arzularımın soraqğıyla Bakıya ali təhsil almağa gələndə ürəyimdən qəribə hisslər keçirdi. Həmin həyacanlı vaxtlarımda, elə bilirdim ki, bu boyda şəhərdə qəribəm, tənhayam. Ramizlə görüşüb tanış olandan sonra düşündüklərimin əksini gördüm. Sanki çoxdan mənə doğma olan bir uşaqlıq dostumla görüşürdüm.

Borçalıdan qəbul imtahanına gələn abuturiyentlərin əhatəsinə düşəndə, ilk baxışdan onun xoş təbəssümü ilə qarşılaşdım. İnsan qəlbinin dərinliklərinə nüfuz edən diqqətli baxışları ünsiyyət qurmaq üçün bir vəsilə oldu. Qəbul imtahanları başlayana qədər universitetin həyətində və kitabxanalarda görüşürdük. Oxuduqlarımızı təkrarlayırdıq. Öyrənib bildiklərimizdən sual- cavab edirdik. Ramizin müsbət keyfiyyətləri hər yerdə aydın görünürdü. Çox dərrakəli, hazırcavab, hafizəsi möhkəm olduğu üçün ünsiyyətimiz də, tanışlığımız da yaxşı alındı. Mütaliəni çox sevdiyimizə görə, ən yaxın həmsöhbət olduq. Tələbə olmaq arzusu həyatımızı duyğularla zənginləşdirirdi. Sözümüzdə - söhbətimizdə min duyğunun rəngi vardı. Gündən- günə dostluğumuz möhkəmlənirdi. Budur, dostum Ramiz Bəkirovun ömür kitabına ötən illərin vurduğu naxışlar və qoyduğu izlər. O, 1973 - cü ildə Kəpənəkçi kənd orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Pedoqoji İnstitutunun (İndiki Pedoqoji Universitet) tarix fakültəsinə qəbul oldu. Təhsilini uğurla davam etdirdi. Tələbələr arasında təhsil uğurları ilə fərqləndi, seçildi.

Mən artıq Azərbaycan Dövlət Universitetinin (indiki Bakl Dövlət Universiteti) jurnalistika fakültəsində oxuyurdum. Jurnalistika fakültəsində şeirləri ilə ümid verən imzalar çox idi. Mənim də imzam mətbuatda işıq üzü görürdü. Biz dərsdən kənar vaxtlarda bir yerə toplaşır və şeir havasına köklənirdik. Ramiz tarix fakültəsində oxusa da, şeir- sənət vurğunu idi. Şeir- sənətlə bağlı olan tədbirlərdə də vaxt olduqca görüşürdük. Əzbərində o qədər şeir vardı ki... Mərcə düşsəydi, saatlarla şeir söyləyərdi.

Onu hər zaman ədəb-ərkanlı, ağır oturub batman gərən görürdüm. Arzularında, əməllərində gözəl insani sifətləri aydın duyulurdu. Romantika ilə dolu olan tələbəlik illərini başa vurduqdan sonra Quba rayonunda texniki-peşə məktəbində müəllim kimi əmək fəaliyyətinə başladı. Daha sonra Sovet ordusu sıralarında əsgəri borcunu yerinə yetirmək üçün xidmətə çağırıldı. Hərbi xidmətini başa vurub doğma Kəpənəkçi kəndindəki orta məktəbdə müəllim kimi əmək fəaliyyətini davam etdirdi. O, müəllimlər arasında yaşca cavan, xaraktercə ciddi və təmkinliliyi ilə seçilirdi. Şagirdlərin şəxsiyyətinə yüksək dərəcədə hörmət bəsləyirdi.

Ömrünün müəyyən bir hissəsini məktəbə həsr etdi. Fədakar əməyi ilə şərəfli müəllim adına layiq olduğunu sübut etdi. Məktəb onun həyatının, varlığının zəruru bir hissəsinə çevrildi.

Hər bir sənətdə olduğu kimi, müəllimlikdə də daxili, sirli cəhətləri dərk etməkdə fitri istedad, gənc nəslə həssaslıqla yanaşmaq böyük rol oynayır. Bu mənada onun nəcib müəllim və insani sifətləri dərs dediyi şagirdlərinin qəlbini isindirirdi.



... O, dünyaya Borçalının Kəpənəkçi kəndindən - ata yurdundakı evinin pəncərəsindən boylanır. Taleyin Ramiz Bəkirov üçün ən böyük töhfələrindən biri də Kəpənəkçi kəndində doğulub boya-başa çatmasıdır. Bu, unudulmaz Xalq şairi Zəlimxan Yaqubu yetirən kənddir. Ramiz müəllim bu kənddə insanların arasında sazlı - sözlü bir aləmdə halal zəhmətinin bəhrəsini görüb yaşayır. Həmişəki kimi, elin xeyrində- şərində boyu görünür. Doğma el- oba Ramiz Bəkirov üçün babalarının əsrlər boyu yaratdığı zəngin mənəviyyat ocağıdır. Bu, olduqca dərin mənaları, müqəddəs hissləri özündə ehtiva edir. Mən universiteti bitirdikdən sonra şəhərdə yaşamağa və işləməyə başladım. Hələ o zaman Ramiz qardaşım deyirdi ki, əsas məsələ kökdən ayrılmamaq, özünü tanımaq, özünü dərk etmək məsələsidir. İnsan özünü dərk etməyəndə yerində sayır, inkişafdan qalır.

O, doğrudan da yerində saymadı. İşgüzarlığı, təşkilatçılıq bacarığı nəticəsində Bolnisi rayon komsomol komitəsində işə başladı. Sovxoz komsomol təşkilatının və rayon komsomol komitəsinin katibi işləyəndə də ona göstərilən etimadı doğrultdu. Onu yaxından tanıyanlar ötən illərdə gənc, işgüzar, geniş erudisiyalı komsomol işçisi Ramiz Bəkirovun gələcəyinə böyük ümidlərlə baxırdı. Bolnisi rayon komsomol komitəsinin ikinci katibi olanda da, Kvemo- Bolnisi üzümçülük sovxozunda direktor müavini işləyəndə də el - obasının ümidini doğrultdu.

Həmin illərdə biz bir- birindən uzaq düşən yaxınlar kimiydik. Amma imkan olduqca telefonla əlaqə saxlayırdıq. Bir- birimizin hal- əhvalından xəbərdar olurduq. Ona görə də mənə elə gəlirdi ki, dostum həmişə, hər yerdə yanımdadır.

Onun həyat təcrübəsi, iş və ictimai fəaliyyəti, kamilliyi nəsillərə nümunədir. Həmin uca keyfiyyətlərinə görə Gürcüstanda geniş tanındı. O, cəmiyyətin ictimai həyatında böyük rol oynadı. Gürcüstan müstəqillik qazandıqdan sonra, orada Yaşıllar partiyasının sıralarında siyasi hərakata qoşuldu. Gürcüstanın Parlament seçkilərində iştirak etdi. Daha sonra Gürcüstan Vətəndaşlar İttifaqı Partiyasından proporsional yolla iki çağırış Gürcüstan Parlametinə üzv seçildi. Parlamentin Aqrar siyasət və kənd təsərrüfatı komitəsi sədrinin birinci müavini vəzifəsində inamla çalışdı. Hal- hazırda da təqaüdçü olmasına baxmayaraq, Gürcüstanın ictimai- siyası həyatında fəal iştirak edir. Gürcüstan Azərbaycanlıları Konqresinin təsisçilərindən biri, həm də idarə heyətinin üzvüdür. O, doğma kəndində məscidin tikintisində yaxından iştirak edib. Kənddə 700 nəfərlik mərasim evinin tikintisi üçün öz şəxsi torpaq sahəsindən yer verib. Tikintinin başa çatmasında və sənədləşməsi işlərində də əlindən gələn köməyi əsirgəməyib.

Ramiz müəllim ziyafətlərdə, şənliklərdə, məclislərdə ağsaqqal ziyalı kimi başa çəkilir. Mən hərdən Borçalıya, ana kəndim Faxralıya gedəndə də dostum Ramiz Bəkirovun haqqında xoş sözlər eşidirdim. İllər keçdi, onu dəyişən görmədim. Həmişə sözündə bütövlüyü, hərəkətlərində, əməlində dəqiqliyi qoruyub saxlamağı bacardı.

Ramiz Bəkirovun təbirincə, mənəvi təmizlik insan üçün vacib keyfiyyətdir. Özü də təbiəti etibarı ilə əsl ziyalıdır. O, ailədə də belədir. Onun ziyalı və insani sifətləri üç övladı və səkkiz nəvəsi üçün ən qiymətli irsdir.

... Gənclik illərindən ürəklərimiz bir- birinə isinib. İndi yaşa dolsaq da, xəyalən o illərə qayıdıram və öz yaşımı unuduram. Ürəyimdə kövrək, isti duyğular baş qaldırır. Bu duyğular gənclik illərimizdən bu yana məni müşayət edir:

***Ötən gəncliyimin yadıgarıdır,***
***Gəlib ürəyimdən nur kimi axıb.***
***Bu duyğu dostluğun etibarıdır,***
***Könlümdən, ruhumdan sıyrılıb çıxıb.***

**Bu il gənclik dostum Ramiz Bəkirovun 70 yaşı tamam olacaq. Onu qarşıdakı yubileyi münasibətilə ürəkdən təbrik edirəm, dostuma sağlam və bərəkətli ömür arzulayıram.**



***Fikrət Əkbərli,***
***Türkiyə üzrə araşdırmaçı - yazar***

# SƏRHƏDLƏRDƏN UZAQDA BAŞLAYAN ƏXLAQIN SƏSİ

**Siyasət və əxlaq arasındakı mübahisələrin kökləri çox qədim zamanlara dayanmaqdadır. Mahiyyət etibarilə milli maraqlar üzərində qurulan xarici siyasət gündəmə gəldikdə, əxlaqla bağlılıq ya çox nadir hallarda xatırlanır, ya da milli maraqlar əxlaq donuna büründürülərək xarici siyasətə haqq qazandırmaq üçün istifadə olunur. Siyasət ilə əxlaq arasındakı mübahisə insanları düşündürən önəmli suallardan biri kimi tarix boyu öz aktuallığını qorumaqdadır.**

**Alman filosofu Immanuel Kant hələ XVII əsrdə beynəlxalq münasibətlərdə müəyyən qədər əxlaqi ölçünün vacibliyinə diqqət çəkmişdi.**

**Onun bu yanaşması, siyasətin yalnız güc və maraq üzərində qurulmamalı olduğunu xatırladırdı. Daha sonra ilahiyyatçı Reinhold Niebuhr 1946-cı ildə bu məsələni daha sərt şəkildə ifadə etmişdir: "Yaxşılıq etmək üçün nə qədər pislik etməliyik?" Bu sual əslində siyasətin içində gizlənən dərin etik paradoksu üzə çıxarır.**

**Niebuhrun fikrincə, bəzən daha böyük bir fəlakətin qarşısını almaq üçün dövlətlər ağır və hətta əxlaqi baxımdan problemli qərarlar verməyə məcbur qalırlar.**

**O yazırdı ki, ən aqressiv rejimlərin hökm sürdüyü bir dünyanın doğura biləcəyi ölçüyəgəlməz şərin qarşısını almaq üçün qalib tərəflər bəzən özləri də ciddi pisliklər etməyə sürüklənirlər.**

**Bu çərçivədə xarici siyasətdə əxlaqi prinsiplərin yeri olub-olmaması beynəlxalq münasibətlər elminin ən əsas mübahisə doğuran mövzularından biridir. Realist yanaşmanı mənimsəyən tədqiqatçılar hesab edirlər ki, dövlətlərin davranışlarını müəyyənləşdirən əsas amil əxlaqi mülahizələr deyil, milli maraqlardır. Onlara görə, beynəlxalq sistemdə sağ qalmaq və gücünü qorumaq istəyən hər bir dövlət, ilk növbədə öz maraqlarını ön planda tutmağa məcburdur. Beynəlxalq arenada "yaxşı" və ya "pis" dövlət yoxdur. Dövlətlər, əsas diqqətlərini təhlükəsizliklərini təmin etməyə, varlıqlarını qorumağa yönəltməlidir.**

**Liberallar isə digər dövlətlərlə münasibətlərində müəyyən qayda və normalara əməl edənləri "yaxşı", əməl etməyənləri isə "pis" dövlətlər kimi təsnif edirlər. Bu baxımdan liberal beynəlxalq nizam və ya qaydalara əsaslananların həm tərəfdarları, həm də əleyhdarları vardır.**

**Xarici siyasət yalnız gücün deyil, vicdanın da sınaq meydanıdır. Əxlaq çox zaman siyasətin sərt divarları arasında itib gedən bir pıçıltı kimi qəbul edilir. Güc yol göstərə bilər, amma istiqamət verməz.**

**Əxlaqsız qələbə səssiz bir məğlubiyyətdir. Dünya qorxudan ibarət ola bilməz.**

**İnsanlıq qorxu üzərində deyil, ədalət üzərində qurulmalıdır.**

# Yazda allergiya - Nələrə diqqət etməliyik?

**Bir çox insan qaşınma, sulu gözlər, qızartı və göz qapaqlarının şişkinliyini mövsümi reaksiya kimi qəbul edir, lakin bu, həm də infeksiya ola bilər.**

Adalet.az xəbər verir ki, bunu rusiyalı həkim Karina Kozina yerli KİV-ə açıqlamasında deyib.

"Əgər gözləriniz qaşınarsa, sulu olarsa, göz qapaqlarınız bir az şişərsə və ifrazat şəffaf və ya selikli qalırsa, bu, daha çox allergiyaya bənzəyir. Bu, tez-tez burun axıntısı, asqırma və qaşınan burunla müşayiət olunur. Simptomlar çox vaxt çöldə olmaq, külək, tozcuqlara məruz qalmaq, təmizlik işləri aparmaq və ya kənd yerlərinə səyahət etməklə üst-üstə düşür. Allergiyalar çox vaxt hər iki gözə eyni anda təsir edir - qıcıqlandırıcı simmetrik olaraq selikli qişalara çatır. Viral iltihab çox vaxt bir gözdə başlayır və bir-iki gün ərzində digərinə yayılır, xüsusən də insan göz qapaqlarını ovuşdurub patogeni ötürürsə", - deyə o bildirib.

Bunun qarşısını almaq üçün Kozina qıcıqlandırıcıların gözlərlə təmasını azaltmağı məsləhət görüb.

"Açıq havada eynəklər faydalı ola bilər, çünki onlar külək və tozcuqlardan qismən qorunma təmin edir. Evə qayıtdıqdan sonra üzünüzü yumaq və göz qapaqlarınızı təmizləmək faydalıdır. Təmiz əllər, ayrıca üz dəsmalı və tez-tez yastıq üzünü dəyişdirmək də vacibdir", - deyə o, yekunlaşdırıb.

# Dərin yuxu üçün bunu edin

**Mütəmadi yoqa məşqləri yuxu pozğunluqları ilə mübarizədə digər fiziki fəaliyyət növlərindən daha təsirli ola bilər.**

Adalet.az xəbər verir ki, belə bir nəticəyə Harbin İdman Universitetinin alimləri gəliblər.

Tədqiqat "Sleep and Biological Rhythms" (SBR) jurnalında dərc edilib.

Tədqiqatçılar müxtəlif ölkələrdən olan yuxu problemi olan 2500-dən çox insanın iştirak etdiyi 30 təsadüfi klinik sınaqdan məlumatları təhlil ediblər.

Onlar gəzinti, güc məşqləri, aerobika məşqləri və çiqonq və tayçi kimi ənənəvi təcrübələr də daxil olmaqla müxtəlif fəaliyyət növlərini müqayisə ediblər.

Yoqa ən yaxşı nəticələr göstərib. Təhlilə görə, ən təsirli rejim həftədə iki dəfə 30 dəqiqəyə qədər yüksək intensivli məşqlər olub. Cəmi 8-10 həftədən sonra yuxunun yaxşılaşması müşahidə olunub.

Gəzinti effektivliyə görə ikinci yerdədir, ardınca güc məşqləri gəlir. Tədqiqatda vurğulanır ki, təkcə müddət deyil, həm də məşq növü də əhəmiyyətli rol oynayır.

Alimlər qeyd edirlər ki, yoqanın yuxuya təsir etdiyi dəqiq mexanizm hələ tam başa düşülməyib. Bununla belə, bunun bir neçə mümkün izahı var. Yoqa fiziki fəaliyyəti nəfəs alma texnikaları ilə birləşdirir və bu texnikalar parasimpatik sinir sistemini aktivləşdirir ki, bu da istirahət və bərpadan məsuldur. Bundan əlavə, bəzi dəlillər göstərir ki, yoqa beyin dalğalarının fəaliyyətinə təsir göstərə bilər və daha dərin yuxuya kömək edə bilər.

# TAPDIQ ƏLİBƏYLİNİN ÖZÜ VƏ SÖZÜ



***Ramiz GÖYÜŞ,***
***yazıçı-publisist, AYB-nin üzvü, "Qazax" Xeyriyyə İctimai Birliyi İdarə Heyətinin üzvü***

**Yaradıcılığına və şəxsiyyətinə ehtiram bəslədiyim şair-publisist və ictimai xadim Tapdıq Əlibəylini uzun illərdir tanıyıram. Onunla, Binəqədi Rayon İcra Hakimiyyətində işlədiyim vaxtlarda, tədbirlərin birində tanış olmuşduq. Həmin tədbirdə yenicə çapdan çıxmış "Poetik buta" kitabını da mənə hədiyyə etmişdi. Elə həmin gündən də Tapdıq bəylə mehriban ünsiyyətimiz yarandı.Tez-tez görüşməsək də, fəal istifadəçisi olduğum "fasebook" sosial şəbəkəsində müntəzəm olaraq onun yaradıcılığını və ictimai fəaliyyətini yaxından izləyirəm. Bu günlərdə öyrəndim ki, bu ilin iyulunda Tapdıq bəyin 65 yaşı tamam olacaq. 65 yaş insan həyatında əlamətdar bir tarix olduğu üçün istədim ki, mən də bir yazı-pozu adamı kimi həmkarım Tapdıq Əlibəylinin yaradıcılığına səyahət edim. Bu yazı da həmin səyahətin nəticəsi olaraq meydana gəldi və düşünürəm ki, səmimiyyətdən yaranmış bu yazı Tapdıq bəyin yubileyinə mənim kiçik bir hədiyyəm olar.**

Tapdıq Əlibəyli qədim türk yurdu, əsrarəngiz təbiəti olan Yardımlı rayonunun Bürzünbül kəndində dünyaya göz açıb.

Düşünürəm, Bürzünbülü oxucularına şair aşağıdakı misralarla təqdim edərək, onun haqqında dolğun təsəvvür yarada və sevdirə bilib:

***Tanrı yazan bir əzəli ünvanım:***
***Dağ havası, yurd sədası - Bürzünbül***
***Göz açdığım, söz açdığım - rəvanım,***
***Dağ havasi, yurd sevdası - Bürzünbül.***
***Sadəliyi səmimiyyət batmanı,***
***Kədəri də, sevinci də bölüşər.***
***Halallıqdan yoğrulubdu imanı,***
***Bir-birinin köməyinə yetişər.***

Təbii ki, Bürzünbül Tapdıq Əlibəylinin dünyaya göz açdığı kənddir, balaca Vətənidir onun. Lakin Tapdıq Əlibəylinin Vətən anlayışında bir adda əbədi məskən salıb - Yardımlı rayonu. O rayon ki, öz ziyalı, vətənpərvər, mərd, mübariz oğulları ilə Azərbaycanımıza kifayət qədər görkəmli şəxsiyyətlər, o cümlədən Sabir Rüstəmxanlı kimi görkəmli ictimai-siyasi və dövlət xadimi, Xalq şairi bəxş etmişdir. Təbii ki, Sabir Rüstəmxanlı kimi görkəmli bir ədəbiyyat adamını yetirən bir bölgədə, ondan sonra elə qələm almaq hər kəsdən bir cəsarət və hünər tələb edir. O da qeyd edilməlidir ki, Sabir Rüstəmxanlı öz yaradıcılığı və fəaliyyəti ilə bu bölgədə ədəbiyyatın və poeziyanın inkişafına güclü təkan vermişdir. Heç şübhəsiz ki, ondan sonra ədəbiyyata gələn insanların yaradıcılığına onun təsiri olmamış deyil. Bununla belə Yardımlının təbiəti, suyu, havası, onun folkloru və ədəbi mühitinin özü bir poeziyadır və Sabir bəyin də elə bu mühitdən pərvazlanması qanunauyğunluqdur.

Yardımlı ədəbi mühitinin ədəbiyyatımıza verdiyi söz adamlarından biri də Tapdıq Əlibəylidir. O, Yardımlıya olan sevgisini aşağıda nümunə gətirdiyim misralarla ifadə edir:

***Vətən - bir ağacsa, budaq Yardımlı,***
***Boy verir rişəsi minilliklərə.***
***Zirvəsi qartallı bu dağ Yardımlı***
***Bağlayıb yurddaşı minilliklərə.***
***Ər kişilər yurdu - mənaca adı,***
***Bürünüb övladı bu həqiqətə.***
***Bu dağlar qoynuna Yaradan yardı,***
***Bələnib Yardımlı saf təbiətə.***

Ölkəmizin ictimai həyatında fəall iştirak edən, ədəbi cameədə həm publisist, həm də şair kimi yaxşı tanınan Tapdıq Əlibəylinin "Qəlbdən qələmə" şeirlər kitabı qarşımdadır və onun poeziya dünyasına səyahətdəyəm... Bu bir danılmaz həqiqətdir ki, Tanrının yaratdığı canlılar



arasında İNSAN ən mükəmməl varlıq və ən böyük möcüzəsidir. Tanrı bitkilərdən və heyvanat aləmindən fərqli olaraq insanlara danışmağı, dili verib. Əgər Tanrının yaratdığı ən böyük möcüzə insandırsa, insanın yaratdığı ən böyük möcüzə sözdür. Yəni insan da sözdən SÖZü yaratdı. Bu da bir həqiqətdir ki, Tanrının verdiyi qabiliyyətlə insanın yaratdığı, ifadə etdiy sözdən güclü heç nə ola bilməz. Söz fövqəl gücə malikdir. Söz sözlə yanaşı işlədiləndə fikir, məna ifadə edir:

***Könül verdim saza-sözə,***
***Günəş doğdu sanki üzə.***
***Söz sovqatı göndər bizə...***
***Şeir - sözün ən göyçəyi.***
***Yaranmyır şeir əbəs,***
***Gül qoxuyan o bir nəfəs,***
***Göy üzündən gələn bir səs...***
***Şeir - sözün ən göyçəyi.***

Mənim qənaətimcə, şeir gözəgörünməz fövqəl bir varlıq tərəfindən, elə o varlığın vergi, istedad bəxş etdiyi insanlara-şairlərə diqtə olunan bir möcüzə, şairlik isə bu diqtə əsasında insanın ən ülvi hisslərini, duyğularını ifadə və təqdimetmə qabiliyyətidir.

Tanrı sözün qüdrətini öz ali məqamına çatdırmaq üçün, öz bəndələrinin içərisindən bir qisminə qeyri-adi istedad verərək sözləri nəzmlə, ritmlə, ahənglə, qafiyə formasında işlətmək qabiliyyəti vermişdir ki, belə insanlara da söz adamı, şair, şeir yazan demişlər.

***Şairlər bir ömür eşq sərxoşları,***
***İlham pərisinin hüsnündən xumar.***
***Könlü misra-misra söz naxışları,***
***Başına hər vədə çəkilməz tumar.***
***Şairlər əzəldən söz pərvanəsi,***
***Atəşə tutulub, oda yaxılıb.***
***Sözü açıbsa da zindan-qəfəsi,***
***Şair ürəyinə güllə çaxılıb...***

Fikrimcə, Tanrı insana danışmaq qabiliyyətiu verdiyi andan, insanın insanla ünsiyyəti yarandığı məqamdan şeirin tarixi başlayır. Çünki başqa canlılardan fərqli olaraq Tanrı insanlara digər duyğu üzvləri ilə yanaşı həm də duymaq, düşünmək, hiss və həyəcanlarını, sevinc və kədərini ifadə etmək qabiliyyəti vermişdir. Şairlər üçün söz hər şeydir. Həyatın mənasıdır. Yaşamaq fəlsəfəsidir. Sevincdir, nəşədir, qəmdir, kədərdir.

***Göydən enən mələkdir,***
***Simurqdan tel, ləlәkdir,***
***Ruhumuza gərəkdir***
***Misralanan ulu söz.***
***Tumurcuqdur, çiçəkdir,***
***Pöhrələnən özəkdir,***
***Bahar kimi bəzəkdir***
***Misralanan ulu söz.***

Şeirlərini oxuduqca, publisistikası ilə tanış olduqca, gözlərimin qarşısında müəllifin Tanrının verdiyi istedadı, haqqa tapınan, sözə yüksək dəyər verən, onun məsuliyyətini dərk edən, zəhmətdən yoğrulmuş bir söz adamının obrazı, işıqlı siması canlanır. Tapdıq Əlibəylinin özü də, sözü də işıqdır, ziya saçır. Yaradıcılığı ilə tanış olduqca onun poeziyasının mövzuca zəngin və rəngarəng olduğunun şahidi olursan. Bir kiçik yazıda onun həm mövzu, həm məna, həm də forma etibarı ilə zəngin yaradıcılığı barədə bütöv fikir yürütmək imkanı məhduddur. Bununla bərabər hesab edirəm ki, Tapdıq Əlibəyliyə bir şair kimi dəyər vermək üçün onun sözə, sözün hikmətinə, dəyərinə həsr etdiyi şeirlərini oxumaq kifayət edər. Diqqət yetirək:

***Cahana sığmayan Tanrı bəndəsi***
***İlahi şövq ilə Sözə sığındı.***
***Söz mülkünün əngin bəndi-bərəsi***
***Bir ovuc ürəyə necə yığıldı?...***
***Təbi-təbiəti sözlə dəyişən***
***Ümid işığında pərvanə olar.***
***Bəxtinə qismətdən şairlik düşən***
***Bircə söz üstündə "divanə" olar.***

Doğurdan da onun şeirlərini oxuduqca aydın olur ki, "bircə söz üstündə" divanə" olanlardan biri də Tapdıq Əlibəylidir.

Belə olmasaydı aşağıdakı misraları yaranmazdı:

***Şairlər dünyanın söz divanəsi,***
***"Divan"ı üstündə qurulub divan...***
***Dərisi soyulub, ancaq haqq səsi***
***Susmayıb, ucalıb, susmaz heç zaman!..***

**Hörmətli Tapdıq Əlibəyli!**

**Arzu edirəm ki, divanınınız həmişə "Divani" üstə qurulsun, söz həmişə qəlbinizin hakimi, dilinizin bəzəyi olsun, həmişə haqq sözə tapınasınız.**

**SÖZə olan eşqiniz heç zaman tükənməsin. 65 illik yubileyiniz mübarək olsun!**

# İran - ABŞ - İsrail



***Aləm KƏNGƏRLİ***

**Bu gün bütün sülhsevər insanları və ən çox da Azərbaycan vətəndaşlarını narahat edən əsas məsələ, şübhəsiz, qonşu İran dövlətinə, onun başında duran rejimə qarşı ABŞ-İsrail hərbi qüvvələrinin birgə apardığı müharibədir. Bu müharibənin uzanması, genişlənməsi, böyüməsi yaxşı heç nə vəd etmədiyindən ABŞ dövləti onu tez bir zamanda bitirməyə can atır. İrandakı hərbi strukturların doxsan faizinin məhv edilməsinə baxmayaraq, direniş davam etməkdədir. Sonuc əvvəldən məlum olsa da İran rəsmiləri tərəfindən səsləndirilən "Ataşkədən söhbət gedə bilməz! Amerika və İsraili məhv edənə qədər döyüşəcəyik!", "Müharibəni biz başlamamışıq, düşmənləri məhv etməkdə özümüzü haqlı hesab edirik!", "Heç bir danışıqdan söhbət gedə bilməz, sona qədər vuruşacağıq!" kimi şüarların özündə nəyi ehtiva etdiyi əslində aydındır. Məqsəd vətəndaşları İran dövlətinin gücünə inandırmaq, onları sakitləşdirmək və rejimə qarşı baş qaldıra biləcək növbəti üsyan dalğasının qarşısını almaqdır. İran vətəndaşları anlamamış deyillər ki, müharibəni İran rəhbərliyi başlamasa da başladılmasına o, səbəb olub. Biz İran hakimiyyət orqanlarının "Müsəlman qardaşlarımız dar gündə bizim yanımızda olmadılar" iradını da qəbul etmirik. Çünki qonşu dövlətə göstərdiyimiz maddi və mənəvi dəstək həmişə göz qabağında olub. Ancaq təəssüflər olsun ki, 44 günlük Qarabağ savaşı zamanı biz İran dövlətini müsəlman qardaşlarının yanında deyil, düşmən xristian dövlətinin tərəfində gördük. Onlar şanlı ordumuzun öz torpağımızda İranla sərhəd boyu irəliləməsinin qarşısını alaraq əlavə şəhidlər verməyimizə səbəb oldu. Bu, İran hakimiyyəti tərəfindən Azərbaycan dövlətinə qarşı arxadan vurulan ağır bir zərbə idi. Mən hələ İran tərəfdən Azərbaycan vəTürkiyəyə atılan raket zərbələrini demirəm. Baxmayaraq ki, Türkiyə dövləti də bu müharibədə İranı həmişə dəstəkləyib.**

Bu gün ABŞ-nin quru qoşunlarının İrana hücum edərək hakimiyyəti tam ələ keçirməsi real görünmür. Çünki bu, hər iki tərəfdən böyük insan tələfatına səbəb ola bilər. Amma bu çevriliş yerli camaatın, müxtəlif xalqların üsyanı nəticəsində tez bir zamanda reallaşa bilər. Fərz etmək olar ki, Amerika və İsrailin kəşfiyyat və xüsusi xidmət orqanları İranda bu istiqamətdə xeyli iş görüblər. Quru qoşunları o vaxt İrana girəcək ki, xalq rejimə qarşı yenidən üsyana qalxmış olsun.

Keçək baş verən bu hadisələrə qonşu ölkələrin münasibətinə. Baxaq görək istər Türkiyə olsun, istər-



sə də körfəz dövlətləri; onlar İranın atom silahına sahib olmasını istəyərmi? Əlbəttə ki, yox! İranın atom bombasına malik olması Yaxın Şərqdə böyük təhlükə mənbəyi olmaqla yanaşı, istər-istəməz qonşu dövlətləri də bu istiqamətdə silahlanma yarışına sövq etməyəcəkmi?! İranın parçalanması isə öz ərazilərini genişləndirmək üçün çalışan İsrail dövlətini daha böyük işğallara həvəsləndirə bilər. Demokratik prinsiplərlə deyil, irticaçı bir rejimlə idarə olunan İran dövləti nəyinki qonşu ölkələr, həmçinin öz vətəndaşları tərəfindən də dəstəklənmir. Bir neçə ay öncə öz doğal hüquqları uğrunda üsyana qalxan, sonucda meydanlarda dar ağaclarından asılaraq edam edilən insanların ailələrini silah gücünə nümayişlərə çıxarıb, İran rejimini müdafiə etməyə məcbur etmək gülünc və ikrah hissi doğurur. Deməli Türkiyə və qonşu dövlətlər İranın parçalanmasında deyil, rejimin məhv edilməsində maraqlı ola bilər. Görünən odur ki, ABŞ dövlət rəhbərliyi İranın maddi sərvətlərinə, əhalisinə deyil, əsasən hərbi strukturlarına zərbə vurmaqla qalib gəlmək və hakimiyyət dəyişikliyinə nail olmaq istəyir. Baxmayaraq ki, bu variant İsrail dövləti ni heç də qane etmir.

Müharibənin uzanmasının bir sıra səbəbləri vardır. Bunlardan birincisi Rusiya və Çin dövlətinin İrana göstərdiyi maddi və mənəvi dəstəkdir. Ukrayna-Rusiya müharibəsində ABŞ və Avropa dövlətləri Ukraynaya böyük hərbi yardımlar etdiyi üçün bu gün Rusiya da öz imkanları daxilində İrana köməklik edir. Bu arada İran dövlətinin Rusiyaya ötürdüyü davamlı hərbi yardımları da unutmaq olmaz. Çinə gəldikdə isə, aydındır ki, o, ABŞ dövləti ilə rəqabət aparan yeganə güc mərkəzidir. Odur ki, ABŞ dövlətinin bu müharibəni aparmaqda əsas məqsədlərindən birincisi dünya enerji resurslarını öz nəzarətinə keçimək istəyidir. Müharibənin uzanmasına digər səbəb isə döyüş başlamazdan öncə ABŞ və İsrail rəhbərliyinin bu savaşı Avropa dövlətləri ilə müzakirə etmədən, razılaşmadan həyata keçirməsi oldu.

**Və ona görə də müharibənin gedişində ABŞ dövləti avropalı müttəfiqlərindən kömək istəyərkən qarşı tərəfdən müsbət cavab ala bilmədi. Nəzərə alsaq ki, Çin və Rusiya dövlətləri bu savaşın bitməsində deyil, uzanmasında maraqlıdır, deməli müharibənin tez bir zamanda başa çatması üçün danışıqlara gedilməsi qaçılmazdır. Və bu danışıqlar yalnız ABŞ dövlətinin şərtləri çərçivəsində baş tutacaq. Əks təqdirdə bu, ABŞ-nin İrana məğlubiyyəti kimi dəyərləndirilə bilər. Aydındır ki, İran dövləti danışıqlara gedəcək. Yox əgər o, bunu etməsə, onda ABŞ-İsrail hərbi birləşmələri daha böyük və intensiv hücumlarla öz məqsədinə çatacaq.**



Etimad Başkeçid

# Anarın xeyli yaşı var...

Əziz dostlar, gözəl insanlar!

Yazıçı Anarla elə yaxın münasibətim yoxdur, heç vaxt da olmayıb.

Vaxtilə cavanların sırasında məni də Prezident təqaüdünə təqdim edib.

Romanımı Yusif Səmədoglu mükafatına layiq görüb.

Onun rusca yazdıgı bir neçə essesini dilimizə çevirmişəm, artıqlaması ilə pulumu verib, üstəlik "Azərbaycan" jurnalında yazdıgı yazıda mənə təşəkkürünü bildirib.

Anarla vur-tut bir dəfə telefonda danışmışam və tədbirlərdə bir neçə dəfə salamlaşıb, atüstü kəlmə kəsmişik.

Həsbi-haldan söhbət getmir.

Vəssalam!

Ondan heç vaxt heç nə xahiş etməmişəm, yanına minnətçi salmamışam, "ləbbeyk, ya Anar" - deyə, qəbul otagında itələşənlərdən olmamışam.

Zaman-zaman AYB-nin fəaliyyəti haqqında tənqidi fikirlər səsləndirmişəm. Hamısı durur.

Bunları ona görə deyirəm ki, bəzi "konspiroloq"larımız bu yazıdan fərqli mənalar çıxarıb, özlərini daga-daşa salmasınlar.



Beləliklə, Anarın xeyli yaşı var, orası elədir.

Uzun illərdir Yazıçılar Birliyinə rəhbərlik edir

Və elə təəssürat yaranır ki, Anarın sədrlikdən getməsini istəyənlərin hardasa bütün arqumentləri bu iki məqamın ətrafında qovr edir. Bu bəzi çevrələrdə bir növ ideya fiks, saplantılı fikir kimi bir şeyə çevrilib.

Dostlar, Yazıçılar Birliyinə sədrlik məsələsində məntiqli düşünə bilmək üçün emosional fonu ("Anarın uzun sürən sədrliyi", "sovet strukturunu və iş metodlarını saxlaması" və s.) və institusional gerçəklikləri bir-birindən ayırmaq lazımdır.

Baxın, yaradıcı mübarizə başqa şeydir, inzibati mübarizə tozanagı tamam başqa bir şey.

Vaxtilə Anarın üsul-idarəsinə qarşı cəbhə açmış bir qüvvə vardı, Yazıçılar birliyinin binasına "bayraq sancmaq" üçün mücadilə verirdi. Aydın məsələdir ki, Anarın qələbəsinin və alternativ qüvvələrin ugursuzlugunun fundamental səbəbi məhz bunda gizlənirdi. Yeni bayragı köhnə binanın damına sancmaqdansa, yeni bir estetik məkan yaratmaq daha dogru olmazdımı?

Anar bir yazıçı kimi öz "mənəvi bina"sını, oxucu yaddaşındakı estetik dünyasını çoxdan qurmuşdu. O, 60-cı illərdə özü köhnə təfəkkürə qarşı çıxanda bunu inzibati yolla deyil, "Ağ liman", "Beşmərtəbəli evin altıncı mərtəbəsi" kimi əsərlərlə, yəni yeni ruh gətirməklə etmişdi. Sosrealizmin cəmiyyətə sırıdıgı plakat qəhrəmanlardan imtina etməklə bu işi görmüşdü. Ona qarşı çıxanlar isə çox vaxt bu səviyyədə bədii alternativ ortaya qoya bilmədilər.

Anar bu proseslərdən qalıb çıxdı, çünki qarşı tərəf strategiyasını yalnız inkar üzərində qurmuşdu. Inkardan quruculuga keçə bilməyən hər bir hərəkat isə gec-tez sönməyə məhkumdur.

Əziz dostlar, Anar sovet klassikasını, müstəqillik dövrünü və müasir "rəqəmsal" ədəbiyyatı üzvi şəkildə bir-birinə baglayan təktək insanlarımızdandır. Azərbaycan ədəbiyyatının son yarım əsrdən çox dövrünü Anar imzası olmadan təsəvvür etmək mümkün deyil. O, bütöv bir epoxanın, mədəniyyət tipinin və intellektual azadlıgın simvoludur. Istəsək də, istəməsək də, bu belədir.

"Bizdə əvəzolunmazlar yoxdur" - Stalinin bu ifadəsi insanı sadəcə bir "vint" və ya statistik vahid kimi görürdü. "Bizdə əvəzolunmaz adamlar yoxdur" tezisi həm fəlsəfi, həm də yaradıcılıq baxımından kökündən yanlışdır. Xüsusən də söhbət Anar kimi bir fiqurdan gedirsə, bu yanlışlıq daha qabarıq görünür. İnzibati idarəetmədə bir məmuru digəri ilə əvəz etmək olar, çünki orada fərdi istedad deyil, icraçılıq önəmlidir. Lakin mədəniyyət və ədəbiyyat sferasında hər bir böyük imza təkrarolunmazdır.

Açıq deyirəm, Anarın rəhbərlik etdiyi təşkilat ənənənin və milli identikliyin qeydinə qalmaqla mükəlləfdir. Onun təcrübəsi ədəbiyyatı çox zaman yersiz və mənasız "konyuktur" təsirlərdən qorumaga xidmət etməlidir və edir.

Mən Anarı bütün təbəddülatlı zamanlarda öz yaradıcı müstəqilliyini və ləyaqətini qorumagı bacaran insan kimi tanıyıram.

O, klassik ənənələrlə müasir dövrün tələblərini bir araya gətirən gerçək avtoritetdir.

Ötənlərdə kitab sərgisinə gəlmiş bir qrup rus yazıçının Anarın görüşünü xatırlayıram, onların istəyilə. Adamın dərin hafizəsi, məntiqi, enerjisi, yüksək dialoq etikası Səlis rus dilində: sizdə asıb-kəsməyi, radikal ritorikanı və hədə-qorxunu "böyük mədəniyyət" nişanəsi sayanların sayı artıb - deyə bilən təəssübkeşliyi də öz yerində.

Əziz dostlar, yaş, filan sadəcə rəqəmdir. Anar AYB-nin sədrliyindən istefa versə, nə cəmiyyət, nə ədəbiyyat, nə də ölkə heç nə qazanmayacaq. Tam əksinə, çox şey itirəcək.

Şəxsən mən onun lap belə ömrünün axırınacan sədr qalmasını istəyirəm.

Ümid edirəm ki, belə də olacaq!

# SEYRAN SƏXAVƏT – SÖZÜN, RUHUN VƏ XALQIN YAZIÇISI



*Əlövsət Qaraca Əliyev, "Texnoloji İnkişaf Akademiyası" Elm-Təhsil-İqtisadiyyat İctimai Mərkəzinin rəhbəri, professor*

**Azərbaycan ədəbiyyatının tanınmış simalarından biri - yazıçı, şair, publisist və dramaturq Seyran Səxavət bu il ömrünün müdrik bir zirvəsinə - 80 illiyinə qədəm qoyur. Qarabağın qədim torpağında, Füzuli rayonunun Yağlıvənd kəndində dünyaya göz açan bu böyük söz adamı, illər boyu Azərbaycan ədəbiyyatına özünəməxsus səsi, nəfəsi və ruhu ilə xidmət etmiş sənətkarlardandır. Seyran Səxavət təkcə məşhur yazıçı deyil. O, həm də xalqın içindən çıxmış, xalqın içində yaşayan və xalqın nəfəsini duyan bir ziyalıdır.**

Mənim üçün Seyran Səxavət adı sadəcə bir yazıçı adı deyil. Hələ gənclik illərimdən - ötən əsrin 70-80-ci illərindən tanıdığım və sevdiyim bir sənətkardır. O illərdə onun "Ulduz" , "Azərbaycan" jurnallarında dərc olunan yazıları, yaratdığı canlı obrazlar mənim yaddaşımda silinməz iz buraxmışdı. Onun yaradıcılığında kənd həyatının təmizliyi, Qarabağ insanının xarakteri, xalqın sevinci və ağrısı elə bir səmimiyyətlə əks olunur ki, oxucu bu əsərlərdə öz həyatının izlərini görür. Hamamçı Abdulla kimi yadda qalan obrazlar, ərinə banka qoyan həkim diplomlu qızın hekayəsi, Qədir Rüstəmovla "Atüstü söhbət"i, rəqs edən İspaniyası, "Daş evlər"i, "Qızıl təşt"i, "İtlə intervü"sü, "Qaçaqaç"ı və s. kimi əsərləri - bunların hər biri oxucu ilə müəllif arasında xüsusi bir mənəvi körpü yaratmışdı. Bu əsərlərdə təkcə hadisələr deyil, insan taleyi, həyatın ironiyası, xalq yumoru və böyük bir həyat həqiqəti yaşayır.

Seyran Səxavət ədəbiyyata şeirlə gəlsə də, sonralar nəsrdə və dramaturgiyada parlaq uğurlar qazandı. Onun əsərləri Azərbaycan insanının xarakterini, milli düşüncəsini və zamanın mürəkkəb suallarını bədii şəkildə ifadə edən nadir nümunələrdəndir. Xalq şairi Bəxtiyar Vahabzadənin də qeyd etdiyi kimi, Seyran Səxavətin qələmi orijinallığı və özünəməxsus yumoru ilə seçilir.

Bu böyük sənətkarın yaradıcılığı təkcə kitab səhifələrində deyil, həm də teatr səhnələrində və ictimai fikirdə yaşayır. "Qızıl təşt", "Büst", "Qapıların o üzündə qalan dünya" kimi pyeslərin səhnə həyatı, onun dramaturq kimi də güclü istedadını sübut edir.

Eyni zamanda, Seyran Səxavət ölkəmizin ədəbi və ictimai həyatında fəal iştirak edən ziyalıdır. Uzun illər "Ədəbiyyat və incəsənət" qəzeti və "Ulduz" jurnalında çalışaraq Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr vermişdir. Onun publisistik fəaliyyəti də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əhəmiyyətli rol oynamışdır.

Mən Seyran Səxavəti təkcə kitabları ilə deyil, həm də canlı çıxışları ilə daha yaxından tanımışam. "Qarqanlılar" kitabının təqdimatındakı çıxışı, müxtəlif tədbirlərdə birgə iştirakımız - bütün bunlar onun nə qədər səmimi, gülərüz və enerjili insan olduğunu bir daha göstərmişdir.

SEYRAN SƏXAVƏT SƏXAVƏTLİ SÖZ USTASIDIR.

Azərbaycan ədəbiyyatı əsrlər boyu böyük söz ustadları yetirmiş, milli ruhumuzu, tariximizi və mənəvi dəyərlərimizi qoruyub yaşadan qüdrətli qələm sahibləri ilə zənginləşmişdir. Bu möhtəşəm söz karvanında özünəməxsus yeri, fərqli nəfəsi və səmimi üslubu ilə seçilən sənətkarlardan biri də Qarabağ torpağının yetirdiyi böyük yazıçı, şair, publisist və dramaturq Seyran Səxavətdir. Qarabağlı, Füzulili, Yağlıvəndli Seyran Səxavət Azərbaycan ədəbiyyatında yalnız bir müəllif kimi deyil, həm də bütöv bir ruhun, bir düşüncə tərzinin, xalq yaddaşının daşıyıcısı kimi tanınır. Onun yaradıcılığı xalqın həyatından doğan, insan talelərini, həyatın paradokslarını, zamanın ağrı və sevinclərini özündə birləşdirən böyük bir ədəbi aləmdir.

23 mart 1946-cı ildə Füzuli rayonunun Yağlıvənd kəndində dünyaya göz açan Seyran Səxavət taleyini söz sənəti ilə bağlayan nadir qələm adamlarından biridir. Qarabağın saf təbiəti, kənd həyatının sadəliyi, insanların səmimiyyəti onun xarakterinin və yaradıcılığının formalaşmasında mühüm rol oynamışdır. O kənd mühiti ki, orada insanın sözü də, baxışı da, davranışı da daha təmiz, daha səmimi olur - Seyran Səxavətin əsərlərində də məhz bu saflığın izləri açıq şəkildə görünür.

### *Ədəbiyyata aparan yol*

Seyran Səxavətin ədəbiyyata gəlişi ötən əsrin altmışıncı illərinə təsadüf edir. O zamanlar gənc oğlan kimi sözə vurğunluğu onu ilk şeirlərini yazmağa gətirib çıxardı. İlk şeiri 1962-ci ildə Füzulidə nəşr olunan "Qızıl Araz" qəzetində çap olundu. Bu, sadəcə bir şeir deyildi - gələcək böyük yazıçının ədəbi taleyinin başlanğıcı idi. Sonralar Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsil alması onun dünyagörüşünü genişləndirdi, sözə münasibətini daha da dərinləşdirdi. Fars dili üzrə tərcüməçi ixtisasına yiyələnən Seyran Səxavət, eyni zamanda, dünya ədəbiyyatının müxtəlif nümunələri ilə tanış olmaq imkanı qazandı. Bu isə onun yaradıcılığının formalaşmasına mühüm təsir göstərdi. Sovet ordusunda xidmət etdiyi illərdə də o, sözə bağlılığını itirmədi. Sonrakı dövrlərdə isə taleyini birbaşa ədəbi mühitlə bağladı. Uzun illər "Ədəbiyyat və incəsənət" qəzeti və "Ulduz" jurnalında çalışaraq həm öz yaradıcılığını inkişaf etdirdi, həm də Azərbaycan ədəbiyyatının inkişafına xidmət etdi.

### *Şairlikdən nasirliyə uzanan yol*

Seyran Səxavət ədəbiyyata şair kimi gəldi. Onun ilk şeir kitabları - "Adalar" (1970) və "Mənim planetim" (1977) gənc bir şairin poetik axtarışlarının nəticəsi idi. Bu şeirlərdə gəncliyin romantikası, sevgi, həyat haqqında düşüncələr, təbiətə bağlılıq və insanın daxili aləmi öz əksini tapırdı. Lakin zaman keçdikcə Seyran Səxavət öz yaradıcılığının əsas istiqamətini nəsrdə tapdı. Onun hekayə və povestləri Azərbaycan nəsrində yeni bir nəfəs kimi qarşılandı. Bu əsərlərdə həyatın adi görünən, lakin dərin məna daşıyan hadisələri, kənd adamlarının xarakteri, onların sadəliyi və müdrikliyi böyük ustalıqla təsvir edilirdi. Seyran Səxavətin nəsri ilk növbədə səmimiliyi və təbii dili ilə seçilir. Onun yazı tərzi süni pafosdan uzaqdır. Oxucu sanki müəllifin yazdığı hadisələrin içində yaşayır, personajlarla birlikdə düşünür və hiss edir.

### *Unudulmaz obrazlar və əsərlər*

Seyran Səxavətin yaradıcılığı zəngin və çoxşaxəlidir. Onun "Daş evlər", "Nekroloq", "Palıd toxumu", "Yəhudi əlifbası", "Qaçaqaç" kimi romanları müasir Azərbaycan nəsrinin diqqətəlayiq nümunələrindəndir. Xüsusilə "Nekroloq" romanı Azərbaycan Yazıçılar Birliyinin Yusif Səmədoğlu adına "İlin ən yaxşı romanı" mükafatına layiq görülmüşdür. Bu əsər müasir Azərbaycan cəmiyyətinin mənzərəsini geniş və təsirli şəkildə əks etdirir.

Onun hekayələri də oxucular tərəfindən böyük maraqla qarşılanmışdır. "Yüz ilin kişisi", "Madonnanın əri Fərəməz kişi", "Çayçı Rəşid", "Bir kisə kartof", "İt intervüsü" kimi hekayələr həm yumor, həm də həyat fəlsəfəsi ilə seçilir. Bu əsərlərdə müəllif insanın xarakterini, həyatın bəzən gülməli, bəzən isə acı tərəflərini böyük ustalıqla təqdim edir.

### *Dramaturq Seyran Səxavət*

Seyran Səxavət yalnız nasir və şair deyil, həm də istedadlı dramaturqdur. Onun "Qızıl təşt", "Büst", "Qapıların o üzündə qalan dünya" kimi pyesləri Azərbaycan teatrlarının səhnəsində uğurla tamaşaya qoyulmuşdur. Bu pyeslərdə cəmiyyətin mənəvi problemləri, insan münasibətləri və həyatın dramatik tərəfləri bədii şəkildə əks olunur.

### *Xalq adamı*

Seyran Səxavət haqqında danışarkən onun ən mühüm xüsusiyyətlərindən birini xüsusi qeyd etmək lazımdır: o, xalq adamıdır. Onun yaradıcılığı xalqın içindən doğur və yenidən xalqa qayıdır. O, insanları, onların gündəlik həyatını, düşüncələrini və problemlərini çox yaxşı tanıyır. Buna görə də onun əsərləri oxuculara doğma gəlir. Azərbaycanın tanınmış sənətkarları - Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Xəlil Rza Ulutürk, Fuad Poladov, Afaq Bəşirqızı və başqaları onun yaradıcılığını yüksək qiymətləndirmişlər.

### *Səksən yaşın gəncliyində təbrik və arzularım*

Bu günlərdə isə mən də AMEA Mərkəzi Elmi Kitabxanasında Seyran Səxavətlə keçirilmiş görüşdə iştirak etdim. Bu görüş təkcə bir yazıçı ilə görüş deyildir - bu, Azərbaycan ədəbiyyatının canlı bir səhifəsi ilə ünsiyyət idi.

Seyran Səxavət ömrünün 80 illik zirvəsinə çatır. Lakin bu yaş onun yeni yaradıcılıq enerjisi deməkdir. O, gənclik enerjisi ilə yazır, düşünür, danışır. Onun sözündə həyat eşqi, insan sevgisi və Vətən sevgisi yaşayır.

Böyük ustad yazıçı Seyran Səxavəti 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm. Böyük ustadın 80 illik yubileyi ərəfəsində onun haqqında düşünərkən bir arzum var:

Seyran müəllim elə-beləcə şux enerjili, istedadlı, gülərüz və sevilən qalsın. Onun qələmi hələ uzun illər Azərbaycan sözünün xidmətində olsun. Çünki belə sənətkarlar təkcə kitab yazmırlar - onlar milli yaddaşı, mənəvi dünyanı və zamanın ruhunu qoruyurlar.

Azərbaycan ədəbiyyatı sizin kimi sənətkarlarla yaşayır və zənginləşir. Qoy ömrünüz uzun, qələminiz iti, sözünüz həmişə canlı xalq dilində olsun. Arzu edirəm ki, həmişə elə-beləcə şux enerjili, gülərüz, şirin və sevilən sənətkar kimi qalasınız. Qələminiz heç vaxt dayanmasın, sözünüz daim oxucuların qəlbinə yol tapsın.

**TƏBRİK EDİRƏM, BÖYÜK USTAD SƏNƏTKAR - SEYRAN SƏXAVƏT!**



**Vaqif YUSİFLİ**
**Filologiya elmləri doktoru**

# "YAĞIŞDA İSLANMAYAN ADAMI"IN HEKAYƏTLƏRİ

**Səadət Sultanın "Yağışda islanmayan adam" kitabı.. Açığını deyim, bu müəllifin yazılarını (publisistik məqalələrini, hekayələrini, şeirlərini, esselərini, tərcümələrini) oxumamışdım. Bir müəllifin söz aləmii ilə tanışlıq da elə bu kitabdan başladı. Əvvəlcə müəllifin bir etirafı ilə sözə başlayaq. "Hələ yeniyetməlik çağlarında Səbail rayonundakı Həbib bəy Mahmudbəyov adına 2 saylı texniki-humanitar elmlər liseyində oxuyarkən, ədəbiyyata, yazıçı və şairlərə, əsərlərin qəhrəmanlarına xüsusi maraq göstərdim. Çoxlu kitab oxuyurdum, özümü bəzən personajların yerində hiss edirdim, onlara oxşamaq keçirdi könlümdən. Düşünürdüm: "Görəsən, mən də əsər yaza bilərəmmi, kitabım çap olunarmı?".**

Təbii ki, bu hiss, bu duyğu ədəbiyyata, şeirə həvəsli olan hər bir gəncin ürəyindən keçə bilər. Gəncliyin ilk çağlarında hamı belə düşünə bilər, çünki qan bədəndə necə cövlan eliyirsə, şeirə maraq və şair olmaq istəyi də bütün arzularının içində dolanır. Amma yüzün doxsan doqquz nisbətində bu arzuya =bu vüsala qovuşmaq baş tutmur. Yaxşı ki, Səadət Sultan könlündən keçən bu arzunu həqiqətə çevirə bildi. Ali təhsil aldığı universitet illərində ilk bədii yazılarını qələmə aldı. "Sərçə" hekayəsi onun ədəbiyyata ilk gəlişi oldu. Gəlin, söhbətimizə elə o hekayədən başlayaq. Çünki hər hansı bir yazarın nəyə qadir olduğunu, gələcək yazıları üçün müəyyən stimul yarandığını ilk hekayəsindən də təyin etmək olar. .Dahi tənqidçi V.Q.Belinski yazırdı ki: "Yaradıcılıq qabiliyyəti təbiətin böyük nemətidir .Sənətkar yaratmaq qabiliyyətini hiss edir. Bu ehtiyac ona öz iradəsindən asılı olmayaraq, birdən-birə, gözlənilmədən, çağırılmadan gəlir".

"Sərçə" hekayəsində təbii ki, təcrübəsizlik nəzərə çarpır, Səadət Sultan hələlik ilk hekayəsində nəqlə üstünlük verir. Amma bu hekayədə ideya var, müəllifin nə demək istədiyi gizli qalmır. Oğurluq üstündə həbs edilən Famil üç il sonra azadlığa buraxılır, amma özünə iş tapa bilmir, saatlarla oturub xəyallara dalır. Və bir gün qərara alır ki, çörəkpulu qazanmaq üçün Vətəni tərk eləsin. Anası ona "getmə, oğul!" desə də, qərarını dəyişmir. Hekayənin ideyası sonda açılır, Famil saxladığı göyərçin damına qalxır. Və baxıb görür ki, göyərçinlərin hamısı uçub gedib. "Ancaq bir cüt sərçə isə qürbətdə yaşamaqdansa, öz Vətənini üstün tutub, həmin taxçanın üstündə oturub, heyran-heyran Familə baxırdı. Sanki baxışları ilə öz yiyələrinə deyirdilər: "Qürbtətdə yaşanan ömür cəhənnəmin bir parçasıdır!". Səadət Sultanın digər hekayələrində də biz müəllifin təsvir etdiyi qəhrəmanların timsalında müəyyən bir ideyanın açıqlandığını görürük. Məsələn, "Yağışda islanmayan adam" hekayəsində müəllif layihə institutunda mühəndis işləyən Mərdanın bir iş gününü iəsvir edir- Mərdan əvvəlcə yaşlı bir qadına, sonra isə qoca bir kişiyə yaxşılıq edir və iş gününün sonunda da institutun rəhbərindən layihəsi ilə bağlı xoş sözlər eşidir. Hekayə buradaca bitərmi? Amma yox, müəllif hekayəsini bədii bir sonluqla bitirir. Yaz yağışı, baharın gəlişi: "Hərdən ona elə gəlirdi ki, yağan yaz yağışı onun üzərinə yox, yalnız ətrafa yağırdı. Bütün bunlar onun insanlara verdiyi yaxşılıqlarından, xeyirxah əməlindən xəbər verirdi. Yağışda islanmayan adam idi sanki ". Səadəi Sultanın hekayələrində əsas qəhrəmanlar həyatsevər insanlardır. Onlar yaxşılıq etməkdən usanmır, doğulduqları torpağı sevir, Vətən məhəbbətini hər şeydən uca tutur, səadət və xoşbəxtlik uğrunda mübarizə aparırlar. Bəzən istədiklərinə, arzularına qovuşa bilmirlər, bəzən də laqeydliyin, etinasızlığın qurbanına çevrilirlər. Amma onlar mənəviyyatca saf və işıqlı insanlar kimi yaşayırlar.

"Mükafat "qutusu"na sığan ömür" hekayəsində professor Səlim Teymurov bütün ömrünü elmə həsr edib. İllər



ərzində yüksək elmi nailiyyətlər qazanıb, dünyanın müxtəlif ölkələrində elmi konfranslarda Azərbaycanı təmsil edib, yetişdirdiyi tələbələrin sayı-hesabı yox Amma o, kiçik, şəraitsiz bir mənzildə yaşayır. Onun elmi fəaliyyətinə görə mükafatı-medalı var, bu medal kiçik bir qutuyu yerləşib. İndi ömrünün sonlarıdır. Kiçik və şəraitsiz otaq, kiçik qutu Bunları fikirləşdikcə professorun gözlərindən yaş axır. İstər=istəməz oxucu belə bir sual verə bilər:budurmu elm fədaisinə verilən qiymət?

Mənim Səadət Sultanın hekayələri içərisində ən çox bəyəndiyim "Sonuncu dayanacaq"dır. Uzun illər pedoqoji fəaliyyətlə məşğul olan Sitarə xanım indi təkdir, kimsəsizdir, oğlu ona qarşı laqeyddir.

Sitarə xanım qərara alır ki, Qocalar evinə yollansın. Taksi şoferi Əjdər onu həmin məkana aparır və pul da almır. "Daha bir ömür tarixçəsi bu bağlı qapılar arxasında sona yetdi". Kədərli hekayədir.

Hekayələr haqqında bu qədər. Ancaq kiçik bir iradım var. O da bundan ibarətdir: yaxşı olar ki, Səadət Sultan hekayələrində publisistik haşiyələrə, qeydlərə yol verməsin, daha çox bədiilik meyarına sadiq qalsın.

Səadət Sultan mənim fikrimcə, birmənalı şəkildə publisistdir. Təbii ki, onun publisistik yazıları bədii publisistika sayılmalıdır. Əgər belə olmasa, onun təqdim etdiyi məlumat və informasiyalar yavan-yalxı danışığa, nəqlə çevrilərdi. İkincisi, hər publisistik yazıda -hansı problemdən və ya hansı şəxsiyyətdən söz açırsansa, o problem aydın şəkildə izah olunmalıdır, o şəxsiyyət isə kamil bir insan kimi gözlərimiz qarşısında canlanmalıdır. İlahiyyatçı Hacı Şahin kim idi?-hamımız bilirik.Yazıda isə bir daha onu dərk edirik. Azərbaycanın dilbər guşələrindən biri olan Lerik haqqında üç yazı var. Həmişə Lerik haqqında söz düşəndə Xalq şairi, mərhum deməyə dilim gəlmədiyi Fikrət Qocanın bu misralarını xatırlayıram: "Allah cənnət yaradanda Leriki düşünürmüş". Və ondan əvvəl də Mikayıl Müşfiqin bu misralarını: "Bakıya getməsin sənin xəyalın, Göylərdə lacivərd, əlvan buludlar, Yerlərdə meşələr, boylu palıdlar, Hər tərəf yaşıllıq, hər tərəf orman.." Səvdət Sultanın Lerik səyahəti məlumat, informasiya zənginliyi ilə diqqəti cəlb edir. Biz onunla addım-addım Leriki gəzir, dağların, qalaların, tarixi məkanların, meşələrin, zəngin bitki örtüklərinin, bir sözlə, gözəllik sərgilərinin tamaşasına dalırıq.

Səadət Sultanın "Nurlu ömrün yolları" məqaləsi akademik Zərifə Əliyevanın ömür yoluna həsr edilib. Açığını deyim, mən Zərifə xanımın həyat yoluna, bir alim və həkim kimi ondan bəhs edən çox yazılar oxumuşam, amma Səadət Sultanın bu yazısı tamam fərqlidir. O, Zərifə xanımı hər şeydən öncə, bir ANA kimi - Azərbaycan qadını kimi təqdim edir. Onu ulu öndər Heydər Əliyevin məsləkdaşı kimi tanıdır. Ümumiyyətlə, Səadət Sultanın publisistik yaradıcılığında portret janrı əhəmiyyətli yer tutur. Onun yaxşı tanılığı bir el ağsaqqalı - Mətləb Axundov haqqında oçerki də maraqla oxunur.

Təbii ki, publisistikada dövrün, zamanın reallıqları da öz əksini tapmalıdır. Səadət Sultan cəmiyyətdə, yaşadığı mühitdə cərəyan edən hadisələrə laqeyd qalmır və qala bilməzdi. Kimsə deyə bilər ki, onun publisistikasında hələlik ictimai rezonans doğuran problemlərdən, həyatdakı neqativ hadisələrdən, xaos və hərcmərclik doğuran məsələlərdən söhbət getmir. Amma diqqət yetirdikdə görürük ki, müəllif bir neçə yazısında məhz ağrı doğuran və bizim hamımızı düşündürən məsələlərə toxunur. Məsələn, qanunsuz vəkillik fəaliyyəti ilə məşğul olanlara azmı təsadüf etmişik? "Axı, nə vaxta qədər bu millət belə üzdəniraq vəkillərin əlində oyuncağa çevrilərək, müfliis vəziyyətdə qalacaqlar? Bunun bir sonu yoxiu?".

Yaxud, pandemiyadan sonra intiharlar niyə artır? Bu sualın da cavabı çox dəqiq verilib: "Dövlət öz insanlarına hər bir çətinlikdən çıxmağa kömək etməli, onları aclığın, səfalətin, işsizliyin cəngindən qurtarmalı, bir sözlə, vətəndaşına sahib durmalhıdır". İnternetin uşaqların psixologiyasına təsirini hamımız görürük. Və Səadət Sultan kiçik bir yazıda böyük həyəcan siqnalı qaldırır.

**Səadət Sultanın "Yağışda islanmayan adam" kitabı haqqında sözümü onun şeirləri haqqında qısa qeydlərimlə bitirmək istəyirəm. Məncə, onun şeirləri də təbii hisslərdən doğulub. Əgər publisistik yazılarında daha çox ağıl, şüur hərəkət edirsə, şeirlərində ÜRƏK öndədir."Büküb bir kağıza xatirələri, Yolların izindəı çaxlayacağam". "Soyuq havalarda yada sal məni Buludlar səmada yarışanda gəl". Belə siqlətli misralar var onun şeirlərində. Amma bu şeirlərin içində poetik baxımdan mükəmməl olmayan nümunələr də var. Səadət Sultanın "İkinci ömrümü yaşayıram mən" şeiri onun ən uğurlu, poetik cəhətdən ən müakəmməl şeiridir. Səadət Sultan hər dəfə əlinə qələm alıb şeir yazanda qoy elə bu ŞEİRİ xatırlasın:**

***İkinci ömrümü yaşayıram mən,***
***Solan yarpaqlardan soruşun məni.***
***Həyatın yükünü daşıyıram mən,***
***O gedən karvandan soruşun məni.***

O KARVANDAN AYRILMA...

*Rza RZAYEV*

# Biri var idi – Fuad Poladov!



**Bunu demək ayıb sayılmamalıdır, çünki hamı dünyasını dəyişəcək, amma çoxu torpağın altına qırıq-qırıq gedəcək, çox azı isə bütöv - Fuad Poladov kimi.**

**Fuad Poladov puluna, sərvətinə, vəzifəsinə görə hörmət edilən şəxs deyildi.**

**Heç sözü keçən də deyildi, amma sözü kəsərli idi, sözü təsirli idi, sözü yer edirdi.**

**Dava da bu yerin davasıdır - əlavə imkanlar istifadə edilmədən qazanılan hörmət, sevgi!**

**Və Fuad Poladov ikinci və sonuncu dəfə "Azdrama"-nın binasını etiraz əlaməti olaraq tərk etdi, başqa aktyora edilən haqsızlığa görə. Bu etiraz da onun sonunu gətirdi, ilk öncə etiraz edən səsini itirdi, səssiz qalanların içində yaşamaq istəməyib səssizcə səssizliyə çəkildi və onun boğazında itən səsi daima haqsızlıq edənlərin qulağında eşidiləcəkdir.**



**Dərmanlar var ki, onlar bölünmür, gərək bütöv udasan, yəni qırılmaq (bölmək) üçün yerləri yoxdur, belə insanlar da var, onların doğuşdan qırılan yerləri yoxdur, onları heç nə ilə qırmaq (bölmək) olmaz.**

**Və yenə yada Fuad Poladov düşür. 2003-cü ildə, məlum mitinqdə çıxış edən sənət adamlarından bəzisi dediyini səhəri gün yaladı, bəziləri isə zaman keçdikcə. Amma uzun illər boyu bütün gizli təqib və təzyiqlərə baxmayaraq, Fuad polad kimi dözdü, özünə görə düz olan mövqeyini sona qədər qorudu, həm də Kişiliyini!**

**Başqalarının başqa baxdığı, normal adam kimi baxmadığı əsl sənət insanı başqalarının ağrısının şəklini çəkə-çəkə, öz fərdi ağrılarını unudur və bir müddət sonra öz şəklini dəyişir- Fuad Poladov kimi! Yoxsa, "Ailəm var, uşaqlarım var" deyib ağ vərəq imzalamır.**

# Zülmətdən işığa gedən yol

***Ata hər axşam evin sakit guşəsində oturub düşünərdi. Pəncərədən süzülən işıq onun üzündəki narahatlığı daha da aydın göstərirdi. Həsən və Kənan qarşısında oturub diqqətlə atasına baxardılar. Ata isə sanki sözləri seçə-seçə danışardı - elə bil hər kəlmə bir toxum idi və o toxumu övladlarının qəlbinə səpirdi.***

***- Oğlum, insanın əsl sərvəti nədir? - deyə soruşardı.***

***Həsən bir qədər düşünüb cavab verərdi:***

***- Əxlaqdır, ata.***

***Kənan isə əlavə edərək deyərdi***

***- həm də doğru yol.***

***Ata başını tərpədib razılıq edərdi. Bu cavablar onun qəlbinə bir az su səpərdi, amma bu su heç vaxt tam susuzluğunu yatırmazdı.***

***Günlər keçirdi, nəsihətlər davam edirdi. Ata hər dəfə övladlarından eşitdiyi düzgün cavablarla qürurlansa da, daxilində qəribə bir sızıltı qalırdı. O sızıltı susmurdu. Çünki o bilirdi - ev bir məktəbdir, amma həyat bir meydandır.***

***Bir gün ata tək qaldı. Öz-özünə danışmağa başladı:***

***"Evimdə qurduğum nizam, verdiyim tərbiyə, öyrətdiyim əxlaq bunlar kifayətdirmi? Axı cəmiyyət bir ailə deyil. Hər ev başqa cür nəfəs alır, hər qapıdan başqa səslər gəlir. Mənim övladım başqa evlərin səssiz dərslərini də eşidəcək..."***

***O an ata başa düşdü ki, tərbiyə yalnız öyrətmək deyil - qorumaqdır da. Amma qorumaq divar çəkmək deyil, güclü kök salmaqdır.***

***Ertəsi gün yenə oğullarını yanına çağırdı.***

***- Oğlum, - dedi, - elə insanlar olacaq ki, sənə doğru olmayanı doğru kimi göstərəcəklər. Elə sözlər eşidəcəksən ki, ürəyinlə ağlın arasında qalacaqsan. O zaman nə edəcəksən?***

***Həsən bu dəfə daha aram cavab verdi:***

***- Sənin öyrətdiyini xatırlayacağıq, ata.***

***Kənan isə dedi:***

***- Və öz vicdanımızı dinləyəcəyik.***

***Ata susdu... Amma bu dəfəki sükut başqa idi. Bu sükut narahatlığın yox, bir az ümidin sükutu idi.***

***Sükutun səssizliyinə bürünən ata özü özlüyündə düşünərək dedi- övladını cəmiyyətdən ayıra bilməzsən. Amma ona elə bir ruh verə bilərsən ki, o, cəmiyyətin içində itib getməsin.***

***Axşam yenə pəncərədən işıq düşürdü. Ata bu dəfə o işığa baxıb düşündü:***

***"Əgər qəlbdə işıq varsa, qaranlıqdan qorxmağa dəyməz..."***

***Yetər ki,qaranlıqdan işığa baxmağı bacarasan!***

**Bəhram BİLALOĞLU**



# BAYAT



№ 77 (937)

## Mənim də qismətim qürbətə düşdü, O dağlara gəlməyimdən keçdi tay...



Vahid ƏLİFOĞLU

### NƏ GETMƏYƏ, NƏ QALMAĞA ÜZÜM VAR

Kim çəkibsə bu çevrəni, sözüm yox,
Ha axtardım, ha fırlandım, izim yox.
Nə getməyə, nə qalmağa üzüm yox,
Bir az qal var, bir az öl var içimdə.

Dağın dibi, yalın dalı nağıldı,
Gümanlarım it unu tək dağıldı.
Sularında balıqları boğuldu,
Kürüsü çürümüş göl var içimdə.

Nə açarı, nə kilidi hasarın,
Gor evinə çəkilidi hasarın...
Bu gördüyün şəkilidi hasarın,
Arxasına gizli yol var içimdə.

Çoxdu tez qazanan, gec dolandıran,
Durmadı qabağa heç, dolandıran...
Qışda neçə sürü, köç dolandıran,
Yayda örəniyən çöl var içimdə...

### FƏLƏSTİN UŞAQLARI

Uşaq atasından güclü
heç kimi bilməz.
Atalarının
Bir barmaq qurşun önündə,
Nə qədər aciz olduğunu
Öz gözləri ilə gördülər.
Beşikdən tank olmaz,
Yüyrükdən təyyarə.
Gülləyə atılan ilan kimi,
Qaldılar qıvrıla-qıvrıla,
Qaynar qumun üstündə-
Fələstin uşaqları...

Bu dünyanın şərqində
Güllələnən uşaqların
qığıltısı himn deyil
Göz yaşları adi sudu,
İçində bir ovuc duz əirimiş...
Qışqıra-qışqıra,
Hıçqıra-hıçqıra,
Mərmilərin, raketlərin
"Atdöşündə" qaranəfəs...
Yerdə qaçanlardan,
Göydə uçanlardan,
Kürəyini, sinəsini
Nişangahda saxlayandan,
Hər kəsdən, hər şeydən,
Aman dilər, mərhəmət umar-
Fələstin uşaqları...

... Buşun da nəvələri var
Raysın bətni-
Cəhənnəm dərəsi...
.. Qərbin baş nazirləri,
Dəmir nazirləri, daş nazirləri...
Namussuzluğu, fahişəliyi ilə
fəxr edən,
İt nazirləri, quş nazirləri,
Kişi olsalar da,
ata deyillər...
qadın olsalar da,
ana deyillər...
... Cəlladdan törənən də
cəllad olacaq, vallah...
La ilahə illəllah...
... Nəyə nifrət,
Kimə lənət?..
... Gözlərin görə-görə,
Ağlın kəsə-kəsə
Əlac edə bilməyəsən
Sevdiklərinə, əzizlərinə...

Bir gün baxırsan ki,
Öz boy-buxunun
dar ağacıdı özünə,
Əllərin də kəndirdi boğazına.
Və ayaq üstə,
öz əllərinlə.
Öz-özünü boğub öldürmüsən,
Xəbərin də olmayıb...

***

Karvan getdi, dalınca bax,
Bu kəsərsiz qılınca bax.
Yorğana bax, balınca bax,
Yatırtdı nağıllar bizi.

Bəxt karxana sərər, görməz,
Yetişməmiş dərər, görməz...
Allahdan gün görər-görməz,
Səbətə yığırlar bizi...

Göy nə çəkdi, yer bilmədi,
Biçən biçdi, vər bilmədi.
Anasına ər bilmədi,
Bilmədi oğullar bizi...

Nə fərqi var - erkək, dişi,
Tərgitməyək bu vərdişi.
Qurutmağa dəyməz, kişi,
Onsuz da sağırlar bizi...

***

Xoşbəxt günlərimiz harda qurtarır,
Nahaq çəkdirirdin sən, bu hasarı.
Bütün icazələr burda qurtarır,
Niyə aşmalıyam mən, bu hasarı?

Quru xəyallarda yaşayır adı,
Əkmədin, gözləmə biçində heç nə.
Hər şey bu sarayın hasarındadı
Girsəm nə tapacam içində - heç nə.

Tənhalıq ömrümə ələyir qarı
Qonaqsız evlərdə dərd var, azar var.
İndi göy üzünün mələyi - qarı,
Endi yer üzünə, yerdə hasar var...

Eh, giley-güzardı axırda sevgi
Kağız çiçəkləri quşdan kiçikdi.
Vallah, şişirdirsən, bu xırda sevgi
Üst-üstə qoyduğun daşdan kiçikdi...

Sənsiz ölməmişəm illər uzunu,
Arvad söhbətiymiş məni ağrıdan.
Niyə bilməmişəm, illər uzunu,
Hasar həsrətiymiş məni ağrıdan...

Qılıqlı nəfəsə, sevdalı səsə
Ölüm ayağında çatdım həmişə.
Dünyadan nə umdum, nə istədimsə,
Hasara bükülü tapdım, həmişə...

Deyirdim ki, bəlkə çıxdı qanadım,
Göylər yurd yeridi, yer yuvasızdı.
Yaxşı ki, uçmağa yoxdu qanadım,
Yaxşı ki, bu hasar darvazasızdı...

***

Açdım hər sirrimi yoldan keçənə,
Yüz başa bir sınıq qoldan keçənə.
Didilmiş yun qalır koldan keçənə,
Yazdım şeirləri mən nahaq yerə.

Bir çöp itkisinə çoxdu göynəyən,
Aclara nə var ki, toxdu göynəyən.
Mənim dərdlərimə yoxdu göynəyən,
Yazdım şeirləri mən nahaq yerə.

Bülbüldən matahdı millətə, bayquş
Neyləsin ləkəli qeyrətə bayquş?
Biz vətənə yükük, qürbətə bayquş,
Yazdım şeirləri mən nahaq yerə...

Yolsuz yolçuların itiyi sözdü,
Dağılmış evlərin kötüyü sözdü.
Şair balasının yediyi sözdü,
Yazdım şeirləri mən nahaq yerə.

Götürüb daş kimi atdılar məni,
Keçi qiymətinə satdılar məni,
Qoyun sürüsünə qatdılar məni,
Yazdım şeirləri mən nahaq yerə.

Yel vurur, sovrulan külümə heyif,
Sevə bilmədiyim ölümə heyif,
Əlli il çəkdiyim zülümə heyif!
Yazdım şeirləri mən nahaq yerə

Kim bilir, qayğısız yerdə doğulsam,
Gülərəm doyunca dərdə, doğulsam.
Mən şair olmaram, bir də doğulsam,
Yazdım şeirləri mən nahaq yerə...

***

Dərd qovurdu, qəddim, boyum qurudu
Dərdli sinəm oyum-oyum qurudu.
Dəhnəm uçdu, selim-suyum qurudu,
Gözlərimi silməyimdən keçdi tay

Kaman kimi gərilmişəm Vətənsiz,
Sarfa-sarfa dərilmişəm Vətənsiz,
Yüz yol ölüb-dirilmişəm Vətənsiz,
Birdəfəlik ölməyimdən keçdi tay

Sozüm yoxdu yerə enmiş meymuna,
Məclislərdə şirə dönmüş meymuna.
Çox əyildim itə minmiş meymuna,
Bu hikmətə gülməyimdən keçdi tay

Vahid Əlifoğlu zillətə düşdü,
Qısıldı yadlara, minnətə düşdü.
Mənim də qismətim qürbətə düşdü,
O dağlara gəlməyimdən keçdi tay...

***

Bu dünyadı, gün də yazır,
Dağa-daşa çən də yazır.
Bəndə pozur, bəndə yazır,
Fələyin adıymış elə...

Çələdədi sirr, quş gəlməz,
Tora, dənə hər quş gəlməz.
Yüzün yandır, bir quş gəlməz,
Lələyin adıymış elə...

Fırlan görüm, təkər şeytan
Uçuruma çəkər şeytan.
Şah iblisdi, nökər şeytan,
Mələyin adıymış elə.

Yollara bax, yol ağıdı,
Yolçu getmir, dərd dağıdı...
Torpaq qutu qapağıdı,
Bələyin adıymış elə.

Ovcumda gözüm, itmədi,
Gözümdə izim itmədi...
Ha tutdum, üzüm itmədi,
Ələyin adıymış elə...

***

Yıxıldım, anam yıxıldım,
Tutmağa qol da yoxdu heç.
Dediyimi nəynən deyim,
Deməyə dil də yoxdu heç.

Bu yazını yazan yazıb,
Yazdığını sapdan asıb.
Bəydən saman kasıb,
Girməyə kol da yoxdu heç.

Tük tərsinə, dəllək naşı,
Arsız sifət, döndü, qaşı.
Hanı bu dəlinin başı,
Səpməyə kül də yoxdu heç.

Nağıllar pərən-pərəndi,
Axırı dağa dirəndi.
Dörd yanımız it hürəndi,
Getməyə yol da yoxdu heç.

Bitməyən kötük qalmayıb,
Yeməyə kötək qalmayıb.
Tutmağa ətək qalmayıb,
Ətəklik əldə yoxdu heç...

***

Çəmənin xalçası yox,
Mən bu bağı neyləyirəm.
Armudu yox, alçası yox,
Mən bu bağı neyləyirəm.

Duman yenib tül açılmır,
Bülbül ötmür, gül açılmır.
Ağacına əl açılmır,
Mən bu bağı neyləyirəm.

Gələn gəldi, söydü, bitdi
Torpağın su döydü bitdi.
Nar qurudu, söyüd bitdi,
Mən bu bağı neyləyirəm.

Çiçəkləri yağdı elə,
Xəyallarda sağdı elə...
Özü boyda dağdı elə,
Mən bu bağı neyləyirəm...

***

Bir quş idi uçdu belə,
Ha yürüdüm qaçdı belə...
Qurumuş ağacdı belə,
Meyvəsin dərdiyim səngər.

Oyundusa oyun hanı,
Qalx ayağa, boyun hanı?
Sən arxsansa suyun hanı?
Sinəmi gərdiyim səngər.

Kiminsə süzdüyü anam,
Əcəlin özüydü anam.
Yaman qırmızıydı anam,
Yuxumda gördüyüm səngər...

***

Bu dünyadı, ağrın alım,
Deyib-güləcəkmi hamı?
Kişi kimi, arvad kimi,
Bir gün öləcəkmi hamı?

Dərd də sıxıldığı yerə,
Axar yığıldığı yerə.
Qaçıb dağıldığı yerə,
Qaçıb gələcəkmi hamı?

Dillənəcək bu lal haram,
Başdaşıdı, qalar haram...
Tərəzidi halal-haram,
Çəkib böləcəkmi hamı?

Su döydükcə qapısını,
Damı çöküb, qapı sınıb...
Şəhidliyin qapısını,
Aça biləcəkmi hamı?

# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

№ 12 (2484) 3 aprel 2026-cı il

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# KƏLBƏCƏRƏ QAYITDIQ, CƏNNƏTİ GÖRDÜK





**Azərbaycan çox çətin və ağır günlər yaşayıb. Həmin ağır günlərdən də biri ərazilərimizin 20 faizdən çoxunun erməni faşistləri tərəfindən işğal edilməsi olub. Yəni ermənilər 1992-93-cü illərdə Azərbaycanın gözəl məkanlarından olan Kəlbəcəri, Şuşanı, Laçını, Ağdamı, Füzulini, Zəngilanı, Qubadlını və digər yaşayış məntəqələrimizi havadarlarının köməyi ilə ələ keçirtdilər. Təbii ki, Azərbaycan heç vaxt torpaqlarının işğal altında olması ilə razılaşa bilməzdi. Düzdür, bu işğal 30 ilə yaxın davam elədi, amma Azərbaycan bütün qüvvəsi və gücü ilə 2020-ci il sentyabrın 27-də ayağa qalxdı, 44 günlük İkinci Qarabağ savaşında işğal altında olan torpaqlarını azad elədi.**

Təbii ki, 2020-ci ilin noyabrın 10-da üçtərəfli bağlanmış müqaviləyə əsasən Ağdam, Laçın və Kəlbəcər müəyyən müddətdən sonra Azərbaycana təhvil verilməli idi.

Və həmin müddət bitəndə işğal altında olan bu ərazilərimizi ermənilər tərk etdilər. Amma tərk edəndə də yenə erməniliklərini və iç üzlərini göstərdilər. Onlar yaşadıqları evləri, sosial obyektləri yandırıb çıxdılar. Lakin bununla da kifayətlənmədilər, meşələrimizə od vurdular və qədim mədəniyyət abidələrimizi dağıtdılar. Bütün bunlar bayaq dediyimiz kimi, bir daha erməni faşistlərinin simasını göstərdi.

Heç şübhəsiz, Azərbaycan prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərimizin yenidən tikilməsi, inşa edilməsi və qurulması üçün çox böyük qüvvə sərf etdi. Təbii ki, qalib dövlətin Ali Baş Komandanı, prezident İlham Əliyev böyük quruculuq işlərini gerçəkləşdirmək üçün çox ağır bir yükün altına çiyin verdi. Torpaqlarımızı işğaldan azad etmək necə çətin idisə, yandırılmış, daşı daş üstə qalmamış yaşayış məntəqələrini də yenidən tikmək, bərpa etmək bir o qədər çətin iş idi.

Əlbəttə, bu çətinliyə baxmayaraq, öz daxili imkanları hesabına Azərbaycan çıxış yolu tapdı və işğaldan azad olunmuş rayonlarımızda böyük abadlıq və quruculuq işlərinə başlanıldı.

Üstəlik də bütün yaşayış məntəqələrində ermənilər minalar basdırmışdılar və onları da zərərsizləşdirmək elə də asan iş deyildi.

Ona görə də həmin sahələr minalardan təmizləndikcə böyük quruculuq işlərinə start verildi. Füzulidə, Ağdamda, Qubadlıda, Zəngilanda, Laçında böyük tikinti işlərinə başlanıldı. Özü də heç bir xarici dövlətin və beynəlxalq təşkilatın gücü olmadan. Ağır müharibədən çıxmış ölkəmiz tək başına, qısa zaman kəsiyində adını çəkdiyimiz rayonlarda çox möhtəşəm işlər gördü.

Bax, belə möhtəşəm işlərdən biri də Kəlbəcərdə gerçəkləşdi. Kəlbəcər bəlkə də dünyanın ən gözəl təbiəti olan məkanlarından biridir. Buranın buz bulaqları, yaşıl meşələri, güllü-çiçəkli ormanları və bir də ”İsti su”yu dünyanın heç harasında yoxdur. Dünyanın heç harasında olmayan bu gözəllikləri görmək, bu güllərdən, bu çiçəklərdən zövq almaq, ətrini duymaq yenidən kəlbəcərlilərə qismət oldu.

Və Kəlbəcər şəhərində onlarla yeni binalar, sosial obyektlər, məktəb, uşaq bağçası, tibb məntəqəsi, digər tikililər inşa edildi. Rayon mərkəzində müasir standartlara cavab verən asfalt yol çəkildi. İşıq, qaz, su xətti istismara verildi. Bu gün Kəlbəcərdə yüzlərlə insan və ailə məskunlaşıb. Biz onların bir neçəsi ilə söhbət etdik və qonaqları olduq.

Qonağı olduğumuz mənzillərdən birinin sahibi Fikrət Əhmədovdur. Fikrət qardaşımız deyir ki, Kəlbəcərin bütün fəsilləri gözəldir. Amma Kəlbəcərin yazı qədər gözəl yaz mən görməmişəm. Düzdür, o biri rayonlarımız da füsunkardır, qəşəngdir, əgər dağlara, ormanlara, çöllərə baxsan görərsən ki, nə qədər və neçə cür çiçək var. Burda bənövşənin, lalənin öz şirinliyi, öz əsrarəngizliyi var. Biz onlara baxıb yenidən rahat nəfəs alırıq. Çünki Kəlbəcərsiz keçirdiyimiz günlərdən bizə dərd-kədər, travma qalıb. Ən azından ona görə ki, biz burdan çıxanda güllənin, topun yağış kimi yağdığı vaxtlar çıxmışıq. Neçə əzizimizi itirdik və bir neçəsi də əsir düşdü. Heç onlardan da bir xəbər olmadı. Burdan gedəndə ağlaya-ağlaya getdik, amma Kəlbəcərə qayıdanda yenə ağladıq, amma bu ağlamaq o ağlamaqdan deyildi - sevinc göz yaşları idi.

İndi bizə üçotaqlı, hər cür şəraiti olan mənzil veriblər. Burda işə də düzəlmişəm, uşaqlarım da iş tapıb işləyirlər, əsas məsələ odur ki, 30 ildən sonra öz dədə-baba yurduma, cənnət Kəlbəcərə qayıtmışam. Bundan gözəl nə ola bilər?

Onun digər qonşusu Məhərrəm Əliyevlə də söhbət edirik. Deyir ki, məcburi köçkünlük və qaçqınlıq vaxtı Kəlbəcəri yuxumda görürdüm. Yuxudan qalxanda uşaq kimi ağlayırdım. Evdə məni güclə kiridirdilər.

Çünki yuxuda görürdüm ki, evimiz yandırılıb, meşələrimizə od vurulub, şəhərin daşı daş üstə qalmayıb. Elə Kəlbəcər alınandan sonra da ermənilərin bu namərdliyini gördük. Amma ölkə prezidenti, Ali Baş Komandan, bizim üçün həmişə güvənc və arxa yeri olan İlham Əliyev qısa zaman kəsiyində digər rayonlar kimi Kəlbəcərdə də evlər tikdirib, bizi ora köçürtdü. İnanın, ömrümdə heç vaxt belə sevinməmişəm. Çünki ağır günlər yenə mənim yadımdadır. Biz Kəlbəcəri tərk edəndə qardaşımı və atamı ermənilər əsir götürmüşdülər. Qardaşımı öldürdülər, sonra atamı əsir götürüləndən bir müddət sonra Qızıl Xaç Cəmiyyəti qeydə almışdı, ona görə də bir müddətdən sonra onu geri qaytardılar.

Bütün bu ağrılarımız-acılarımız ürəyimizə çəkilmiş bir dağdır. Və bu dərd heç vaxt yadımızdan çıxmayacaq. Bizi sakitləşdirən yenidən Kəlbəcərə qayıtmağımız, yeni tikilmiş müasir evlərdə məskunlaşmağımız, evimizin işığının yanması, ocağımızın yenidən alovlanmasıdır. Yəni bizim ikinci bir xoşbəxt günümüz başlayıb.

**Bütün kəlbəcərlilər Vətənə, bu cənnət məkana qayıtdıqlarına görə Ulu Öndər Heydər Əliyevə minnətdarlıq edirlər. Onlar deyirlər ki, hələ 1994-cü ildə bizimlə görüşdə Heydər Əliyev deyirdi ki, vaxt gələcək hamınız öz yurdunuza qayıdacaqsınız. O vaxt gəldi, biz Ali Baş Komandan, Prezident İlham Əliyevin və Azərbaycan Ordusunun 44 günlük möhtəşəm zəfəri ilə öz yurdumuza geri döndük. Bax, bu kəlbəcərlilər üçün ən böyük sevinc və ən böyük mükafatdır!**

**Emil FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

## Hər şeyə qulp qoymaq şakərimiz...



*Aydın BAĞIROV*

"Türkiyə yaxşı oynamadı, amma ağıllı oynadı". Son illər həm də bir futbol eksperti kimi sevilməyə başlayan Nihat Kahveçinin milli komandalarının səfərdə Kosovonu məğlub edib mundiala yüksəlməsinə "Kontraspor" verilişində ilk rəyi belə oldu.

Məntiqli yanaşmadır.

Türkiyə 2023-cü ildən bəri italyan Vinçenzo Montellanın rəhbərliyi altında bəzən azarkeşin ləzzət aldığı oyun göstərir. Bəzən də darıxdırıcı. Amma baxaq görək, FİFA-nın üzvü olan neçə milli komanda var? 211. O 211 milli komanda içində hətta reytinq zirvəsində olan millilər belə həmişə yaxşı oyunla uğur qazanmır. Hətta yaradıcı oyunu ürəyə yağ kimi yayılan İspaniya belə.

Necə deyərlər, "ən yaxşı oyun tablodakı nəticədir".

Bəs nəticə Türkiyə üçün nə deyir?

Onu deyir ki, "ay-ulduzlular" 24 il sonra dünya çempionatının final mərhələsinə yüksəlib. 2 il əvvəl isə elə bu komanda Avro-2024-də 1/4 final oynamışdı. Böyük zəhmətin, neçə-neçə oyunda qazanılan qələbələrin sayəsində. Nəticə həm də onu deyir ki, Türkiyə milli komandası geriyə yox, irəliyə gedir. Zamanla, səbrlə. Futbolçuları Avropada o TOP liqa qalmayıb ki, ora səpələnməsin. Birinin xoş sorağı "İnter"dən gəlir, o birinin qürurlu sədası "Real"dan, daha birininki "Yuventus"dan.

... Və Kosovo millisi.

Biz azərbaycanlıların bu komanda ilə bağlı kədərli bir xatirəsi də var. 2018-ci ildə dünən Türkiyənin qələbə çaldığı Priştina stadionunda komandamıza Millətlər Liqasında qalib gəlib (4:0) qrup birincisi olmuşdular.

Üzərindən çox keçməmiş həmin məğlubiyyətə, daha doğrusu, bircə məğlubiyyətə görə AFFA-nın o vaxtkı uzaqgörən rəhbərliyi millinin baş məşqçisi Qurban Qurbanovu istefaya göndərmişdi. İndi görün, o oyundan sonrakı 8 ildə Kosovo necə və nə cür inkişaf etdisə, mundialın bir addımlığına kimi irəliləyə bildi.

... Və biz.

Kosovo dünya çempionatı üçün oynayanda isə Azərbaycan millisi FİFA-nın uğursuz eksperimentlərindən sayılan FİFA Seriyası adlı populyar olmayan, bəlkə heç vaxt da olmayacaq bir balaca turnirin qalibi adını qazandı. Vur-tut 3 komanda arasında. Və bu 3 komandadan biri belə FİFA-nın reytinqində heç 118-ci yerdən də yuxarıda deyil.

Amma olanımız da budur, axı. Reallıqlar var. Hər nə qədər zəif rəqiblər üzərində qələbələr tam ürəyimizcə olmasa da, illərdir futbolumuzun problemlər içində can verməsini görməzdən gəlməməliyik. Elə bil tutub boğublar ki, nəfəs alma. Bu gün deyil, 2 il deyil, 20 ildən çoxdur. Köhnələr təzələrə müsbət sayılacaq bir miras belə buraxmayıb.

Futbol bacarıqla idarə olunmayıb, saya-hesaba gəlməyən o qədər nöqsana yol verilib ki, gəlib düşmüşük Millətlər Liqasında ən zəif 6 komandanın yarışdığı D liqasına. Yəni daha bundan o tərəfə yarış qalmayıb ki, sonuncu olsaq, gedib orada da oynaya biləк.

1 günə, yaxud 2 ilə futbolçu yetişmir, amma 20 ilə yetişir, yetişə bilir. Özü də lap ələsindən. Amma problemin dərinliyi kaş D liqasına düşməyimizlə bitə idi.

Aşağı yaş qrupları üzrə bütün milli komandaların nəticələri, səviyyəsi, qələbəyə həsrət qalması bizim futbol üçün gələcəkdə daha böyük problemlərin siqnalı sayılmalıdır. Odur ki, AFFA ilə yanaşı həm də varlı klublarımızadır sual. "Qarabağ"adır, "Neftçi"yədir, "Sabah"adır. Hanı yetirməniz olan yaxşı azərbaycanlı futbolçular? Kimi yetişdirmisiniz, daha doğrusu, niyə yetişdirməmisiniz? Bir-iki qabiliyyətli yeniyetmə və gənci çıxmaqla.

İndi bu acı gerçəklikləri bilə-bilə, görə-görə bəzi azarkeşlərimiz arasında Türkiyənin qələbəsinə qulp qoyanlara da rast gəlinir. "Kosovo nə komandadır?" kimi naşı suallar ünvanlanır. Əlbəttə, Kosovonun DÇ-2026-nın pley-off finalına yüksəlməsi elə ən yaxşı cavab olardı. Amma daha bir tutarlı cavab həm də Vedat Muriqidir.

Bəs, kimdir Vedat Muriqi?

Vedat Muriqi Kosovo millisinin mərkəz hücumçusudur. Həm də İspaniya La Liqasında "Malyorka"nın üzvüdür. Və Muriqi bu mövsüm həmin yarışda düz 18 qol vurub! O, milyonyarımlıq bu balaca ölkənin adı futbol dəftərində olmayan "Liria" adlı klubun yetirməsidir.

Bəs, bizimkilər hardadır?

## "Heç şübhəsiz, Rasim Balayev kinomuz üçün daha böyük obrazlar yarada bilərdi..."



**"Aktyor Rasim Balayev bizi tərk etdi. Mənim üçün onun "Xalq artisti" olmasının heç vaxt önəmi olmayıb. Bu haqda ciddi düşündüyümü də xatırlaya bilmirəm. Yaxşı rolları ilə yadımda qalıb.**

**Məncə, yaşanmış bir aktyor taleyi üçün bir rol, iki rol da az deyil. Kinematoqrafçılar İttifaqının katibi rəhmətlik dostum Abbas Əliyevə görə müəyyən təmaslarımız olmuşdu. Hiss etdiyim ən ümdə keyfiyyətləri sadəlik, təvazökarlıq və onun üzünü nadir hallarda tərk edən böyük sənət qüssəsi idi". Adalet.az xəbər verir ki, bunu yazıçı Səfər Alışarlı deyib.**

O, bildirib ki, Azərbaycan incəsənətinin, belə deyək, İlhamə Quliyeva dövründə bu xüsusiyyətləri aramaq üçün gündüz çıraqla gəzmək lazım idi: "Belə götürəndə, aktyor nədir ki? Klassik mentallitetimizdə aktyorun tamam ayrı obrazı mövcuddur. Kino və teatrın inkişafı onu ciddiləşdirsə də, mahiyyət az dəyişdi.

İllər öncə çoxmilyonluq tirajla bütün covet məkanına yayılan "Sovetski ekran" jurnalının üz qabığında görmüşdüm onun gənclik portretini. Hollivud əfsanəsi ola bilərdi. Sovet hökuməti türkə ondan artıq heç nə etməzdi. Məşhur səhra günəşində çoxarvadlı türk Abdulla roluna gürcü aktyoru çəkməmişdilərmi? Heç şübhəsiz, Rasim Balayev kinomuz üçün daha böyük obrazlar yarada bilərdi. Həmin obrazları oynamağa onun gücü, potensialı yetərdi, ancaq onları aktyora verməyə Azərbaycan milli dramaturgiyasının gücü çatmadı. Yaxın onilliklərdə də çatacağına inanmıram. Sənət şedevri üçün yaxşı aktyor, yaxşı ədəbi qəhrəman, yaxşı kinolentinin və rejissorun olması azdır. Yaxşı zaman və yaxşı məkan da olmalıdır.Allah Rasim Balayevə rəhmət eləsin! O, bacardığını etdi, özündən sonra gələnlər üçün boylanmağa da nəsə qoyub getdi".

**Vasif ƏLİHÜSEYN**

## Aktyor: "İllərlə işlədiyim teatra qayıtmaq istəsəm də..."



**Aktyor Azər Axşam yenidən teatra qayıtmaq istəyir. Adalet.az xəbər verir ki, o, bununla açıqlamasında teatra dönmək arzusunu dilə gətirib:**

"Mən teatrdan getdim. Yeni layihələr üzərində işlədim. Buna baxmayaraq, teatrı unutmadım, mənim üçün teatr əzəmətdir. Bəs teatrı idarə edənlər? Burda susacam. Bəzən elə olub ki, teatra qayıtmaq istəmişəm. Darıxmışam teatr üçün. İllərlə işlədiyim teatra qayıtmaq istəsəm də, rəhbərlik mənə deyib ki, hazırda ştatda yer yoxdur. Gülüb keçmişəm. Heç nə deməmişəm. Axı mən bütün bu şeylərə şahid olmuşam".

**Əntiqə**

## Süni intellektlə idarə olunacaq klub yaradılır

**İngiltərədə bir qrup investor futbol tarixində qeyri-adi layihə üzərində işləyir.**

QOL.az xəbər verir ki, "The Sun" nəşrinin məlumatına görə, konsorsium tamamilə süni intellekt tərəfindən idarə olunan futbol klubu yaratmağı planlaşdırır. Layihəyə əsasən, klubda heyətin seçimi, taktika və dəyişikliklər kimi bütün qərarlar insan müdaxiləsi olmadan veriləcək. Bildirilib ki, xüsusi proqram təminatı oyunçuların fiziki və psixoloji durumunu analiz edərək start heyətini müəyyənləşdirəcək. Hətta fasilələrdə motivasiya çıxışları üçün Ser Aleks Ferqyuson və Xosep Qvardiola kimi məşqçilərin nitqlərindən ibarət bazadan da istifadə olunacaq.

Qeyd edək ki, transfer danışıqları və müqavilələr də süni intellekt əsaslı çat-bot vasitəsilə aparılacaq ki, bu da agentlərin rolunu azalda bilər.

Xatırladaq ki, layihənin reallaşacağı təqdirdə klubun İngiltərə futbol sisteminə daxil edilməsi planlaşdırılır və bu təşəbbüs artıq idman ictimaiyyətində geniş müzakirələrə səbəb olub.

## Səməndər Məmmədov haqqın dərgahına qovuşdu



**50 ilə yaxın pedaqoji sahədə çalışmış, böyük ziyalı, böyük müəllim, Borçalı elinin böyük oğlu, yazıçı - publisist, Prezident təqaüdçüsü, "Cümhuriyyətinin yüz illik" medalçısı, Azərbaycan Yazıçılar Biliyinin üzvü, gözəl insan Səməndər Məmmədov haqqın dərgahına qovuşdu!**

**Yeri Cənnət olsun!**

## Xalq artisti: "Mənim üçün "Nəsimi", "Babək" indi öldü"



**Xalq artisti Fatma Mahmudova həmkarı Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri xalq artisti Rasim Balayevin ölümü ilə bağlı Adalet.az-a açıqlamasında onun ölümü ilə barışmadığını söyləyib:**

" Xalq olaraq hər kəs Azərbaycan kinosundan bir dahi itirdi, amma mən həm də bir həmkar və bir doğma insan itirdim. Mənim üçün "Nəsimi", "Babək", "Beyrək" indi öldü. Rasim Balayevin ölümünü heç cür qəbul edə bilmirəm. Elə bilirəm bu hadisə yuxudur. Onun ölümü ilə kinomuzun böyük bir hissəsi getdi. Heyf, çox heyf Rasim Balayevdən".

Qeyd edək ki, xalq artisti Rasim Balayev 29 mart 2026-cı ildə İstanbulda müalicə aldığı xəstəxanada vəfat edib. O, martın 30-da Azərbaycan Dövlət Akademik Dram Teatrında keçirilən vida mərasimindən sonra Birinci Fəxri Xiyabanda dəfn olunub.

## Prodüsser: "O, qaynanasına gəlinlik, övladlarına analıq edə bilmədi"



**Prodüsser Asif Kərimov əməkdar artist Elnarə Abdullayevanın müdafiəsinə qalxıb.**

Adalet.az bildirir ki, o, müğənnin "müğənni qız almaram" fikrinə aydınlıq gətirərək, onu qınayanları günahlandırıb:

"Elnarə deyəndə müğənni qız almaram, hamı onu qınadı. Amma anlamadılar ki, özü müğənniliklə pul qazanan adam heç vaxt bu peşəyə pis gözlə baxmaz.

Elnarə sadəcə olaraq bir qadının məişət qayğılarına, analıq mövqeyinə görə belə söz deyib. Elnarə özü səhnədə gözəl çıxış etdi. Amma doyunca qaynanasına gəlinlik, övladlarına analıq edə bilmədi. Çünki səneti, peşəsi buna imkan vermədi. Çətin yollar keçdi. Əziyyət çəkdi. Məhz bu səbəbdən Elnarə müğənni gəlin istəmir. Ancaq görürəm ki, hər kəs öz arşını ilə ölçür".

**Əntiqə**

Əbülfət Mədətoğlu şair

**Ələsgər Əlioğlunun**

vəfatından kədərləndiyini bildirir, mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Faiq Qismətoğlu ailə üzvləri ilə birlikdə tanınmış pedaqoq, Borçalı elinin böyük ziyalısı, yazıçı-publisist

**Səməndər Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir, oğlanları Tural və Ramilə dərin hüznlə başsağlığı verirlər.

Məhərrəm Qasımlı, Musa Nəbioğlu, Elşad Həsənov, Fərman Kazımov və Şikar Hüseynov pedaqoq, Borçalı elinin böyük ziyalısı, yazıçı-publisist

**Səməndər Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir, oğlanları Tural və Ramilə dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A
Telefon: (012) 491-23-53
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 272
Çapa imzalanmışdır: 02.04.2026